# VƏHHABİLİK VƏ YANLIŞ ƏQİDƏLƏRİ

VƏHHABİYYƏTİN TARİXÇƏSİ

VƏHHABİLİYİN YANLIŞ ƏQİDƏLƏRİ

VƏHHABİLİYİN HƏQİQİ MÜSƏLMANLARAİFTİRA VƏ BÖHTANLARI

VƏHHABİLƏRİN CİNAYƏTLƏRİ

VƏHHABİLİYİN ZİDDİYYƏTLİ MÖVQEYLƏRİ?

SƏHİH HESAB ETDİKLƏRİ KİTABLARDA GÜLMƏLİ HƏDİSLƏR

VƏHHABİLƏRİN GÜLMƏLİ EHKAM VƏ FƏTVALARINDAN

VAHHABİLİYİN QANUNLARI

# VƏHHABİLİK NƏ ZAMAN YARANDI?

## VƏHHABİYYƏTİN TARİXÇƏSİ

Vəhhabiyyət firqəsi 1143-cü hicri ilində (1723) Ərəbistan yarımadasında meydana gəlmişdir. İnanc prinsiplərində və şəriət hökmlərində başqa məzhəblərlə fərqlənir. Bu firqənin ardıcıllarına "vəhhabi" deyirlər. Onlar özlərini həqiqi müsəlman, sair müsəlmanları isə azğın və müşrik hesab edərək onlara həqarət gözü ilə baxırlar.

Onlar öz məntiqsiz fikirlərini müsəlmanlara qəbul etdirmək üçün zorakılıq nümayiş etdirirlər. Bu firqənin banisi Məhəmməd ibn Əbdül Vəhhab Təmimi (ilk dəfə bu firqənin əndişə və fikirlərini yaradıb yayan şəxs) olduğuna görə vəhhabiyyət adlandırılıb. Bu firqənin inancları, özünün batil əqidə və inhiraflarında fəsad və azğınlıqda məşhur olan Əhməd ibn Təymiyənin inancları ilə uyğundur.

## VƏHHABİYYƏT FİRQƏSİNİN RƏİSİ

Məhəmməd ibni Əbdül Vəhhab Təmimi bu firqənin başçısıdır. O, 1111-ci hicri qəməri ilində dünyaya gəlib. Cavanlıq dövründən dinə yabançı olan əqidəyə malik olub. O, elm öyrənmək üçün Məkkə və Mədinə alimlərinin yanına gedib-gəlirdi. Müəllimləri onun sözlərini, əməllərini, əqidə və meyllərini gördükdə, azğınlığa və inhirafa düşdüyünü görmüş və onu bu işdən çəkindirmişlər.

Hənbəli alimlərindən biri olan atası Əbdül Vəhhab, oğlunun dindən çıxmasını, öz məzhəbini buraxıb həddi aşmasını gördükdə ona nəsihət edib, yol göstərməyə başladı. Amma bu nəsihət onda heç bir təsir qoymadı, əksinə, o, daha da inadkar olub azğınlaşdı. Atası oğlunun hidayət və tövbə əhli olmadığını gördükdə öz yanından qovdu. Həmişə onu danlayıb camaatı ondan uzaqlaşdırardı. Nəhayət o, camaatın gözündən elə düşdü ki, hətta onu görənlər ondan tez uzaqlaşardı. Hənbəli alimləri onun əleyhinə qalxıb onu öz məclislərindən qovdular. Hətta qardaşı

Şeyx Süleyman onun batil əqidə və bidətlərini rədd etmək üçün bir kitab yazdı. Məhəməd ibni Əbdül Vəhhab elə cavanlıq dövründən Səccah, Müsəyləmeyi-kəzzab və s. kimi yalandan peyğəmbərlik iddiası edənlər barəsində olan dastan və rəvayətləri mütaliə etməyə çox həris idi. Arzu edərdi ki, onlar kimi olub onların getdiyi yolla getsin. Böyüklərin və ustadlarının təzyiqləri nəticəsində qərara aldı ki, öz əleyhinə olan qalmaqalları yatırtmaq üçün müvəqqəti olaraq vətənini tərk etsin. Bəsrə şəhərində bir neçə dostu olduğuna görə ora səfər etdi. Amma bu qəzəbli təzyiqlər Bəsrədə də onu rahat qoymadı. Çünki şeyxlərdən biri Bəsrə əhalisinə məktub yazıb onları Məhəmməd ibni Əbdül Vəhhabın azğın fikirlərindən xəbərdar etdi. Bu xəbər şəhərdə yayıldı və camaat onu görən kimi ondan uzaqlaşardı. Həmin günlərdə İslama zərbə vurmaq və müsəlmanların arasında təfriqə salmaq üçün mənfur niyyətlə Bəsrə şəhərinə gəlmiş İngiltərənin İslam ölkələrindəki casusu Mister Hemfer Məhəmməd ibni Əbdül Vəhhabın dinə və hənbəli məzhəbinə yad olan əqidədə olduğunu eşidəndə, öz məqsədlərini həyata keçirmək üçün onun mühüm adam olduğunu anladı. Buna görə də onunla dost olmaq üçün tədbir tökdü. Birlikdə Bəsrənin kənarındakı mənzərəli yerlərə gedib, uzun müddət öz vaxtlarını əyləncələrdə və pis əməllərdə keçirirdilər.

Əksər vaxtlarda Hemfer öz dediyi kimi, vaxtının çoxunu İbni Əbdül Vəhhaba sərf edir, onu məişət pozğunluqlarına və iffətsiz əməllərə sövq edirdi. Bu səfər və gəzintilərdə Hemfer onu öz əqidəsində sabit və möhkəm qalmağa daha çox təşviq edir, onu öz yanlarından qovub onun əleyhinə qalxan alimlərin, hətta öz atasının müqabilində müqavimət etməyə tövsiyə edərdi.

Bir müddətdən sonra onların dostluğu zirvə həddinə çatdı: bir yerdə yemək yeyir, birlikdə kirayə olunmuş otaqda, özü də Hemferin hesabına yaşayırdılar. İbni Əbdül Vəhhab nə işləyirdi, nə də bir yerdən gəliri var idi. Buna görə də Hemfer onun bütün xərclərini–yemək, geymək və digər lazım olan şeyləri təmin etməyi

öz öhdəsinə aldı. Nəticədə ibni Əbdül Vəhhab ingilis casusunun qolubağlı quluna çevrildi. Hər bir şeydə onunla tam razılaşır, heç vaxt Hemferin istəklərinin əleyhinə çıxmırdı. Hemfer əvvəllər ərəb dilini öyrəndiyindən, ibni Əbdül Vəhhabla müxtəlif məsələlər barəsində gözəl şəkildə söhbət edə bilirdi. O, özünün xatirə kitabında (32-ci səhifədə) yazır:

(İbni Əbdül Vəhhab) həris bir cavan idi, Quran və sünnətə öz düşüncəsi əsasında əməl edirdi. Qurandan çıxartdığı hökmlər təkcə öz dövrünün alimlərinin, şeyxlərinin və dörd məzhəbin deyil, hətta Ömər və Əbu-Bəkrin də nəzəriyyələrinin əksinə idi və onların nəzəriyyələrini əhəmiyyətsiz hesab edirdi.

34-cü səhifədə yazır:

Mən ibni Əbdül Vəhhabda öz məqsədimi və "itirdiyimi" tapdım. Çünki onun dinə qarşı laqeydliyi, özünü dövrün böyüklərindən ayrı salması və 4 xəlifəyə etina etmədən öz nəzəri ilə Quran və sünnətdən hökm çıxartma əqidəsi ona nüfuz etmək üçün ən zəif nöqtə idi.

Başqa bir yerdə yazır:

Bizim rabitəmiz möhkəm idi. Mənim həm şəhərdə olduğum, həm də onunla səfərə çıxdığım vaxtda vəzifəm onda (dini hökmlər müqabilində) istiqlal və azadlıq ruhu tərbiyə edərək, qəlbində şəkk yaratmaq idi.

35-ci səhifədə yazır:

Qərara aldım ki, Quran təfsiri barəsində alimlərin, məzhəblərin və səhabələrin rə"yləri əsasında deyil, ibni Əbdül Vəhhabın məxsus fikirlərinə uyğun şəkildə mübahisəyə başlayam.

39-cu səhifədə yazır:

Beləliklə, yavaş-yavaş iman paltarını onun əynindən çıxartdım.

İngilis casusu ibni Əbdül Vəhhabdan tam arxayın olduqdan sonra onun əli ilə mənfur imperiya hiyləgərliklərinə başladı. Qeyd etmək lazımdır ki, Hemfer məhz bu məqsədlə Bəsrəyə gəlmişdi və bu hiylələr aşağıdakılardan ibarət idi:

1) İslamın həqiqi simasını dəyişib onu namaz və orucdan başqa bir şeyi olmayan cansız (ruhsuz) bir din kimi tanıtdırmaq;

2) Camaatın gözündə İslam Peyğəmbərinin əzəmət, ehtiram və izzətini əhəmiyyətsiz cilvələndirmək, "Peyğəmbər ölübdür və ölünün də heç bir qiyməti, əzəməti və əhəmiyyəti yoxdur" deməklə, Peyğəmbərin (s) şəxsiyyətini zəiflətmək;

3) Müsəlmanların Peyğəmbərə təvəssül etmək, ondan kömək istəmək, mübarək qəbrini ziyarət etmək və s. kimi mühüm işlərdə əqidələrini zəiflədib diqqətlərini yayındırmaq;

4) Müsəlmanlar arasında düşmənçilik və kin yaratmaq; (Məsələn, deyirlər ki, hər kəs ibni Əbdül Vəhhabın ideya və fikirləri ilə müxalifət etsə kafir və münhərifdir; onu öldürmək, malını qarət etmək caizdir.)

5) Bu azğın fikirləri və əqidələri yaymaq, müxalifləri məsuliyyətə cəlb edib cəzalandırmaq məqsədi ilə təxribatçı, terrorçu qruplar təşkil etmək, müxaliflərə qarşı zorakılıq tətbiq etmək və ...

Digər tərəfdən, İngiltərə dövləti bu planın həyata keçirilməsi və Əbdül Vəhhaba qiymətli hədiyyələr verməsi üçün öz casusunu lazımi şəkildə maliyyələşdirirdi. Məhəmməd ibni Əbdül Vəhhab artıq bu planları yerinə yetirmək üçün mister Hemferə söz vermişdi. Hemfer isə, öz vəzifələrinə düzgün əməl edəcəyi surətdə Nəcd, Hicaz və əş-Şərqiyyə məntəqələrinin hökumətini ona verməyi vəd etmişdi.

O zaman ibni Əbdül Vəhhab bu sözlərdən təəccüblənərək demişdi:–Mən sizin belə qüdrətinizin olmasını bilmirdim! Bu işi necə edə bilərsiniz?!

Hemfer gülümsəyərək demişdi:–Böyük Britaniya sənin əqidələrinin yayılmasına kömək edəcək... Bizim dövlət, xalqları bu batil xurafatlardan qurtarmaq, müsəlmanları bu xəyallardan mədəni dünyaya tərəf sövq etdirmək istəyir. İstəmirsən ki, sənin müşavirin olub pul verməklə kömək edim?

O, cavabında deyir:–Sizin əqidə, düşüncə və fikirləriniz mənimki ilə eyni olduğu halda, nə üçün qəbul etməyim?! Məgər qəbul etməmək axmaqlıq deyilmi?

Bundan sonra onların arasında olan əlaqə özünə başqa bir şəkil aldı və bu münasibətlərdə yeni-yeni səhifələr açıldı. Başqa tərəfdən Hemfer o zaman Riyaz şəhərinin ətrafında olan Məhəmməd ibni Səud ilə görüşüb təklif etdi ki, ibni Əbdül Vəhhab ilə həmkarlıq etsin. O, ibni Əbdül Vəhhaba bu məzhəbi yaymaqda kömək etmək təklifini qəbul etdi, əvəzində isə onun hökumətinin gücləndirilməsini xahiş etdi. Bu hadisədən sonra Düriyyə əhalisi öz hakimləri tərəfindən vəhhabi məzhəbini qəbul etmək məcburiyyətində qaldı. Həmin vaxtlar ətraf qəbilələrə bu təzə məzhəbə tabe olmaq tələbləri göndərilir və itaət etməyəcəkləri halda, kütləvi şəkildə qırılacaqları söylənilirdi. Onlar da canlarının qorxusundan bu məzhəbə tabe olur və bununla da vəhhabi məzhəbi müxtəlif məntəqələrə yayılır, hədə-qorxu və qılınc gücünə məşhurlaşırdı. Məzhəbin rəisi də öz əqidə və fikirlərini aşkar şəkildə, heç bir qorxu olmadan təbliğ edir, müxaliflərə amansızcasına divan tuturdu.

Məhəmməd ibni Əbdül Vəhhab öz şəhərindəki ardıcıllarına "ənsar", sair şəhərdə olanlara isə "mühacirin" ləqəbi vermişdi. Hər kəs ona iman gətirməmişdən əvvəl həccə getmiş olsaydı, həcci yenidən yerinə yetirməyə əmr olunurdu. O deyirdi: "Əvvəlki həccin qəbul olunmayıb, çünki sən müşrik halında həcc əməllərini yerinə yetirmisən!!" Onun məzhəbini qəbul etmək istəyən hər kəsə deyirdi: "Özün şəhadət ver ki, indiyə qədər kafir idin; yenə də şəhadət ver ki, atan, anan və filankəslər (keçmiş alimlərdən bir qrupunun adını sadalayırdı) hamısı dünyadan kafir gediblər." O kəs də əgər şəhadət versəydi, ondan razı olardı, əks halda onun qətl hökmünü verirdi.

O deyirdi: "Müsəlmanlar son 600 ilə kimi kafir olublar. Hər kəs mənə itaət etməsə, hətta oruc-namazı yerinə yetirib Allahdan qorxsa da kafir olur." O, öz məmurlarına onunla müxalifət edən

hər bir müsəlmanı qətlə yetirib əmlakını müsadirə etməyi icazə vermişdi. Yalnız ona itaət edənləri həqiqi müsəlman hesab edirdi. Hansı ki, onlar özləri fasiq, facir və günahkar idilər, həmişə Peyğəmbəri (s) pis sözlərlə, pis adla istehza və məsxərə edirdilər.

Peyğəmbərə (s) salavat göndərməyi çirkin bir iş hesab edir, camaatı minbərlərdə, mağazalarda, hətta cümə gecələrində o Həzrətə salavat göndərməyə qoymurdu. Hər kəs də bu işi görsəydi, onu şiddətlə cəzalandırırdı. Hətta kor bir azançını azandan sonra Peyğəmbərə salavat göndərdiyinə görə qətlə yetirmişdi.

O deyirdi: Zinakar qadının günahı minbərdə Peyğəmbərə salavat göndərənin günahından azdır. Həmçinin öz müridlərinə deyirdi: "Mənim etdiyim hər iş tovhidin hifzi üçündür." Əmr etmişdi ki, onun rəy və əqidələri ilə müxalif olan hər bir kitabı, hətta çoxlu fiqh, hədis, təfsir və dua kitablarını yandırsınlar. O deyirdi: "Allah bir cisimdir ki, aşağı düşür, yuxarı çıxır; onun əli, üzü, əzası və bədəni vardır."

Övliya və ənbiyalara təvəssül etmək, qəbirlərini ziyarət etmək, qəbirlərinin üzərində məqbərə tikmək, müctehidə təqlid etmək və s. kimi işləri haram və bu işləri görən hər kəsi kafir hesab edirdi. Ümumxalq fikrini azdırmaq, sadə adamları aldatmaq üçün Quranı özbaşına təfsir edir və ayələri özü bildiyi kimi yozurdu. Öz nəzəriyyələrini doğrultmaq üçün başqa mövzulardan söz açan, şən və səbəbi-nuzulu (nazil olma səbəbi) uyğun olmayan ayələrə istinad edirdi.

## VƏHHABİLİYİN YANLIŞ ƏQİDƏLƏRİ?

Artıq iki əsrdən çoxdur ki, bütün dünya müsəlmanları Muhəmməd ibni Əbdulvəhhabın dünyaya parazit kimi buraxdığı əqidələrin müqabilində müxtəlif sübut və dəlillər gətirməklə məşğuldurlar. Bu cavablara qane olmayıb təzə peyda olmuş məzhəbə özlərini murid kimi bağlayan insanlara yazığımız gəlir. Bu səbəbdən belə yazıqları əsil bədbəxtlikdən xilas etmək üçün biz də onlara kömək məqsədi ilə vəhhabi əqidələri haqqında qısa məlumat hazırlamağı lazım bildik.

**VƏHHABİLƏRİN HARAM BİLDİKLƏRİ ƏSAS MƏSƏLƏLƏR:**

1- Peyğəmbər və saleh bəndələrin qəbirləri üzərində məqbərələrin tikilməsi.

2- Peyğəmbər və imamlara vəfatlarından sonra təvəssül etmək.

3- Peyğəmbər və imamlardan şəfaət istəmək.

4- Peyğəmbər və imamlardan şəfa istəmək.

Vəhhabilər bu işlərin bəzilərini bidət, bəzilərini haram, bəzilərini isə həm bidət həm də haram bildikləri üçün lazımdir ki, əvvəlcə onların tohid, şirk, bidət və sünnət haqqında meyarlarını araşdıraq.

**VƏHHABİLƏRİN ŞİRK VƏ BİDƏT HAQQINDA MEYARLARI**

Vəhhabilər hər cür təzim və ehtiramı o cümlədən Allahdan qeyrisindən hər növ istəyi şirk damğası ilə damğalayırlar. Onlar Peyğəmbər zamanında olmayan hər təzə mətləbi bidət və sünnətə müxalif hesab edirlər. Hətta onlar bununla kifayətlənməyib sələfin əncam vermədiyi işləri də bidət adlandırırlar.

Vəhhabilər ölümü şirkin və həyatı tövhidin meyarı bilirlər. Onlar tövhid üçün iki mərhələyə inanırlar ;

1- Tövhid rububi.

2- Tövhid uluhi.

Onların fikrincə muşriklər islamdan öncə və Peyğəmbər (s)-n zamanında rububi cəhətdən müvəhhid idilər (yəni onların nəzərində xaliq birdir) amma uluhiyyət cəhətdən muşrik idilər (onlar çoxlu sayda məbudlara pərəstiş edirdilər). Bu səbəbdən onlar xaliqiyyətdəki tövhidi səhvən tövhide-rububi, ibadətdəki tövhidi isə tövhide-uluhi kimi qəbul edirlər. (Əziz oxucu, umumiyyətlə əqaid bəhsləri çətin həzm olunduğu üçün sizdən diqqətli olmağınızı xahiş edirik, biz də öz növbəmizdə yeri düşdükcə izahatlarımızı imkan daxilində asanlaşdırmağa çalışcağıq).

Vəhhabilər müsəlmanların peyğəmbərlərin və salehlərin məzarları müqabilindəki ehtiramlarını muşriklərin İslamdan öncə bütlərinin müqabilində göstərdikləri ehtiramların zahiri oxşarlığını əsas götürərək onları şirk adlandırırlar. Onlar tövhid, şirk, bidət, sünnət, ibadət, üluhiyyət və rübubiyyət məsələlərində yalnış meyarlara əsaslanıb haqqında danışdığımız məsələləri haram bilirlər. Muvəhhid müsəlmanları muşriklik atəşinə tuturlar. Allahın vəhdaniyyətinə və Peyğəmbər risalətinə mötəqid olan şiə və sünnüləri kafir elan edirlər.

## TÖVHİDİN, ŞİRKİN, BİDƏTİN, VƏ SÜNNƏTİN DÜZGÜN MEYARLARI

Qurani-kərimdən tövhidin doqquz mərhələsi olduğu ələ gəlir:

1- Allahın zatında tövhid

2. Allahın sifətlərində tövhid

3. Xaliqiyyətdə tövhid.

4. Rububiyyətdə və tədbirdə tövhid

5. İtaətdə tövhid.

6.. Qanunvericilikdə tövhid.

7.Hakimiyyətdə tövhid.

8. Pərəstiş və ibadətdə tövhid

9. Şəfaət və günahları bağışlamaqda tövhid

Şirkin müqabilində tövhid durur və onun doqquz mərhələsi

vardır. Şirkin bəzi mərhələləri aşkar və baziləri isə gizli şirkdir. Yuxarıda sadaladığımız tövhidin 9 mərhələsi Qurani-kərimdəki çoxsaylı ayələrdən ələ gəlir:
1.“Sizin Allahınız vahiddir ona təslim olun, təvazökarlara da şad xəbər verin” (Həcc, ayə 34). Ayə tövhide-zatiyə işarə edir ki, Allah-taalanın müqəddəs zatı birdir.
2. “Ey Peyğəmbər onlara de ki:-o Allah birdir” (İxlas, ayə1 tövhide-sefatiyəyə işarədir)
3.“Allahın qüdrətinin nişanələrindən biri budur ki, sizi torpaqdan xəlq edib” (Rum, ayə 20). Ayə xaliqiyyətin Allaha məxsus olduğunu göstərir.
4.“Agah olun! Xəlq etmək və idarə etmək Ona məxsusdur” (Əraf, ayə 54). Ayə rübubibiyyətin və idarənin Allaha məxsus olduğunu göstərir.
5.“Allaha itaət edin…” (Maidə, ayə 92) İtaətin Allaha məxsus olduğunu göstərir.
6.“ Hökm yalnız Allaha məxsusdur…” ( Yusuf, ayə 40). Qanunvericiliyin və hakimiyyətin Allaha məxsus olmasında tövhidə işarədir.

7.“ Allaha ibadət edin və ona şərik qərar verməyin” ( Nisa, ayə 6) İbadətin Allaha məxsus olub və ibadətdə tövhidə işarədir. 8.“Şəfaət tamamilə Allaha məxsusdur” (Züməraye, 44). ayə şəfaətin Allaha məxsus olduğunu göstərir və şəfaətdə tövhidə işarədir.
9.“ Allahdan başqa kim günahları bağışlaya bilər”(Ali-İmran, ayə. 35). Ayə yalnız Allahın günahların bağışlanmasına qadir olduğunu çatdırır və günahların bağışlanmasında tövhid üçün dəlildir.
Nəzərə almaq lazımdır ki, əgər İslam icmasında kimsə hakimiyyət, şəfaət və itaət hüququ qazanırsa bu haqq sonradan qazanılan haqq kimi qəbul olunmalıdır, əsli və zati haqq kimi qəbul oluna bilməz. Yəni bu cür adamlara itaət etmək, onların şəfaət etmələri və

onların hakimiyyəti Allah-taalanın icazəsindən asılıdır. Beləliklə məlum olur ki, vəhhabilərin tövhidi iki mərhələyə (rübubi və üluhi) bölmələri yalnışdır. Həmçinin xaliqiyyətdəki tövhidi rububiyyətdəki tövhid adlandırmaq da səhvdir. İbadətdəki tövhidi üluhiyyətdəki tövhidlə qarışdırmaq da səhvdir. Çünki ilah məbud mənasında deyil və məbud olmaq üluhiyyətin məqamına layiqdir. Allah-taala buyurur:- "Səndən öncə hər bir peyğəmbəri göndərəndə ona vəhy etdik ki, "Allahdan başqa tanrı yoxdur, bəs mənə ibadət edin" (Ənbiya, ayə 25). Allah əmr edir ki, zatı yeganə olan tanrıya ibadət edin ki, ibatətiniz yalnız ona məxsus olmalıdır.

## İBADƏT

***Hər təzim ibadət və şirk deyil. Təzimin şirk olmasında əsas meyar, müqabilində təzim və səcdə olunan varlığın ilah və rəbb olmasına etiqadın olduğu haldadır.***

İbadət sırf xuzu və sırf zəlillik deyildir. Əslində ibadətin əsas şərti budur ki, ibadət edən müqabilində təzim və xuzu göstərdiyi varlığın uluhiyyətinə və rububiyyətinə etiqadı olmalıdır, yaxud ibadət edənin təvəssül edib hacətini istədiyi varlığın ona kömək etməsində müstəqil qüdrətə malik olmasına etiqadı olsun. iddiamızı sübuta yetirmək üçün Qurani-kərimdə mələklərin Adəmə, Yəqubun oğlanları ilə Yusufa, valideynlərə və möminlərə səcdə etmələri haqqında xəbərləri diqqətinizə çatdıraq. "Mələklərə dedik ki, Adəmə səcdə edin. Bütün mələklər səcdə etdilər. Ancaq iblis səcdə etməkdən imtina etdi" (Bəqərə, ayə. 34).

Mələklər Adəmə səcdə ediblər, amma bu səcdə Allaha olunan səcdədən fərqlənir. Çünki mələklər Adəmə səcdə edəndə ona uluhiyyət ünvanı ilə səcdə etməyiblər. Əgər hər səcdə ibadət sayılarsa, onda ayədəki mələklərin Adəm (ə)-a etdikləri səcdə də gərək ibadət və və vəhhabilərin iddia etdikləri kimi şirk sayılsın. Bununla da belə nəticə çıxır ki, Allah özü insanları harama təhrik

etmişdir. Amma biz deyirik, xeyir hər təzim ibadət və şirk deyil. Təzimin şirk olmasında əsas meyar müqabilində təzim və səcdə olunan varlığın ilah və rəbb olmasına etiqadın olduğu surətdir. “Yusuf ata-anasını taxt üstünə çıxartdı və onların hamısı ona səcdə etdilər” (Yusuf, ayə 100).

“Onların (valideynlərin) qabağında zəlil surətdə qollarını açıb de: Pərvərdigara! İlahi onlara rəhm et necə ki, körpəliyimdə onlar məni rəhmətlə tərbiyə ediblər”. (İsra, ayə 24).

Ayədə Allah-taala övladlara valideynlərin müqabilində zəlil və xuzu halında təzim etməyi əmr edir. Amma bu təzimdə onların uluhiyyətinə və rububiyyətinə etiqad bağlamalarına əmr olunmur. Deməli, hər cür xuzu və təzimi ibadət kimi qəbul etmək səhv fikirdir.

“Sənə tabe olan möminlərə təzim et” (Şuəra, ayə 215). Əgər sırf xuzu və təzim şirk olsa, onda gərək bu səcdələr şirk sayılsın. Digər tərəfdən belə çıxır ki, Allah şirki məzəmmət etmədən nəql edir və bizi ona təhrik edib. Bizim əqidəmizə əsasən bunların hamısı batildir. Çünki şirk Allah-taalanın nəzərində ən böyük zülmdür. Allah heç vaxt zülmü qəbul etməz və ona əmr də etməz. Allah-taaladan qeyrisindən kömək istəmək şirk ola bilməz, çünki Qurani-kərimdə çoxlu sayda bu cür hadisələr nəql olunub. İskəndər Zül-qərneyn Yəcuc və Məcuc tayfasından qorunmaq üçün səddin tikilməsində camaatdan kömək istədi (İsra surəsində geniş surətdə nəql olunub).

Bəni İsrailin həzrət Musadan kömək istəməsi (Qəsəs surəsində nəql olunub).

Əgər əqidə bu ola ki, kömək göstərən şəxs öz işində müstəqil qüdrətə malikdir və o mənim hacətimi əmələ gətirməyə qadirdir, bəli bu əqidə batil və şirkdir. Amma hər bir müvəhhid insan kömək istədiyi bu bəndələrin heç birini müstəqil qüdrət sahibi kimi qəbul etmir. Müvəhhid insanlar onlardan Allah yanında əziz olduqlarına görə kömək istəyir ki, əgər onlar onun üçün dua etsələr şübhəsiz Allah onun duasını rədd etməz.

**ULUHİYYƏT**

Uluhiyyət sırf  qeyri adi - xəlq etmək, ruzi vermək, diriltmək, öldürmək, şəfa vermək və qeybi bilmək, işləri əncam vermək mənasında deyildir. Çünki Qurani-kərimdə bu cür işlər Allahdan qeyrisinə də nisbət verilib. Həzrət Suleymanın (ə) vəzirinin qeyri adi işi: "İlahi elmdən azacıq xəbərdar olan, dedi:- Mən onu bir göz qırpımında gətirəcəyəm. Süleyman o taxtı yanında görcək dedi:- Bu pərvərdigarımın mənə olan mərhəmətidir, bununla məni imtahan edir ki, bunun üçün şükür edəcəyəm, ya yox" (Nəml, 40). " Süleymana Onun əmri ilə bərəkətli torpağa tərəf əsən şiddətli küləyi ram etdik" (Ənbiya, ayə 81), Taha surəsinin 17-dən 23-cü ayəyə qədər.

"Mən sizə palçıqdan quş surətində bir şey düzəldib sonra ona üfürəcəyəm o da Allahın izni ilə canlanacaq. Anadangələmə korları və qarayaraya tutulanları sağaldacağam. Ölüləri dirildəcəyəm.Yediklərinizi və evlərinizdə yığdıqlarınız haqqında sizə xəbər verəcəyəm. Hamısını Allahın izni ilə edəcəyəm" (Ali-İmran, ayə 49).

Bəqərə surəsinin 260-cı ayəsinə müraciət olunsa, bütün bu ayələrdə xariqüladə işlərin Allahdan qeyrisindən də baş verməsi haqqında xəbər verildiyi məlum olur. Haqqında danışılan işlər Allaha məxsus olan zati və əsli işiləridir. Amma Allahdan başqa həmin işləri əncam verənlərin heç biri müstəqil qüdrətə malik deyildir. Bir şəxs və ya şey haqqında bu əqidəyə malik olmaq şirkdir (yəni o şəxs bu cür xariqüladə işləri əncam verməkdə müstəqil qüdrətə malikdir). Uluhiyyət və ilah məqamı həmin mütləq və ən uca olan varlığa məxsusdur ki, O, Allah adlanır. Beləliklə də uluhiyyətin meyarı iradədə, qüdrətdə və zatda olan müstəqilliyə bağlıdır ki, o da Allaha məxsusdur. Hər kəs Allahdan başqası haqqında bu xususiyyətə qail olsa, o, muşrikdir. İstər ondan xariqüladə işlər, istərsə də adi işlər istəyə. Ondan başqa heç kəs əməldə və qüdrətdə müstəqil deyil, əksinə hamı O müqəddəs

zata möhtacdır. Bütün müsəlmanlar da bu əqidədədirlər. Vəhhabilərin özlərindən başqa müsəlmanları muşrik elan etmələrinin səbəbi ya onların müsəlmanların əqidələrindən xəbərsiz olduqlarından xəbər verir, yaxud da onların müsəlmanlara qarşı tutduqları qərəzli mövqelərindən irəli gəlir.

## İSLAMDAN ÖNCƏ VƏ RİSALƏT DÖVRÜNDƏKİ MÜŞRİKLƏR

***Vəhabilər bu ayələri gətirərək müsəlmanları şirkdə ittiham edirlər. Ayənin kimlərin barəsində nazil olmasından xəbərsiz kimi davranan bu cahil təəsübkeşlər ağa qara deməkdən çəkinmirlər.***

1. Müşriklər xaliqiyyətdə müvəhhid idilər. Yəni onlar xaliqin yeganə olduğuna inanırdılar. "Əgər onlardan soruşsan ki, göyləri və yeri kim yaradıb? Yəqinən deyəcəklər:- Onları izzət və bilik sahibi olan Allah yaradıb" (Zuxruf, ayə 9).

2. Onlar uluhiyyətdə müşrik idilər."Əcəba Məhəmməd tanrıların hamısını bir tanrıya məxsus edir? Bu təəccüblü bir işdir" (Sad, ayə 5). Muşriklər çox saylı Allahlara inandıqları üçün Peyğəmbərin tək Allahlılığa çağırışını qəribə bir şey kimi qəbul edirdilər.

3. Onlar rububiyyətdə müşrik idilər. "O Allah sizə peyğəmbərləri və mələkləri özünüzə rəbb kimi qəbul etməyi əmr etməz.." (Ali-İmran, 80). Müşriklər güman edirdilər ki, bütlər, mələklər, bəzi peyğəmbərlər, ulduzlar və s. onların işlərini idarə edirlər.

4. Onlar ibadətdə müşrik idilər. "Agah ol! Xalis din Allaha məxsusdur. Allahdan başqasını özlərinə vəli kimi götürüb və onlar bizi Allaha yaxınlaşdırdıqları üçün biz onlara ibadət edirik deyənlərin aralarında ixtilaf olanda Allah onların aralarında höküm edəcəkdir..." (Zumər, ayə 3).

Müşriklər bütləri, mələkləri, bəzi peyğəmbərləri, ulduzları və s. Allah bilirdilər. Müşriklər bütləri, mələkləri, bəzi peyğəmbərləri, ulduzları və s. onların işlərini idarə etdiklərini sanıb onlara ibadət

və pərəstiş edirdilər. Onların qabağında bu əqidələrə qapılıb təzim və xuzu edirdilər.

Əziz oxucu, bu izahatı dərk edəndən sonra sənə məlum olacaq ki, vəhhabilərin müsəlmanların ilahi övliyaların müqabilində göstərdikləri təzimi muşriklərin göstərdikləri təzimlərə təşbih etmələri ya onların savadsızlığından və yaxud bilərəkdən qərəzli mövqe tutmalarından irəli gəlir. Çünki heç bir müsəlman Peyğəmbəri və imamı nə Allah, nə rəbb, nə də hacəti yerinə yetirməkdə müstəqil qüdrət sahibi kimi qəbul etmir. Heç bir müsəlman onlara ibadət etmir, lakin onları Allah dərgahına vəsilə kimi qərar verir və onlardan istəyir ki, onlar üçün dua etsin. Çünki onlar bütün müsəlmanların nəzərində saleh, ləyaqətli və Allahın dərgahına yaxın insanlardırlar.

## TÖVHİD VƏ ŞİRKİN MEYARI

Ölüm və həyat heç vaxt tövhidin meyarı ola bilməz. Yəni adi işlər (şəfaət istəmək kimi) yaxud xariqüladə işlər (möcüzəli şəkildə xəstəyə şəfa vermək kimi) əgər diri insandan istənilsə, tövhid və əgər ölümündən sonra - (ölməyi fani olmaq fərz etsək) – istənilsə, şirkdir. Çünki ölüm və həyat heç bir əməlin mahiyyətini dəyişmir. Yəni hər hansı bir iş mahiyyətcə şirk olsa (əqidə etibarı ilə Allaha məxsus olan işlərdən olsa ), onu Allah-təaladan başqasından istəmək təvəssül olunan şəxsin diri və ya ölü olmasından, həmin işi həyata keçirməyə qadir və ya aciz olmasından asılı olmayaraq haram və şirkdir.

Beləliklə Peyğəmbər və imamdan şəfa, şəfaət və xariqüladə işləri istəmək (onların uluhiyyətinə və rububiyyətyyətinə inanmaq) caizdir. Şübhəsiz, heç bir müsəlman peyğəmbərlərin və ilahi övliyaların uluhiyyətinə və rububiyyətinə etiqad bəsləmir Qabaqda deyildiyi kimi Peyğəmbərin və imamların ölümündən sonra irad oluna bilər ki, bu cür təvəssüllər şirk olmasa da faydası yoxdur. Bu cür inadkarların cavabı budur ki, əhli sünnət və şiə alimləri yekdil etiraf edirlər ki, onlar bizim səsimizi eşidirlər, bizi

görüb əməllərimizə də şahiddirlər. "Ey Muhəmməd! onlara de:- İstədiyinizi edin! Tezliklə Allah, Onun Peyğəmbəri və möminlər sizin əməllərinizi görəcəkdir. Tezliklə qeybdən və əyandan xəbərdar olan Allahın hüzuruna qaytarılacaqsınız. O sizə etdikləriniz haqqında xəbər verəcək" (Tövbə, ayə 105). Həmçinin şəhidlər haqqında olan ayə də onların Allah yanında diri olduqlarından xəbər verir.

Amma bəziləri "Sən ölənlərə eşitdirə biləməzsən", "Sən qəbirdə olanlara eşitdirə bilməzsən" ayələrini dəlil kimi istifadə edirlər ki, onların sözləri batildir. Çünki ayə qəbirdə olanlara hidayətin şamil olmadığını göstərir. Amma onların Peyğəmbərin və ya hər bir kəsin onlara müraciət etdikdə səsini hətta bizdən də yaxşı eşitdikləri səhih rəvayətlərdə sübut olur.

Peyğəmbər (s) "Bədr" müharibəsində öldürülənlərin cəsədlərini orada olan quyuya atmağı əmr etdi. Muşriklərin cəsədlərini quyuya atandan sonra Həzrət (s) quyunun başında durub onlara (quyuya atılmış cəsədlərə) belə xitab etdi:-"Ey Utbə və ey Şeybə! Allahın sizə verdiyi vədəni necə gördüz? Aya həmin vədənin düz olduğunu başa düşdünüz? Biz həmin vədənin düz olduğunu dərk etdik" Ömər ibni Xəttab qabağa gəlib dedi:- Ya Rəsuləllah siz ölülərlə danışırsınız. Məgər onlar eşidirlər? Peyğəmbər (s) buyurdu:- "Sus, siz onlardan yaxşı eşitmirsiniz" Məlum olur ki, bu məsələdə şübhəyə düşənlər təkcə indiki zmanda yox, Peyğəmbər zamanında da olub. Amma Peyğmbər və imamlar bu məsələdə fərqlidir. Biz onlara xitabımızda onların agah və əbədi ruhlarına üz tuturuq. Müsəlmanların Peyğəmbərin və ilahi övliyaların ruhlarına təvəssül etmələri haqqında xəbərlər kitablarda kifayət qədər nəql olunub. Ruh aləmini və onların bu dünya ilə əlaqəsini inkar edənlər ya cahildirlər, ya da qərəzli mövqe tutanlardırlar. Hətta İbni Teymiyyənin etibarli şagirdi İbni Qəyyum "ər-Ruh" kitabında və İmam Əşəri "Həyatul-ənbiya" kitabında bu haqda geniş şəkildə bəhs ediblər.

Allahdan başqasIna and İÇməK şİrKdİrmİ?

Cavab: Allahdan başqasına and içməyin caiz olmasını Quran ayələri və Peyğəmbər (s) sünnəsindən xatırladırıq:

1-Qurani-Məcid özünün əbədi ayələrinin bəzilərində müəyyən məxluqlara, o cümlədən Peyğəmbərin (s) canına, insanın ruhuna, yazı simvolu olan qələmə, günəşə, aya, ulduza, gecə-gündüzə, asimana, yerə, zamana, dağlara və dəryalara and içmişdir. İndi onların bəzilərini nəzərinizə çatdırırıq:

لَعَمْرُكَ اِنَّهُمْ لَفِي سَكْرَتِهِمْ يَعْمَهُونَ

"(Ey Peyğəmbər,) And olsun sənin canına, bunlar öz məstliklərində (nəfsani istəklərində) sərgərdandırlar!"[1]

وَالشَّمْسِ وَضُحَاهَا وَالْقَمَرِ اِذَا تَلَاهَا وَالنَّهَارِ اِذَا جَلَّاهَا وَاللَّيْلِ اِذَا يَغْشَاهَا وَالسَّمَاءَ وَمَا بَنَاهَا
وَالْاَرْضِ وَمَا طَحَاهَا وَنَفْسٍ وَمَا سَوَّاهَا فَاَلْهَمَهَا فُجُورَهَا وَتَقْوَاهَا

"And olsun günəşə və onun şüasına, and olsun aya günəşin ardınca çıxdığı zaman, and olsun günə –dünyanı işıqlandırdığı zaman, and olsun gecəyə dünyanı qaranlıq pərdəyə bürüdüyü zaman, and olsun asimana və o kəsə ki, asimanı bina etmişdir, and olsun yerə və o kəsə ki, onu açmışdır, and olsun ruha (insana) və o şəxsə ki, onu yaratmış, yaxşını və pisi ona ilham etmişdir..."[2]

وَالطُّورِوَكِتَابٍ مَّسْطُورٍ ي رَقٍّ مَّنْشُورٍ وَالْبَيْتِ الْمَعْمُورِ وَالسَّقْفِ الْمَرْفُوعِ وَالْبَحْرِ الْمَسْجُورِ

"And olsun Turi-Sina dağına, and olsun yazılmış kitaba (Qurana), mənşur səhifələrdə yazılana, and olsun Beyti Məmura (abad olunmuş evə), and olsun qaldırılmış tağa, and olsun təlatümlü dəryaya."[3]

Həmçinin yaradılış dünyasının müxtəlif təzahürlərinə and içmək "Naziat", "Mürsəlat", "Büruc", "Tariq", "Bələd", "Tin",

---

[1] "Hicr" surəsi, ayə:72

[2] "Şəms" surəsi, ayə:1-8

[3] "Tur" surəsi, ayə:1-6

“Zuha” surələrində gözə çarpır. Şübhəsiz, əgər Allahdan başqasına and içmək şirkə səbəb olsaydı yeganəpərəstliyin qaynağı və əbədi tövhidin carçısı olan Quran heç vaxt bu işi görməzdi. Əgər bu növ and içmələr yalnız Allaha məxsus olsaydı, bu məsələ Quran ayələrində mütləq xatırladılmalı idi ki, səhvə yol verilməsin.

2-Bütün dünya müsəlmanları Peyğəmbəri (s) özlərinə nümunə seçir, haqqı batildən, düzü əyridən seçmək üçün o həzrətin əməl və rəftarlarını bir meyar hesab edirlər. Müsəlman mühəqqiqləri, eləcə də “Səhih” və “Müsnəd” müəllifləri Peyğəmbərin (s) Allahdan başqasına and içdiyi çoxlu halları qeyd etmişlər. Hənbəlilərin rəhbəri Əhməd ibni Hənbəl özünün “Müsnəd” kitabında Peyğəmbəri Əkrəmin (s) belə buyurduğunu rəvayət edir:

فَلَعمْرِي لَاَنْ تَكَلَّمَ بِمَعْرُوفٍ وَ تَنْهي“ عَنْ مُنْكَرٍ خَيْرٌ مِنْ اَنْ تَسْكُتَ

“Canıma and olsun, əgər əmr be məruf və nəhy əz münkər etsəm sakit olmaqdan daha yaxşıdır.”[1]

Müslim özünün “Səhih” kitabında (sünnülərin “Sihahi sittə” kitabından biridir) belə qeyd edir:

جاءَ رَجُلٌ اِلَي النَّبِيِّ ؛ فَقَالَ يَا رَسُولَ اللّهِ اَيُّ الصَّدَقَةِ اَعْظَمُ اَجرًا؟ فَقَالَ اَمَّا وَ اَبِيكَ لَتُنَبَّاَنَّهُ اَنْ تَصَدَّقَ وَ اَنْتَ صَحِيحٌ شَحِيحٌ تَخْشَي الْفَقْرَ وَ تَاْمَلُ الْبَقَاءَ

“Bir nəfər Peyğəmbərdən (s) soruşdu: Hansı sədəqənin mükafatı daha yaxşıdır? Buyurdu: Atana and olsun, ondan agah olacaqsan və o da bundan ibarətdir ki, salamatlıq halında və həris ola-ola, fəqirlikdən qorxub qalmağa ümidin olan halda sədəqə verəsən.”[2]

Qeyd olunan dəlillərin məcmusundan aydın olur ki, Allahdan başqasına and içməyin şəri və qanuni bir iş olması Quran ayələri, Peyğəmbər (s) sünnəsi və möminlərin rəftarı nəzərindən

---

[1] “Müsnədi Əhməd”, 5-ci cild, səh.224-225

[2] “Səhihi Müslim”, 3-cü cüz, Misir çapı, Kitabuz-zəkat, bəyanu ənnə əfzələssədəqəti sədəqətus-səhihiş-şəhih babı, səh.92 və 94

danılmaz bir prinsipdir, onun tövhid və yeganəpərəstliklə azacıq belə, ziddiyyəti yoxdur.Dünya müsəlmanlarının böyük bir qismini Allahdan başqasına and içdiklərinə görə müşrik hesab edən şəxslər nədən Bu qədər Quran ayələri və hədisləri oxuduqdan sonra yenə də inadkarlıq edirlər.

## İLAHİ ÖVLİYALARA TƏVƏSSÜL ETMƏK ŞİRKƏ SƏBƏB OLURMU VƏ BİDƏT SAYILIRMI?

Qurani-Kərim buyurur:

يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ اتَّقُواْ اللّهَوَابْتَغُواْ إِلَيهِ الْوَسِيلَةَ وَجَاهِدُواْ فِي سَبِيلِهِ لَعَلَّكُمْ تُفْلِحُونَ

"Ey iman gətirənlər, Allah qarşısında təqvalı (pərhizkar) olun və Onun dərgahına doğru vasitə hazırlayın. Allah yolunda cihad edin, bəlkə nicat tapasınız."[1]

Təvəssülü üç qismə bölmək olar:

1-Yaxşı əməllərə təvəssül etmək: Cəlaləddin Süyuti "vəbtəğu iləyhil-vəsilətə" ayəsinin təfsirində belə bir rəvayət nəql edir:

عَنْ قُتَادَةَ فِي قَوْلِهِ تَعَالَي وَابْتَغُوا اِلَيْهِ الْوَسِيلَةَ قَالَ تَقَرَّبُوا اِلَي اللّهِ بِطَاعَتِهِ وَ الْعَمَلِ بِمَا يُرْضِيهِ

*"Qütadə "vəbtəğu iləyhil-vəsilətə" ayəsi barəsində deyir: Yəni Allaha itaət etməklə, Onun razılığına səbəb olan əməllər vasitəsilə Allah dərgahına yaxınlaşın."*[2]

2-Layiqli bəndələrin dualarına təvəssül etmək. Belə ki, Qurani-Kərim Yusifin qardaşlarının dilindən belə hekayət edir:

قَالُوا يَا اَبَانَا اسْتَغْفِرْ لَنَا ذُنُوبَنَا اِنَّا كُنَّا خَاطِئِينَ قَالَ سَاَسْتَغْفِرُ لَكُمْ رَبِّي اِنَّهُ هُوَ الْغَفُورُ الرَّحِيمُ

"(Yəqubun övladları öz atalarına) dedilər: Ey ata, böyük Allahdan bizim günahlarımızın bağışlanmasını istə, çünki biz səhvə yol vermişik. Yəqub dedi: Tezliklə öz Pərvərdigarımdan sizin üçün bağışlanmaq istəyəcəyəm. Həqiqətən O, çox mehriban

[1] "Maidə" surəsi, ayə:34

[2] "Durrul-Mənsur", 2-ci cild, səh.280, Beyrut çapı

və bağışlayandır."[1]

Bu ayədən məlum olur ki, Yəqubun övladları atasının dua etməsinə və istiğfar istəməsinə təvəssül etdilər, onu öz günahlarının bağışlanması üçün bir vasitə seçdilər. Həzrət Yəqub da nəinki onların təvəssülünə etiraz etmədi, əksinə onlara istiğfar vədəsi də verdi.

3-Allah yanında böyük məqama, xüsusi hörmət və ehtirama layiq görülən mənəvi şəxsiyyətlərə təvəssül edərək Allah dərgahına yaxınlaşmaq.

Bu növ təvəssül də islamın əvvəllərindən Peyğəmbər (s.) səhabələri tərəfindən qəbul olunub.

İndi Peyğəmbər (s) səhabələrinin, eləcə də islam aləminin böyük şəxsiyyətlərinin rəftar və hədisləri sayəsində bu məsələnin dəlillərini xatırladırıq:

1-Əhməd ibni Hənbəl özünün "Müsnəd" kitabında Osman ibni Hüneyfdən belə rəvayət edir:

اِنَّ رَجُلاً ضَرِيرَ الْبَصَرِ اَتَي النَّبِيَّ صَلَّي اللّهُ عَلَيْهِ وَ آلِهِ " وَ سَلَّمَ فَقَالَ اُدْعُ اللّهَ اَنْ يُعَافِيَنِي قَالَ اِنْ شِئْتَ دَعَوْتُ لَكَ وَ اِنْ شِئْتَ اَخَّرْتُ ذَاكَ فَهُوَ خَيْرٌ فَقَالَ اُدْعُهُ فَاَمَرَهُ اَنْ يَتَوَضَّاَ فَيُحْسِنَ وُضُوئَهُ فَيُصَلِّيَ رَكْعَتَيْنِ وَ يَدْعُوَ بِهذَا الدُّعَاءِ اَللَّهُمَّ اِنِّي اَسْاَلُكَ وَ اَتَوَجَّهُ اِلَيْكَ بِنَبِيِّكَ مُحَمَّدٍ نَبِيِّ الرَّحْمَةِ يَا مُحَمَّدُ اِنِّي تَوَجَّهْتُ بِكَ اِلَي رَبِّي فِي حَاجَتِي هذِهِ فَتَقْضِيَ لِيَ اللّهُمَّ شَفِّعْهُ فِيَّ

*"Kor bir kişi Peyğəmbərin (s) hüzuruna gəlib dedi: "Allahdan istə, mənim gözlərimə şəfa versin." Peyğəmbər (s) buyurdu: "İstəsən dua edərəm, istəsən də duanı təxirə salaram və bu, daha yaxşıdır." Kor kişi ərz etdi: "Dua edin." Peyğəmbər (s) ona göstəriş verdi ki, dəstəmaz alsın və dəstəmaz alarkən diqqətli olsun, sonra iki rəkət namaz qılıb belə dua etsin: "Pərvərdigara, mən Səndən istəyir və sənin rəhmət Peyğəmbərin olan Muhəmmədin vasitəsilə Sənə üz gətirirəm. Ey Muhəmməd, mən öz hacətim barəsində sənin vasitənlə Pərvərdigarıma təvəssül edirəm ki, hacətimi yerinə yetirəsən. Pərvərdigara, onu mənim şəfaətçim qərar ver!"*[2]

---

[1] "Yusif" surəsi, ayə:7-8

[2] "Müsnədi Əhməd", 4-cü cild, səh.138, Osman ibni Hüneyfin rəvayətinin bir qismini "Müstədrək" (Hakim) 1-ci cild, səh.313-də qeyd etmişdiræ "Sünəni ibni Macə", 1-ci cild,

Bu rəvayətdən aydın olur ki, ehtiyacın təmin olunması üçün Peyğəmbərə (s) təvəssül etmək caizdir. Hətta Rəsuli Əkrəm (s) o kor kişiyə əmr edir ki, yuxarıda qeyd olan şəkildə dua etsin, Peyğəmbəri (s) özü ilə Allah arasında vasitə qərar verməklə Allahdan istəsin. Elə bu da Allah dərgahında əziz olanlara və ilahi övliyalara təvəssül etməyin mənasıdır.

Bununla da Allah dərgahında əziz olan şəxslərə təvəssül etməyi şirk və bidət hesab edənlərin sözünün əsassız olduğu sübuta yetir.

## ALLAH ÖVLİYALARININ TƏVƏLLÜDÜNÜ BAYRAM KEÇİRMƏK BİDƏT, YAXUD ŞİRKDİRMİ?

Allahın layiqli və saleh bəndələrinin xatirəsini əzizləmək, o cümlədən onların təvəllüd günlərini bayram keçirməyin əql sahibləri nəzərindən bəyənilən bir iş olmasına baxmayaraq bu barədə hər növ şübhənin aradan qaldırılması üçün onun şərən icazə verilən bir iş olmasının dəlillərini qeyd edirik:

1-Bu kimi mərasimlərin keçirilməsi onlara məhəbbət bəsləməyin göstəricisidir.

Quran, Peyğəmbəri Əkrəm (s) və onun Əhli-beyti ilə dostluq göstərib onlara məhəbbət bəsləməyi müsəlmanlara əmr edərək buyurur:

قُل لَّا اَسْاَلُكُمْ عَلَيْهِ اَجْرًا اِلَّا الْمَوَدَّةَ فِي الْقُرْبَى

"(Ey Peyğəmbər,) de: Mən sizdən ən yaxın adamlarıma məhəbbət bəsləməkdən başqa bir şey istəmirəm."[1]

Şübhəsiz, ilahi övliyaların təvəllüd münasibətləri ilə əlaqədar bayram keçirmək insanların onlara eşq və məhəbbətlərinin cilvəsidir ki, bu da Quran düşüncəsində müsbət qarşılanır.

---

səh.441, "Əttac", 1-ci cild, səh.286, "Əl-camius-səğir" (Süyuti), səh.59, "Ət-təvəssülü vəl-vəsilətu" (ibni Teymiyyə), səh.98

[1] "Şura" surəsi, ayə:23

2-Bu mərasimlərin keçirilməsi Peyğəmbəri Əkrəmə (s) hörmət və təzimdir.

Quran Peyğəmbəri Əkrəmə (s) kömək etməkdən əlavə, onun məqamını yüksək dəyərləndirməyi də səadət və xoşbəxtlik amili kimi qeyd edir:

فَالَّذِينَ آمَنُواْ بِهِ وَعَزَّرُوهُ وَنَصَرُوهُ وَاتَّبَعُواْ النُّورَ الَّذِيَ أُنزِلَ مَعَهُ أُوْلَئِكَ هُمُ الْمُفْلِحُونَ

"O kəslər ki, Peyğəmbərə iman gətirib onu əzizlədilər və ona kömək etdilər, ona göndərdiyimiz nura itaət etdilər, məhz onlar nicat tapanlardır."[1]

Bu ayədən aydın olur ki, Peyğəmbəri Əkrəm (s.ə.v.v)-i əzizləmək İslam nəzərindən bəyənilən bir işdir, eləcə də onun əziz xatirəsini canlandıran mərasimlərin, o həzrətin yüksək məqamını xatırladan mərasimlərin keçirilməsi də Allahın razı olduğu işlərdir.

3-Bu kimi mərasimlərin keçirilməsi Allah-Taalaya tabe olmaqdır.

Allah-taala Peyğəmbəri( s) tərifləyərək buyurur:

وَ رَفَعْنَا لَكَ ذِكْرَكَ

"Sənin adını dünyada yüksəltdik."[2]

Bu şərif ayədən məlum olur ki, Allah-Taala Peyğəmbərin (s) əzəmət və cəlalının bütün dünyada yayılmasını istəyir və Özü də Quran ayələrində onu tərifləyir.

Biz də öz asimani kitabımıza tabe olaraq böyük, əzəmətli mərasimlər təşkil etməklə kamal və fəzilət nümunəsi olan o böyük şəxsiyyətin məqamını əzizləyir və bu yolla da aləmlərin Pərvərdigarına tabe olmuş oluruq. Aydındır ki, bu mərasimləri keçirməkdə müsəlmanların əsas hədəfi Peyğəmbərin (s) şənini yüksək tutmaqdan başqa bir şey deyildir.

---

[1] "Əraf" surəsi, ayə:157

[2] "İnşirah" surəsi, ayə:4

## VƏHHABİLƏRİN ETİQADINA GÖRƏ MƏSUM İMAMLARIN, BÖYÜK ŞƏXSİYYƏTLƏRİN VƏ PEYĞƏMBƏRİN (S) QƏBRİNİN ZİYARƏTİNƏ GETMƏK HARAMDIR!

Vəhhabilərin bu etiqadı çox da qədim zamanlara getmir. Peyğəmbərin (s) dövründə və ondan 8 əsr sonra da bütün müsəlmanlar qəbristanlığa gedir, qəbirləri ziyarət edirdilər və heç kəs bu məsələni inkar etmirdi.

Tarixi mənbələri araşdıranda, Peyğəmbərin (s) və onun əshablarının qəbirləri ziyarət etdiklərini aşkar görürük.

Peyğəmbərin (s) qəbrinin ziyarətinin heç bir günah olmaması barəsində aşağıdakı dəlilləri qeyd etmək olar:

*1.* Uzaq ölkədən ilk dəfə Peyğəmbərin (s) qəbrinə ziyarətə gələn o Həzrətin azan verəni Bilal Həbəşi olmuşdur.

*2.* Ömər ibni Əbdüləziz Şam şəhərinə dəstə yolladıqda onlara sifariş edir ki, mənim salamımı Peyğəmbərin (s) qəbrinə çatdırın və onu ziyarət edin!

*3.* "Kamili İbni Əsir" və "Tarixi Təbəri" kitabları yazır ki, Peyğəmbər (s) həmişə buyurardı ki, şəhidlərin qəbrinin ziyarətinə gedin və bununla Qiyaməti yada salın!

*5.* "Səhihi Müslim" kitabı (3-cü cild, səhifə 634-də) yazır: "Peyğəmbər (s) bəzən Aişə ilə "Bəqi" qəbristanlığına gedər və orada buyurardı: "Müsəlmanların və möminlərin qəbrinə salam olsun! Allah bizdən əvvəlkilərə və bizdən sonrakılara və bizə rəhmət eləsin!"

*6.* Başqa bir rəvayətdə Peyğəmbərdən (s) belə nəql olunur:[1]

"Hər kəs mənim qəbrimi ziyarət etsə, mənim şəfaətim ona vacib olar".

*7.* Qəzzali "Əxbarul-uyun" kitabında (1-ci cild, 246-cı səhifədə) Peyğəmbərdən (s) belə bir hədis nəql edir:

"Hər kəs məndən ötrü (qəbrimə) ziyarətə gəlsə, mənim haqqımdır ki, qiyamət günündə ona şəfaətçi olum".

---

[1] Əbu Bəşir Mühəmməd Razi "əl-Künyə vəl-əsma"

*8.* Seyyid Murtəza Zübeydi Hənəfi "Tacul-Ərus" kitabında (1-ci cild, 74-cü səhifədə) Peyğəmbərdən (s) aşağıdakı hədisi nəql edir: "Hər kəs həccə gələ və mənim qəbrimi ziyarət etməyə əlbəttə ki, mənə cəfa etmiş olur!"

*9.* "Müsnədi Əbu Davud" (1-ci cild, 12-ci səhifədə) Peyğəmbərin (s) belə buyurduğunu rəvayət edir: "Hər kəs mənim vəfatımdan sonra məni ziyarət etsə, sanki məni dirilikdə ziyarət etmişdir...."

Bütün bunlar əhli sünnət mənbələrindən nəql olunub. Amma şiə alimləri Peyğəmbərin (s) və məsum İmamların (ə) qəbrinin ziyarətinin fəzilətləri barəsində ayrıca kitablar yazmışlar. Bu qısa bəhsdə onlara işarə etməyə macal yoxdur.

Beləliklə, Peyğəmbərin (s) və məsum imamların (ə) o cümlədən hər kəsin öz dünyadan gedəninin qəbrini ziyarət etməsində heç bir qəbahət yoxdur. Əksinə, bu iş insanın qiyamətə olan imanını daha da artırır və həmçinin, çoxlu ictimai faydaları vardır.

## QƏBİR YANINDA NAMAZ QILMAQ BARƏSİNDƏ VƏHHABİLƏRİN NƏZƏRİ

İbni Teymiyyənin fətvasına əsasən, Peyğəmbərin (s) qəbrinin kənarında namaz qılmaq haramdır!

*Cavab:*

*1.* Bu iddia tamamilə əsassızdır və heç bir əsaslı dəlili yoxdur!

*2.* Qurani-Məcid buyurur:[1]

*[Ya Mühəmməd] Yadına sal ki, biz Kəbəni insanlar üçün savab və əmin-amanlıq yeri qərar etdik. [Ey möminlər] Sizə də: İbrahimin durduğu yeri özünüzə namaz qılınan yer edin! — dedik...*

*3.* "Səhihi Buxari"də (1-ci cild, səh. 91-də) Peyğəmbərin (s) dilindən belə bir rəvayət nəql olunur:

"Yer mənim üçün məscid və pakizə qərar verildi".

*3.* Əgər Peyğəmbərin (s) qəbrinin yanında namaz qılmaq haram və məkruh olsaydı, onda on dörd əsr ərzində o Həzrətin qəbrinin

[1] "Bəqərə" surəsi, 125-ci ayə.

kənarında heç kim namaz qılmazdı. Halbuki, bu belə deyildir. Yəni on dörd əsrdir ki, o Həzrətin qəbri kənarında namaz qılırlar və vəhhabilərdən başqa heç kəs bunun haram olması barəsində hökm verməmişdir.

*4.* Həzrət Zəhra (s.ə) cümə günləri əmisi şəhid Həmzənin qəbrinin yanına gedib namaz qılır və ona göz yaşı tökürdü[1].

*5.* On dörd əsrdir ki, həcc ziyarəti zamanı Hacərin və İsmayıl Peyğəmbərin qəbrinin yanında olan "Hicri İsmayıl"ın yanında müsəlmanlar namaz qılırlar və heç bir sünni-şiə alimi bu əməlin qəbahət olması barəsində hökm verməmişdir.

---

[1] «Sünəni Beyhəqi", 4-cü cild, səh. 78.

## VƏHHABİLƏR PEYĞƏMBƏRDƏN (S) YADİGAR QALAN ŞEYLƏRƏ VƏ YA O HƏZRƏTİN QƏBRİNƏ ƏL SÜRTMƏYİ HARAM BİLİRLƏR!

*Cavab:*

1. Qurani-Məcid bəzi müqəddəs şeylərin təbərrük vasitəsilə feyzə yetməsini qəbul edir. Məsələn, "Yusif" surəsinin 93-cü ayəsində oxuyuruq:

*Bu köynəyimi götürüb aparın atamın üzünə sürtün, o yenidən görməyə başlayar.*

2. Tarixçi Əsqəlani yazır:

Mədinədə nə vaxt təzə uşaq dünyaya gəlsə, tez Peyğəmbərin (s) yanına aparırdılar. Həzrət onun ağzına xurma sürtür, sonra onun üçün dua edirdi.

3. Tarix yazır ki, Peyğəmbərin (s) dəstəmaz suyunu yerə tökülməyə qoymazlarmış. Hərə bir tərəfdən təbərrük etmək üçün o sudan üz-gözünə sürtərdi.

4. "Kənzül-ümmal" kitabının (16-cı cild, səh. 249) müəllifi yazır: "Təbərrük etmək üçün uşaqları Peyğəmbərin (s) yanına gətirirdilər.

Bütün bunlardan belə nəticə alarıq ki, təbərrükdən iki məqsəd var.

*1)* Qeyri-təbii yolla İlahi feyzə nail olmaq;

*2)* Bununla Peyğəmbərin (s) və onun Əhli-beytinin (ə) məhəbbətini qəlblərdə çoxaltmaq. Çünki, Peyğəmbər (s) və Əhli-beyt (ə) Allahın hökmlərini yayandırlar.

## QƏBRİN ÜSTÜNÜN DÜZƏLMƏSİ BARƏSİNDƏ VƏHHABİLƏRİN NƏZƏRİ

İlk dəfə Mədinəyə hücum çəkən vəhhabilər məsum imamların (ə) və Peyğəmbərin (s) qəbrinin günbəzini dağıdırlar. Onların əqidəsinə görə qəbrin üstü yerlə bərabər olmalıdır. Heç bir başqa müsəlman məzhəbinin qəbul etmədiyi bu əqidə o vaxtdan İslam alimlərinin geniş etirazına səbəb olur. Mədinədə "Bəqi" qəbristanlığında dəfn olunmuş məsum İmamların (ə) qəbirlərinin üstü müsəlmanlar tərəfindən geniş şəkildə örtülmüş və ziyarətgaha çevrilmişdi. Vəhhabilər Ali Səud qoşunu ilə Mədinəyə hücum etdikdən sonra bu günbəzləri yerlə-yeksan etmiş və içində olan bütün qiymətli əşyaları da qarət etmişlər.

İndi də qəbirlərin təmir edilməsi barəsində şiə alimlərinin nəzərlərinə diqqət edək:

*1.* Qurani-Məciddə heç vaxt bu məsələ inkar olunmayıb. Əksinə, bəzi ayələr göstərir ki, imamların (ə) və peyğəmbərlərin (ə) qəbirlərinin üstünü təmir etmək və uca tutub ehtiram göstərmək İslam dininin xeyrinədir.

Qurani-Kərim "Həcc" surəsinin 37-ci ayəsində buyurur:

*Hər kəs İlahi nişanəyə  təzim etsə və hörmət göstərsə, bu iş qəlblərin təqvalı olmasının əlamətidir.*

Ayədə "nişanə"dən məqsəd təfsirçilərin nəzərinə görə "Allahın dininin nişanələri"dir. Bəs, Allah yanında ən uca məqamlara malik olan Peyğəmbər (s) və imamlar (ə) yer üzündə Allah dininin qurucuları və yayıcılarıdırlar. Məgər bundan böyük "din nişanəsi" ola bilərmi? Bəs, belə bir nəticəyə  çatırıq ki, bu iş nəinki gunahdər, əksinə, Allahın razılığına səbəb olan bir əməldir.

*2.* Qurani-Məcid "Bəqərə" surəsinin 158-ci ayəsində buyurur:

*Həqiqətən, Səfa  və  Mərva [dağları] İlahi nişanələrdəndir.*

Bütün bunları dinin nişanələri kimi yozub yuxarıdakı birinci ayədəki məzmunla tutuşdursaq, belə nəticə almaq olar ki, Səfa və Mərva dağları, Minada ilk dəfə qurban kəsmək dinin nişanələridir.

Bəs bunlara ehtiram göstərmək və belə işləri əziz tutmaq Allah yanında qəbul olmuş və bəyənilmiş işdir.

*3.* Nəticədə necə ola bilər ki, məxluqatın əşrəfi sayılan Peyğəmbəri (s) və məsum İmamları (ə) dinin nişanələrindən saymayaq, onların qəbirlərinin ziyarətinə getməyək və qəbirlərini təmir etməyək?! Məgər bu məntiqlə uyğun gəlirmi?! Hansı şəxs deyə bilər ki, Allah-taala onları dinin nişanələrindən hesab etmir?!

Bütün bunlardan belə nəticə alırıq:

*1.* Allaha yaxın adamlar xüsusən, dini yaymaq yolunda can verən şəxslər Allah dininin nişanələrindəndir.

*2.* Belə şəxslərin hörmətini saxlamağın ən yaxşı yollarından biri də onların qəbirlərini təmir edib nişanələrini qoruyub saxlamaqdır.

Onu da qeyd edək ki, bu qanun bütün dini məktəblərdə icra olunur. Millətlər öz böyük şəxsiyyətlərinin adlarını qorumaqdan ötrü onların qəbirlərinə ehtiram göstərir və onları təmir edirlər.

*4.* Qurani-Kərim İslamdan qabaqkı zamanda yaşamış "Əshabi Kəhf"də olan şəxslər barəsində buyurur:

*Onların qəbirlərinin üstündə bina düzəltdik*[1].

Həmin surədə bu əhvalatla əlaqədar başqa dəstə buyurur:

*Bu işdə qalib gəlmiş başqa dəstə dedilər: Onların qəbirlərini məscid qərar verəcəyik [yəni orada məscid tikəcəyik]*[2].

## ŞƏRƏFLİ MƏKANLARDA QURBANLIQ

Vəhhabilərin müsəlmanlara tutduqları iradlardan biri də budur ki, Peyğəmbərin (s) və İmamların qəbirlərinin yanında qurban kəsmək haram və Allaha şirk sayılır.

*Cavab:*

Məsələ budur ki, məhrumiyyət və giriftarçılıqda olan bəzi müsəlmanlar öz müşküllərinin həllindən ötrü Allah yanında

---

[1] "Kəhf" surəsi, 21-ci ayə.

[2] "Kəhf" surəsi, 21-ci ayə.

yüksək məqamı və mənziləti olan məsumların və övliyaların qəbirlərinə nəzir atırlar və ya bu məkanlarda qurbanlıq kəsirlər. Bu bölmədə məsələni tək-tək araşdırsaq daha yerinə düşər.

Şiə əqidəsində fəqih və müctehidlərin fətvasına görə nəzir və ya qurbanlıq yalnız "qürbətən iləllah" olmalıdır. Yəni nəzir etmək və qurban kəsməklə hacətinə çatmaq istəyən ilk növbədə niyyətində "qürbətən iləllah" (Allaha yaxın olmaq niyyəti) tutmalıdır. Nəzir etməyin yolu belədir:

Əgər mənim filan hacətim düzəlsə, Allahdan ötrü mənim boynumda filan nəzir (və ya qurbanlaq) olsun.

Müsəlmanlar bəzən öz nəzirlərini paylamaq və ya qurbanlıq kəsməkdən ötrü imamların (ə) və imamzadələrin qəbirlərinin yanına gedirlər. Bəzən nəzirlərini onların zərihlərinin (qəbirlərinin) üstünə atırlar. Lakin bu heç də nəyisə Allaha şərik qoşmaq demək deyil. Əksinə, bu nəzirlərin həmin yerdən daha tez fəqirlərin əlinə çatması əsas hədəfdir. Şiə əqidəsində hər hansı nəzir və ya qurbanlıq əgər "qürbətən iləllah" olmasa, şəri nəzir hesab olunmur. Maraqlanmaq istəyənlər şəriət kitablarına müraciət edə bilərlər. Bəs əsl və ümdə məsələ niyyətdir. O da "qürbətən iləllah" (yəni fəqət Allaha yaxın olmaq və ondan kömək istəmək). Lakin bu nəzirin hara atılması və qurbanlığın harda kəsilməsi məsələyə heç bir xələl gətirmir.

Xülasə desək, Peyğəmbər (s), imamlar (ə) və hər hansı uca məqamlı (Allah yanında) şəxsin əvəzindən bu cür nəzir və qurbanlıqların verilməsinin şirkə heç bir oxşarlığı yoxdur.

Bütün bunlardan əlavə Peyğəmbərin (s) öz zamanında müsəlmanlar çoxlu nəzir-niyaz və qurbanlıqlar boyun alaraq onlara əməl etmişlər. Peyğəmbər (s) bu işin "qürbətən iləllah" olduğunu bildikdən sonra onları təsdiq etmişdir.

## QURAN TƏHRİF OLUNMAYIB

Axır vaxtlarda vəhhabilər tərəfindən şiə məzhəbi barəsində düzgün olmayan söz yayılmışdır. O da budur ki, onların nəzərincə şiələr əldə olan bugünkü Qurana əsl Quran kimi baxmırlar. Belə iddia edirlər ki, şiələrin fikrincə Peyğəmbərin (s) qızı Fatimeyi-Zəhranın (s.ə) bir "Müshəf"i (kitabı) var və əsl Quran odur. Onlar bu Quranı "Müshəfi Fatimə" adlandırırlar!!!

"Müshəf" ərəb dilində kitab, vərəqə və ya kitabın üzünün birinci vərəqinə deyilir[1]. Beləliklə, "Müshəfi-Fatimə" Quran mənasında yox, Fatimənin kitabı mənasındadır.

Yenə də qeyd edirik ki, şiələrin əqidəsinə görə bu kitab heç də Qurani-Kərim deyildir. Bizim bir Quranımız var, o da yalnız İslam Peyğəmbərinə (s) nazil olub. Vəhhabilər əsl həqiqətdən xəbərləri olmadan şiələrə böhtan atırlar.

Sual: Bəs o kitab indi haradadır?

*Cavab:*

"Müshəfi-Fatimə" hədislərə əsasən, İmam Əli əleyhissəlamdan sonra İmam Həsən əleyhissəlama, daha sonra İmam Hüseyn əleyhissəlama nəhayət, məsum İmamlardan keçməklə on ikinci İmamımız İmam Zaman əleyhissəlamın yanındadır və o Həzrətin zühurundan sonra üzə çıxacaqdır.

Həmçinin, şiələr bu əqidədədirlər ki, hazırkı Qurani-Məcid içində heç bir dəyişiklik olmadan İslam Peyğəmbərindən (s) bizə çatan Qurandır. Şiə alimləri Qurani-Məcid barəsində iki mindən artıq təfsir yazmışlar.

## ŞİƏLƏR QURANIN TƏHRİF OLUNMASINA İNANIRMI?

Cavab: Məşhur şiə alimlərinin nəzəri budur ki, Quranda heç bir təhrifə yol verilməmişdir. Hal-hazırda bizim əlimizdə mövcud olan Quran elə Peyğəmbəri-Əkrəmə (s) nazil olan asimani

---

[1] "Lisanul-ərəb", "Müfrədati Qur'an", Mö'cəmul-vəsit".

kitabdır və onda heç bir artırılmaya və ya əsgildilməyə yol verilməmişdir. Bu sözün aydın olması üçün bu barədə bir neçə dəlilə işarə edirik:

1-Allah-taala müsəlmanların asimani kitabının hər növ təhrifdən amanda qalacağına zəmanət verir:

اِنَّا نَحْنُ نَزَّلْنَا الذِّكْرَ وَاِنَّا لَهُ لَحَافِظُونَ

"Həqiqətən Biz Quranı nazil etdik və şübhəsiz Biz də onu qoruyub saxlayacağıq."[1]

Aydındır ki, bütün şiə müsəlmanı öz təfəkkür və rəftarlarında Quranı özlərinə sərlövhə və nümunə qərar verdiklərindən bu şərif ayəyə dəyər vermiş, bu kitabın qorunması və təhrifdən amanda qalması ilə əlaqədar onun verdiyi xəbərə iman gətirmişlər.

2-Şiənin böyük rəhbəri – Əli (ə) özü Peyğəmbərlə (s) yanaşı və vəhy yazıçılarından idi. O, müxtəlif münasibətlərlə əlaqədar camaatı həmin Qurana tərəf dəvət etmişdir. Onun bəzi kəlamlarını qeyd edirik:

وَاعْلَمُوا انَّ هذَا الْقُرْآنَ هُوَ النَّاصِحُ الَّذِي لَا يَغشُّ وَ الْهَادِي الَّذِي لَا يُضِلُّ

"Bilin ki, həqiqətən bu Quran heç vaxt xəyanət etməyən bir moizəçi, insanı heç vaxt azdırmayan bir hidayətçi, yol göstərəndir."[2]

اِنَّ اللّهَ سُبْحَانَهُ لَمْ يَعِظْ اَحَدًا بِمِثْلِ هذَا الْقُرْآنِ فَاِنَّهُ حَبْلُ اللّهِ الْمَتِينُ

"Həqiqətən Sübhan Allah heç vaxt bir kəsi bu Quran kimi nəsihət etməmişdir. Quran möhkəm ilahi ip və Allahın möhkəm vəsiləsidir."[3]

ثُمَّ اَنْزَلَ عَلَيْهِ الْكِتَابَ نُورًا لَا يُطْفَأُ مَصَابِيحُهُ وَ سِرَاجًا لَا يخْبوا تَوَقُّدُهُ وَ مِنْهَاجًا لَا يَضِلُّ نَهْجُهُ وَ فُرْقَانًا لَا يمْخدُ بُرْهَانُهُ

"...Sonra Allah ona bir kitab nazil etdi ki, onda heç vaxt sönməyən bir nur, işığı aradan getməyən bir çıraq, heç vaxt öz yolçularını azdırmayan bir yol, haqq və batili ayıran bir vasitədir

---

[1] "Hicr" surəsi, ayə:9

[2] "Nəhcül bəlağə" (Sübhi Saleh), 176-cı xütbə

[3] "Nəhcül bəlağə", 176-cı xütbə

ki, onun bürhanları əyriliyə düçar olmaz."[1]

Şiələrin böyük rəhbərinin sözlərindən aydın olur ki, Qurani-Kərim çox işıqlı bir çıraq olub əbədiyyətə qədər ona tabe olanların yolunu işıqlandıracaqdır, onun nurunun sönməsinə, yaxud insanların azmasına səbəb olacaq heç bir dəyişiklik ona yol tapa bilməz.

3-Şiə alimlərinin yekdil fikrinə görə Peyğəmbəri Əkrəm (s) belə buyurmuşdur: "Mən sizin aranızda iki ağır əmanət qoyub gedirəm: biri Allahın kitabı (Quran), digəri isə mənim Əhli-beytim, itrətimdir. Onlara sarılıncaya qədər heç vaxt yolunuzu azmayacaqsınız."

Bu hədis İslam aləmində nəql olunan mütəvatir hədislərdəndir ki, həm sünnülər, həm də şiələr onu nəql etmişlər. Bununla aydın olur ki, şiə nəzərindən Allahın kitabı – Quran heç bir təhrifə məruz qalmayacaqdır, çünki əgər onda təhrif baş verərsə, ona sarılmaq insanların hidayət olunmasına, azğınlıqdan nicat tapmasına səbəb olmaz. Bu da qeyd olunan mütəvatir hədisin aşkar buyuruğu ilə uyğun deyildir.

4-Bizim fəqih və alimlərimiz tərəfindən nəql olunan şiə rəhbərlərinin kəlamlarında bu həqiqət aşkar şəkildə göstərilir ki, Quran haqq və batilin ayırd edilmə meyarı, düzün nadürüstdən seçilmə vasitəsidir. Belə ki, hər bir kəlam, hətta rəvayət adı ilə bizə çatan şeylər belə, Quranla müqayisə edilməlidir. Əgər onun ayələri ilə uyğun gələrsə, haqq və düzgün, əks halda isə batil və nadürüst olacaqdır. Bu barədə mövcud olan rəvayətlər şiələrin fiqh və rəvayət kitablarında çox gözə dəyir. Onlardan birini qeyd edirik: İmam Sadiq (ə) buyurur:

مَا لَمْ يُوَافِقْ مِنَ الْحَدِيثِ الْقُرْآنَ فَهُوَ زُخْرُفٌ

"Hər şey (söz) Quranla uyğun gəlməsə əbəs və batildir."[2]

---

[1] "Nəhcül bəlağə", 198-ci xütbə

[2] "Üsuli-Kafi", 1-ci cild, fəzlul-elm kitabı, Əl-əxzu bis-sunəti və şəvahidil-kitab" babı, 4-cü rəvayət

Bu rəvayətlərdən aydın olur ki, Quranda heç bir təhrif baş verməmişdir. Buna görə də bu müqəddəs kitab haqq və batilin bir-birindən ayırd edilib seçilməsi meyarı kimi qələmə verilir.

5-Şiə, xüsusilə mütərəqqi İslam mədəniyyətinin daimi keşikçiləri olan böyük islam alimləri etiraf etmişlər ki, Qurani-Kərimdə heç bir təhrif baş verməmişdir. Bu böyük şəxsiyyətlərin hamısının adını sadalamaq çox çətindir, lakin nümunə olaraq onlardan bir neçəsinin adını qeyd edirik:

1-Əbu Cəfər Məhəmməd ibni Əli ibni Hüseyn Babəveyh Qumi (Şeyx Səduq adı ilə məşhurdur, 381-ci ildə vəfat edib) buyurur: *"Quran barəsində etiqadımız budur ki, o, Allahın sözü və vəhydir, batil və düzgün olmayan mətləblər ona yol tapa bilməz, hikmətli və elmli Allah tərəfindən nazil olunmuşdur, Allah onu göndərən və qoruyandır."*[1]

2-Əbu Cəfər Məhəmməd ibni Həsən Tusi (Şeyxut-Taifə adı ilə məşhurdur və 460-cı hicri ilində vəfat etmişdir) deyir: *"Quranın artırılıb-əskildilməsi barəsində sözə gəldikdə isə, bu söz bu kitaba layiq deyildir. Çünki bütün müsəlmanlar Qurana bir şey artırılmaması barəsində yekdil fikrə malikdirlər. Ondan bir şeyin azaldılmasına gəldikdə isə müsəlman məzhəblərinin zahiri bunun əksinədir və bu fikir (Qurana bir şeyin artırılmaması) bizim məzhəbə daha layiqdir. Bu sözü Seyyid Mürtəza qəbul edərək onu təsdiqləmişdir. Rəvayətlərin zahiri də bu həqiqəti sübuta yetirir. Camaatdan az bir qrupu bəzi rəvayətlərə əsasən ayələrin azaldılması və onların yerlərinin dəyişdirilməsinə işarə edirlər və bu (zəif) rəvayətlər də həm sünnü, həm də şiə təriqi ilə gəlib çatmışdır, lakin bu kimi rəvayətlər "vahid xəbər" qəbilindəndir ki, onun barəsində elmə, yaxud ona uyğun əməl etməyə səbəb olmur, yaxşı olar ki, onlar tərk edilsin."*[2]

3-Əbu Əli Təbərsi ("Məcməul-bəyan" təfsirinin müəllifi) yazır: *"Qurana bir şey artırılması məsələsinə gəldikdə, demək lazımdır ki,*

---

[1] "Əl-e`tiqadat", səh.93

[2] "Tibyan", 1-ci cild, səh.3

*bütün İslam ümməti bu sözün əsassız olduğu barədə yekdil fikirdədirlər. Amma ondan müəyyən ayələrin azaldılmasına gəldikdə isə bizim səhabələrdən (alimlərdən) bəziləri və sünnülərin həşəviyyə firqəsindən bir qrupu (bu iddianı isbat etmək üçün) müəyyən rəvayətlər gətirmişlər, lakin bizim məzhəbimizdə qəbul olunan və səhih sayılan nəzər tam onun əksinədir."*[1]

4-Əli ibni Tavus Hilli (Seyyid ibni Tavus adı ilə məşhurdur və 664-cü ildə vəfat etmişdir) deyir: *"Şiənin nəzəri budur ki, Quranda heç bir dəyişiklik olmayıb."*[2]

5-Şeyx Hürr Amili (1104-cü ildə vəfat edib) buyurur: *"Tarix və rəvayətlər barəsində tədqiqat aparan bir insan gözəl şəkildə bilir ki, mütəvatir rəvayətlərə və səhabədən minlərləsinin nəql etdiyinə əsasən Qurani-Kərim sabit və dəyişilməzdir, o, Peyğəmbər (s.ə.v.v)-in dövründə bir yerə yığılmış və tənzim edilmişdir."*[3]

## NƏTİCƏ

Bütün müsəlmanlar – istər sünnü, istərsə də şiələr – inanırlar ki, asimani kitab eynilə Peyğəmbəriə (s) nazil onunan Qurandır və o, hər növ təhrifdən və dəyişiklikdən – artırılmadan və azaldılmadan amandadır. Bununla da şiələrə isnad verilən sözlərin əsassız və yersiz olduğu aydınlaşır. Əgər bu barədə zəif sənədli (mötəbər olmayan) rəvayətlərin nəql olunması bu ittihamın yaranmasına səbəb olmuşsa deməliyik ki, bu kimi rəvayətlərin nəql olunması şiələrin içində olan az bir qrupa məxsus deyildir, çünki sünni müfəssirlərindən bir qrupu da belə zəif rəvayətləri nəql etmişlər ki, onların bəzilərini qeyd edirik:

1-Əbu Əbdillah Məhəmməd ibni Ənsari Qurtəbi öz təfsirində Əbu Bəkr Ənbazidən, o da Übeyy ibni Kəbdən rəvayət edir ki, *"Əhzab" surəsi (73 ayəsi ilə birlikdə) Peyğəmbəri-Əkrəmin (s)*

---

[1] "Məcməul-bəyan", 1-ci cild, səh.10

[2] "Sə`dus-suud", səh.144.

[3] "Alaur-Rəhman", səh.25

*zamanında "Bəqərə" surəsi qədər idi (286 ayəyə malik idi) və "Nəcm" surəsi də bu surənin içində idi, indi isə "Əhzab" surəsində belə bir ayədən heç bir əsər-əlamət görünmür."*[1]

Həmin kitabda Ayişənin belə dediyi nəql olunur: *"Peyğəmbər (s.ə.v.v)-in dövründə "Əhzab" surəsi 200 ayə idi. Müshəf yazıldıqdan sonra hazırda yazıldığından artıq bir şey tapılmadı."*[2]

2-"Əl-itqan" kitabının müəllifi nəql edir ki, *"Übeyyin nüsxəsindəki surələrin sayı 116 imiş. Çünki onda "Həfd" və "Xəl" adlı iki surə də var idi."*[3]

Halbuki Quran 114 surədən ibarətdir və onda "Həfd" və "Xəl" adlı heç bir surə yoxdur.

3-Hibətullah ibni Səlamət "Ənnasixu vəl-mənsux" adlı kitabında Ənəs ibni Malikin belə dediyini nəql edir: *Peyğəmbəri Əkrəm (s.ə.v.v)-in dövründə "Tövbə" surəsi qədər olan bir surə oxuyurduq ki, mən də onun yalnız bir ayəsini əzbərləmişəm. O ayə budur:*

لَوْ اَنَّ لِابْنِ آدَمَ وَادِيَيْنِ مِنَ الذَّهَبِ لَابْتَغي اِلَيْهِما ثَالِثًا وَ لَوْ اَنَّ لَهُ ثَالِثًا لَابْتَغَي اِلَيْهَا رَابِعًا لو لَايَمْلَأُ جَوْفَ اِبْنِ آدَمَ اِلاَّ التُّرَابُ وَ يَتُوبُ اللّهُ عَلَي مَنْ تَابَ

Halbuki Quranda belə bir ayə yoxdur və ümumiyyətlə Quranın bəlağəti ilə uyğun deyildir.

4-Cəlaləddin Süyuti özünün "əd-Durrul-Mənsur" adlı təfsirində Ömər ibni Xəttabdan rəvayət edir ki, *"Əhzab" surəsi "Bəqərə" surəsi qədərincə idi və onda "rəcm" ayəsi vardı."*[4]

Deməli həm sünnü, həm də şiələrin içində az bir qrup Quranda dəyişiklik və təhrif olmasını iddia edən zəif və süst hədisləri nəql etmişlər. Bu zəif rəvayətlər müsəlmanların təqribən əksəriyyətini təşkil edənlər tərəfindən – istər sünnü, istərsə də şiə – qəbul edilmir. Əksinə Quran ayələri, səhih və mütəvatir İslam hədisləri,

---

[1] "Təfsiri Qurtəbi", 14-cü cüz, səh.113, "Əhzab" surəsinin təfsirində

[2] "Təfsiri Qurtəbi", 124-cü cüz, səh.113 "Əhzab" surəsinin təfsirinin əvvəllərində

[3] "İtqan", 1-ci cild, səh.67

[4] "Durrul-Mənsur", 5-ci cild, səh.180 "Əhzab" surəsinin təfsirinin əvvəllərində.

eləcə də Peyğəmbər (s) səhabələrinin, dünya müsəlmanlarının fikir birliyinə əsasən Quranda heç bir təhrif, dəyişiklik, artırılma və azaldılma mövcud deyildir.

## SƏHABƏ BARƏSİNDƏ

Peyğəmbəri-Əkrəmi (s) görüb onunla müsahib (yoldaş) olanlar bir neçə qismə bölünür. Biz bu qismləri şərh etməzdən öncə səhabənin tərifini qısa şəkildə deyirik.

Məhəmməd ibni İsmail Buxari belə deyir: *"Müsəlmanlardan hər kəs Peyğəmbər (s.ə.v.v)-lə müsahib olmuşsa, yaxud onu görmüşsə o həzrətin səhabəsi adlanır."*[1]

Tarixdə on iki mindən artıq adam "Peyğəmbər (s) səhabəsi" kimi qeyd edilmişdir ki, onların arasında müxtəlif simalar gözə dəyir. Şübhəsiz, Peyğəmbərlə (s) müsahib olmaq böyük bir iftixardır ki, müəyyən insanlara nəsib olmuşdur və İslam ümməti də onlara həmişə ehtiram nəzərləri ilə baxırlar. Çünki onlar İslam dinini qəbul edən ilk şəxslər olmuş, İslamın izzət və şövkətli bayrağını ilk dəfə olaraq ucaltmışlar. Quran da daim bu hərəkatın önündə gedən belə bayraqdarları tərifləyərək buyurur:

لَا يَسْتَوِي مِنكُمْ مَنْ انفَقَ مِنْ قَبْلِ الْفَتْحِ وَقَاتَلَ أُوْلَئِكَ اَعْظَمُ دَرَجَةً مِنَ الَّذِينَ اَنفَقُوا مِنْ بَعْدُ وَقَاتَلُوا

"Məkkənin fəthindən qabaq mal-dövlətlərini (Allah yolunda) ehsan edib mübarizə edənlər bu işdən sonra infaq və cihad edənlərlə bərabər deyillər, əksinə onlar yüksək bir dərəcəyə malikdirlər."[2]

Eyni halda bunu da etiraf etməliyik ki, Peyğəmbərlə (s) müsahib olmaq elə bir kimya deyildi ki, bütün insanların mahiyyətini dəyişdirsin, onların hamısına, ömürlərinin axırına qədər zəmanət versin və aqillər cərgəsində qərar versin. Bu məsələnin aydın olması üçün hər şeydən öncə bütün

---

[1] Yenə orada

[2] "Hədid" surəsi, ayə:10

müsəlmanlar tərəfindən qəbul edilən Qurana üz gətirir və onun həll olunmasında bu müqəddəs asimani kitabdan kömək istəyirik:

## QURAN NƏZƏRİNDƏN SƏHABƏ

Vəhy məntiqində Peyğəmbərin (s) hüzuruna çatan və onunla müsahib olan (yoldaşlıq edən) şəxslər iki dəstədir:

### BİRİNCİ DƏSTƏ

Onlar Quran ayələrində təriflənmiş, İslamın şövkətinin və əzəmətli sarayının bünövrəsini qoyanlar kimi qeyd olunanlardır. Biz burada həmin dəstədən olan səhabələrlə əlaqədar bəzi ayələri qeyd edirik:

1-İlk iman gətirənlər

وَالسَّابِقُونَ الأَوَّلُونَ مِنَ الْمُهَاجِرِينَ وَالأَنصَارِ وَالَّذِينَ اتَّبَعُوهُمْ بِإِحْسَانٍ رَضِيَ اللَّهُ عَنْهُمْ وَرَضُوا عَنْهُ وَأَعَدَّ لَهُمْ جَنَّاتٍ تَجْرِي تَحْتَهَا الأَنْهَارُ خَالِدِينَ فِيهَا أَبَدًا ذَلِكَ الْفَوْزُ الْعَظِيمُ

"Mühacir, ənsar və onlara tabe olan ilk iman gətirənlər... Allah onlardan, onlar da Allahdan razıdır və Allah, ağaclarının altından çaylar axan behişt bağlarını onlar üçün hazırlamışdır, bu, həqiqətən də böyük qurtuluşdur."[1]

2-Ağacın altında beyət edənlər

لَقَدْ رَضِيَ اللَّهُ عَنِ الْمُؤْمِنِينَ إِذْ يُبَايِعُونَكَ تَحْتَ الشَّجَرَةِ فَعَلِمَ مَا فِي قُلُوبِهِمْ فَأَنْزَلَ السَّكِينَةَ عَلَيْهِمْ وَأَثَابَهُمْ فَتْحًا قَرِيبًا

"Allah, səninlə ağacın altında beyət edən möminlərdən razı oldu və onların qəlblərindən keçənləri bildi. Bundan sonra onların qəlbinə aramlıq nazil etdi və yaxın olan qələbəni onlara mükafat verdi."[2]

3-Mühacirlər

لِلْفُقَرَاءِ الْمُهَاجِرِينَ الَّذِينَ أُخْرِجُوا مِن دِيَارِهِمْ وَأَمْوَالِهِمْ يَبْتَغُونَ فَضْلًا مِنَ اللَّهِ وَرِضْوَانًا وَيَنصُرُونَ اللَّهَ وَرَسُولَهُ أُولَئِكَ هُمُ الصَّادِقُونَ

"Öz ev-eşiklərindən qovulub uzaqlaşdırılan mühacir müsəlmanlar, Pərvərdigarın fəzl və mərhəmətini axtaran, Allaha

---

[1] "Tövbə" surəsi, ayə:100

[2] "Fəth" surəsi, ayə:18

və Peyğəmbərinə kömək edənlər üçün... Onlar həqiqətən doğruçulardır."[1]

4-Fəth səhabələri

مُحَمَّدٌ رَّسُولُ اللَّهِ وَالَّذِينَ مَعَهُ اَشِدَّاءُ عَلَي الْكُفَّارِ رُحَمَاءُ بَيْنَهُمْ تَرَاهُمْ رُكَّعًا سُجَّدًا يَبْتَغُونَ فَضْلًا مِّنَ اللَّهِ وَرِضْوَانًا سِيمَاهُمْ فِي وُجُوهِهِم مِّنْ اَثَرِ السُّجُودِ

"Məhəmməd Allahın Rəsuludur, onun köməkçiləri və onunla olanlar kafirlərə qarşı qəliz, bir-birləri arasında mehribandırlar. Onları rüku və səcdə halında görərsən ki, Allahın fəzl və mərhəmətini axtarırlar, onların üzlərində səcdənin əsərləri vardır."[2]

İKİNCİ DƏSƏTƏ

İkinci dəstə Peyğəmbər (s.ə.v.v)-lə müsahib olmalarına baxmayaraq batinləri ilə zahirləri düz gəlməyən münafiqlərdir. Qurani-Kərim onların mahiyyətini, iç üzünü ifşa edərək Peyğəmbər (s.ə.v.v)-i onların varlığından qorxudur. Burada nümunə olaraq onlardan bir neçəsini qeyd edirik:

1-Tanınmış münafiqlər

اِذَا جَاءَكَ الْمُنَافِقُونَ قَالُوا نَشْهَدُ اِنَّكَ لَرَسُولُ اللَّهِ وَاللَّهُ يَعْلَمُ اِنَّكَ لَرَسُولُهُ وَاللَّهُ يَشْهَدُ اِنَّ الْمُنَافِقِينَ لَكَاذِبُونَ

"(Ey Peyğəmbər,) o zaman ki, münafiqlər sənin yanına gəlib dedilər: "Biz şəhadət veririk ki, sən Allahın peyğəmbərisən." Allah bilir ki, sən Onun Rəsulusan və o həm də şahidlik verir ki, münafiqlər yalan danışırlar."[3]

2-Tanınmayan münafiqlər

وَمِمَّنْ حَوْلَكُمْ مِنَ الاَعْرَابِ مُنَافِقُونَ وَمِنْ اَهْلِ الْمَدِينَةِ مَرَدُواْ عَلَي النِّفَاقِ لاَ تَعْلَمُهُمْ نَحْنُ نَعْلَمُهُمْ

"Sizin ətrafınızda olan bəzi çöl ərəbləri münafiqdirlər və Mədinə əhlindən bəziləri nifaqa (ikiüzlülüyə, münafiqliyə) qərq olmuşlar. Sən onları tanımırsan, Biz onları tanıyırıq."[4]

---

[1] "Həşr" surəsi, ayə:8

[2] "Fəth" surəsi, ayə:29

[3] "Munafiqun" surəsi, ayə:1

[4] "Tövbə" surəsi, ayə:101

3-Qəlbləri xəstə olanlar

وَاِذْ يَقُولُ الْمُنَافِقُونَ وَالَّذِينَ فِي قُلُوبِهِم مَّرَضٌ مَّا وَعَدَنَا اللَّهُ وَرَسُولُهُ اِلَّا غُرُورًا

"Münafiqlər və qəlblərində xəstəlik olanlar Allahın və Peyğəmbərin vədəsini eşitdikləri zaman "bu yalandan başqa bir şey deyildir" - deyirdilər."[1]

4-Günahkarlar

وَآخَرُونَ اعْتَرَفُواْ بِذُنُوبِهِمْ خَلَطُواْ عَمَلاً صَالِحًا وَآخَرَ سَيِّئًا عَسَي اللّهُ اَن يَتُوبَ عَلَيْهِمْ اِنّ اللّهَ غَفُورٌ رَحِيمٌ

"Öz günahlarına etiraf edən bəziləri yaxşı əməllərini pis əməllərlə qarışdırmışlar, bəlkə Allah onların tövbəsini qəbul edə. Allah bağışlayan və mehribandır."[2]

Qeyd olunan ayələrdən başqa, Peyğəmbər (s.ə.v.v)-dən nəql olunmuş çoxlu rəvayətlərdə bəzi səhabələr məzəmmət edilir. Misal olaraq, onlardan ikisini qeyd edirik:

1-Əbu Hazim, Səhl ibni Səddən rəvayət edir ki, Peyğəmbəri Əkrəm (s.ə.v.v) buyurdu:

اَنَا فَرَطُكُمْ عَلَي الْحَوْضِ مَنْ وَرَدَ شَرِبَ وَ مَنْ شَرِبَ لَمْ يَظْمَاْ اَبَدًا وَ يَرِدَنَّ عَلَيَّ اَقْوَامٌ اَعْرِفُهُمْ وَ يَعْرِفُونَنِي ثُمَّ يُحَالُ بَيْنِي وَ بَيْنَهُمْ

"Mən (qiyamətdə) sizi hovuza tərəf göndərirəm, hər kəs ona varid olursa, ondan içir, hər kəs də içirsə, onun susuzluğu əbədi olaraq aradan qalxır. Bir qrup mənim yanıma gəlir, mən onları tanıyıram, onlar da məni tanıyırlar, sonra mənimlə onlar arasında fasilə salınır."

Əbu Hazim deyir: Mən bu hədisi oxuyan zaman Noman ibni Əbi Əyyaş eşidib dedi: Səhldən belə eşitdinmi? Dedim: Bəli. Dedi: Şəhadət verirəm ki, Əbu Səid Xidri də bu hədisi aşağıdakı əlavə ilə Peyğəmbər (s.ə.v.v)-dən nəql edirdi:

اِنَّهُمْ مِنِّي فَيُقَالُ اِنَّكَ لَا تَدْرِي مَا اَحْدَثُوا بَعْدَكَ فَاَقُولُ سَحْقًا سَحْقًالِمَنْ بَدَّلَ بَعْدِي

"(Mən deyəcəyəm: Pərvərdigara, axı) onlar məndəndir?! Deyiləcək: Sən bilmirsən ki, onlar səndən sonra nələr etdilər! Sonra mən deyirəm: Allahın rəhmətindən uzaq olsun o kəslər ki,

[1] "Əhzab" surəsi, ayə:12

[2] "Tövbə" surəsi, ayə:102

(məndən sonra Allahın hökmlərini) dəyişdirdilər."[1]

"Mən onları tanıyıram, onlar da məni tanıyırlar, eləcə də "məndən sonra dəyişdirdilər" cümləsindən məlum olur ki, "onlar" dedikdə məqsəd bir müddət Peyğəmbərlə yoldaş olan səhabələrdən bəziləridir.

2-Buxari və Müslim Peyğəmbərin (s) belə buyurduğunu nəql etmişlər:

يَرِدُ عَلَيَّ يَوْمَ الْقِيَامَةِ رَهْطٌ مِنْ اَصْحَابِي -اَوْ قَالَ مِنْ اُمَّتِي- فَيُحَلَّؤُونَ عَنِ الْحَوْضِ فَاَقُولُ يَا رَبِّ اَصْحَابِي، فَيَقُولُ اِنَّهُ لَا عِلْمَ لَكَ بِمَا اَحْدَثُوا بَعْدَكَ اِنَّهُمْ اِرْتَدُّوا عَلَي اَدْبَارِهِمُ الْقَهْقَرِيِّ

"Qiyamət günündə mənim səhabələrimdən (yaxud "ümmətimdən" deyə buyurdu) bir qrupu mənim yanıma gələr, sonra onlar hovuzdan ("Kovsər" hovzundan) uzaqlaşdırılar. (Onların Kovsər hovuzuna yaxınlaşıb daxil olmalarının qarşısı alınar.) Mən deyərəm: Pərvərdigara, bunlar ki, mənim səhabələrimdir?! Allah buyurar: Sən onların, səndən sonra etdikləri əməllərdən agah deyilsən. Onlar əvvəlki vəziyyətlərinə (cahiliyyət dövrünə) qayıtdılar."[2]

Quran ayələrindən və Peyğəmbər (s) sünnəsindən aydın olur ki, Peyğəmbərlə (s) müsahib olmaq iftixarına nail olan səhabələrdən hamısı (əqidə cəhətindən) eyni səviyyədə olmamışlar. onların bir qrupu təqvalı və layiqli insanlar olmuşlar və onların dəyərli xidmətləri nəticəsində İslam dini inkişaf edib genişlənmişdir. Digər bir qrupu isə ilk əvvəldən ikiüzlü, münafiq, qəlbi xəstə və günahkar insanlar olmuşlar.[3]

---

[1] "Camiul-üsul" (ibni Əsir), 11-ci cild, səh.120, 7972-ci hədis

[2] "Camiul-üsul", 1-ci cild, səh.120, 7973-cü hədis

[3] Əlavə mə`lumat almaq üçün "Münafiqun" surəsinə müraciət edə bilərsiniz.

## MÜTƏ İZDİVACI

Nikah–ərlə arvad arasında olan bir bağlılıqdır. Bu bağlılıq bəzən daimi olur və əqddə onun hüdudu bəyan olunmur. Bəzən də həmin mahiyyət məhdud surətdə, müvəqqəti olaraq müəyyən müddətlə həyata keçirilir. Hər ikisi də şəri izdivac ünvanı ilə yerinə yetirilir. Aşağıda qeyd olunan şərtlər daimi izdivacda olduğu kimi mütə nikahında da şərtdir: 1. Tərəflərin razılaşdığı mehriyyə əqddə qeyd olunmalıdır. 2. İzdivacın müddəti müəyyən olunmalıdır.3. Şəri əqd icra olunmalıdır. 4. Əgər onlardan övlad dünyaya gələrsə, onların qanuni övladıdır. 5. Övladların nəfəqəsi (xərcliyi) atanın öhdəsinədir və övlad ata-anadan irs aparır. 6.İzdivacın müddəti sona çatan zaman qadın yaisəlik həddində olmazsa şəri iddə saxlamalıdır.

Daimi izdivacın sair hökmləri də mütə izdivacında riayət olunmalıdır. Yeganə fərq bundan ibarətdir ki, mütə izdivacı müəyyən zərurətlərin aradan qaldırılması üçün qanuni hala salındığından qadının xərcləri və nəfəqəsi ərin öhdəsinə deyildir və əqd zamanı qadın miras aparacağını şərt edərsə, öz ərindən irs aparacaqdır. Aydındır ki, bu iki fərq nikahın mahiyyətinə heç bir təsir göstərmir.

Cavab:

1. Mütənin Misyardan heç bir fərqi oxdur

Başqalarını ittiham edən vəhhabilərdə də daimi evlilikdən savayı şərii qəbul etdikləri "Misyar" evliliyi mövcuddur. Misyara diqqət edildikdə siğə ilə heç bir fərqin olmamasının şahidi oluruq. Sadəcə Misyarda siğədən fərqli olaraq əvvəlcədən müvəqqəti nikah deyil, daimi nikah oxunur sonra (Kişi ilə qadının arasında müəyyən mehriyyə əsasında razılığa gəlindiyi müddət tamam olduqda) talaq (boşanma) oxunur. İndi deyirik əgər mütə nikahı, yəni siğə müvəqqəti olduğundan dolayı pis işdirsə, bəs nədən misyar bəyənilmiş sayılsın.

2. İslam dini bəşəriyyətin qiyamətə qədər olan bütün ehtiyaclarına cavab verir.

Hamımız inanırıq ki, islam dini əbədi şəriət və dinlərin sonuncusudur ki, bəşəriyyətin qiyamətə qədər olan bütün ehtiyaclarına cavab verməlidir. İndi belə bir məsələ yaranır ki, misal üçün, öz təhsilini davam etdirmək üçün qərib bir ölkədə, yaxud qərib şəhərdə uzun illər qalmalı olan və imkanları məhdud olduğuna görə daimi izdivac edə bilməyən bir şəxs özünün qarşısında üç yoldan birini müşahidə edir və onlardan birini seçməlidir:

a) Elə subaylıq halətində qalsın

b) Əxlaqsızlıq bataqlığına süqut etsin

v) Qeyd olunan çərçivələr və şəraitlər daxilində izdivac etməsi şərən caiz olan bir qadınla müvəqqəti olaraq izdivac etsin.

Birinci halda əksər hallarda müvəffəqiyyətsizliyə uğrayır. Baxmayaraq ki, müəyyən az saylı adamlar cinsi əməlin hər növ qeydindən uzaq gəzərək səbr və müqavimət göstərə bilər, lakin bu üslub hamı üçün icra olunası deyildir. İkinci yolu seçənlərin axır-aqibəti də biçarəlikdən, puçluqdan ibarətdir və bu, İslam nəzərindən haram və qadağan olan bir iş sayılır. Zərurət bəhanəsilə bu işə icazə verilməsi təfəkkürü də bir növ ideoloji azğınlıq və əyri düşüncə sayılır. Deməli, yalnız üçüncü yol qalır ki, İslam da onu təklif etmişdir. Peyğəmbərin (s) dövründə də ona əməl olunurdu, lakin sonralar bu barədə ixtilaf yarandı.

Qeyd olunmalıdır ki, müvəqqəti izdivacdan – mütədən qaçaraq onu qanunsuz bir iş hesab edənlər bilməlidirlər ki, bütün İslam fəqihləri və mühəqqiqləri məna baxımından onun oxşarını daimi əqddə qəbul etmişlər. Belə ki, ər-arvad daimi əqd bağlayır, lakin hər ikisinin niyyəti bu olur ki, bir ildən, yaxud daha az, ya da daha çox müddətdən sonra təlaq vasitəsilə bir-birindən ayrılsınlar. Aydındır ki, belə bir bağlılıq zahirdə daimi, həqiqətdə isə müvəqqətidir. Belə daimi nikahla mütə arasında olan fərq bundan ibarətdir ki, mütə zahirdə də, batində də məhdud və

müvəqqətidir, lakin bu növdən olan daimi izdivac zahirdə daimi, batində isə məhduddur. Bütün İslam fəqihləri tərəfindən qəbul olunan bu növ izdivacı qəbul edənlər necə olur ki, mütə nikahına icazə verməkdən qorxub qaçırlar?

3. Quran və sünnədə mütə izdivacının halal olması və şəriət qanununa tam uyğun olması

Mütə izdivacının mahiyyəti ilə tanış olduqdan sonra onun halal olması və məşru (şəriət qanunu) halına salınmasının dəlillərini araşdırır və söhbətimizi iki mərhələdə davam etdiririk:

1-İslamın əvvəllərində mütə nikahının qanuni bir iş olması;

2-Peyğəmbərin (s) dövründə bu şəriət hökmünün qüvvədən salınmaması.

Mütənin qanuni və şəri bir iş olmasının dəlili aşağıdakı ayədir:

فَمَا اسْتَمْتَعْتُمْ بِهِ مِنْهُنَّ فَآتُوهُنَّ أُجُورَهُنَّ فَرِيضَةً

"Hərgah qadınlardan bəhrələnsəniz (siğə etmək istəsəniz) onların muzdunu (müəyyən olunmuş mehriyyəni) verin".[1]

Bu ayədəki kəlmələr aşkar şəkildə bəyan edir ki, o müvəqqəti izdivacla əlaqədar nazil olmuşdur, çünki:

1-Bu ayədə "istəmtətum" kəlməsi işlənmişdir ki, müvəqqəti nikah barəsindədir. Əgər daimi nikah nəzərdə tutulsaydı hökmən əlavə əlamət və şahid qeyd edilməli idi.

2-"Ucurəhunnə" kəlməsi "qadınların muzdu" mənasını ifadə edir ki, bu da məqsədin mütə olmasına dair aşkar bir şahiddir. Çünki daimi nikahda "mehriyyə" və "sədaq" kimi kəlmələrdən istifadə edilir.

3-Şiə və sünnü müfəssirlərinin nəzərinə əsasən qeyd olunan ayə müvəqqəti nikah barəsində nazil olmuşdur.

Cəlaləddin Süyuti "Əd-durrul-mənsur" adlı təfsir kitabında ibni Cəridən və Sədidən nəql edir ki, yuxarıdakı ayə mütə

[1] "Nisa" surəsi, ayə:24

barəsində nazil olub.[1]

Əbu Cəfər Məhəmməd ibni Cərir Təbəri öz təfsirində Sədidən, Mücahiddən və ibni Abbasdan nəql edir ki, bu ayə müvəqqəti nikah ilə əlaqədar nazil olmuşdur.[2]

4-"Sihah" və "Müsnəd" müəllifləri, eləcə də rəvayət kitablarının müəllifləri də bu həqiqəti qəbul etmişlər. Misal olaraq, Müslim ibni Həccac özünün "Səhih" kitabında ("Səhih Müslim"də) Cabir ibni Əbdüllahdan və Sülmət ibni Əkvədən belə rəvayət edir:

خَرَجَ عَلَيْنَا مُنَادِي رَسُولِ اللّهِ فَقَالَ اَنَّ رَسُولَ اللّهِ قَدْ اَذِنَ لَكُمْ اَنْ تَسْتَمْتِعُوا يَعْنِي مُتْعَةَ النِّسَاءِ

*"Peyğəmbərin (s) carçısı bizə tərəf gəlib dedi: Rəsuli Əkrəm sizin istimta etməyinizə (qadınlardan ləzzət almağınıza, onları siğə etməyinizə) icazə verdi. Yəni qadınları mütə etməyi nəzərdə tuturdu."*[3]

Bu barədə "Səhih" və "Müsnəd"lərdə mövcud olan rəvayətlər həddindən artıq çoxdur və bu kiçik kitaba sığa bilməz. Deməli İslamın əvvəllərində, eləcə də Peyğəmbərin (s) həyatda olduğu müddətdə mütənin şəriət qanunu olması bütün İslam alim və müfəssirlərinin qəbul etdiyi bir məsələdir.[4]

## BEŞLİK NAMAZI ÜÇ VAXTDA QILMAQ

Əvvəlcə məsələnin aydın olması üçün fəqihlərin bu barədəki nəzərlərini qeyd edirik:

1-Bütün İslam məzhəbləri bu məsələdə yekdil nəzərə malikdirlər ki, Ərəfədə hər iki namazı – zöhr və əsr namazını

---

1 "Durrul-Mənsur", 2-ci cild, səh.140

2 "Camiul-bəyan fi təfsiril-Qur`an", 5-ci cüz, səh.9

3 "Səhihi Müslim", 4-cü cüz, səh.130, Misir çapı.

4 Nümunə olaraq bu mənbələrdən bə`zilərini qeyd edirik: 1-"Səhihi Buxari", təməttö` babı, 2-"Müsnədi Əhməd", 4-cü cild, səh.436 və 3-cü cild, səh.356æ 3-"Əl-Müvəttəə" (Malik), 2-ci cild, səh.30, 4-"Sünəni Beyhəqi", 7-ci cild, səh.306, 5-"Təfsiri Təbəri", 5-ci cild, səh.9, 6-"Nəhayə" (ibni Əsir) 2-ci cild, səh.249, 7-"Təfsiri Razi", 3-cü cild, səh.201, 8-"Tarixi ibni Xulləkan", 1-ci cild, səh.359, 9-"Əhkamul-Qur`an" (Cəssas), 2-ci cild, səh.178, 10-"Muhaziratu Rağib", 2-ci cild, səh.94, 11-"Əl-Camiul-Kəbir" (Süyuti), 8-ci cild, səh.293, 12-"Fəthul-Bari" (ibni Həcər), 9-cu cild, səh.141

zöhr vaxtında birlikdə, arada fasilə salınmadan qılmaq olar. Həmçinin Müzdəlifədə də məğrib və işa namazlarının vaxtında qılmaq caizdir.

2-Hənbəlilər, malikilər və şafeilər deyirlər: Zöhrlə əsr, məğriblə işa namazlarını xüsusi bir vaxtda bir yerdə qılmaq qeyd olunan iki yerdən başqa, səfər halında da caizdir. Onlardan bəziləri iki namazı birlikdə qılmağı zərurət halına (məsələn, yağış yağanda, namaz qılan şəxs xəstə olanda, yaxud düşməndən qorxu törənəndə) aid edərək caiz bilmişlər.[1]

3-Şiələr inanırlar ki, zöhr və əsrin, eləcə də məğrib və işa namazının həm xüsusi, həm də müştərək vaxtları vardır:

a) Zöhr namazının xüsusi vaxtı şəri zöhrdən (günəşin şaquli vəziyyətdən qərbə tərəf keçdiyi zamandan) dörd rəkətlik namaz qılına biləcək vaxt keçənə qədərdir. Bu məhdud müddətdə yalnız zöhrü qılmaq olar.

b) Əsr namazının xüsusi vaxtı o zamandır ki, qüruba qədər əsr namazını qılmaq qədər vaxt qalmış olsun.

v) Zöhr ilə əsr namazı arasında müştərək vaxt, zöhr namazının xüsusi vaxtının axırından başlanır və şiələrin fiqhinə görə bu müştərək vaxtın bütünlüyündə zöhr və əsr namazını birlikdə və arada fasilə salmadan qılmaq caizdir.

q) Məğrib namazının məxsus vaxtı şəri məğribdən başlanır və üç rəkətlik namaz qılmaq qədər vaxt keçənə qədər davam edir. Bu məhdud müddətdə yalnız məğrib namazını qılmaq olar.

d) İşa namazının məxsus vaxtı şəri cəhətdən gecə yarısına yalnız işa namazını qılmaq qədərində vaxt qalana qədərdir. Bu qısa müddətdə yalnız işa namazını qılmaq olar.

e) Məğrib və işa namazları arasında müştərək olan vaxt məğrib namazına məxsus olan vaxtdan başlayır və işa namazının məxsus vaxtına qədər davam edir.

Şiələr inanırlar ki, bu müştərək müddət ərzində məğrib və işa

[1] "Əl-fiqhu ələl-məzahibil-ərbəə", kitabus-səlat, əl-cəm`u bəynəs-səlat təqdimən və tə`xirən

namazlarını birlikdə, arada fasilə salmadan qılmaq olar.

4-Bütün müsəlmanlar bu barədə yekdil fikirdədirlər ki, Peyğəmbər (s) iki namazı bir yerdə qılmışdır. Burada həmin rəvayətlərdən bir neçəsinə işarə edirik:

1-Hənbəlilərin rəisi Əhməd ibni Hənbəl öz "Müsnəd"ində Cabir ibni Zeydin belə rəvayət etdiyini yazır:

اَخْبَرَنِي جَابِرُ بْنُ زَيْدٍ اَنَّهُ سَمِعَ ابْنَ عَبَّاسٍ يَقُولُ  صَلَّيْتُ مَعَ رَسُولِ اللّهِ صَلَّي اللّهُ عَلَيْهِ وَ آلِهِ "
وَ سَلَّمَ ثَمَانِيًا جَمِيعًا وَ سَبْعًا جَمِيعًا قَالَ قُلْتُ لَهُ يَا اَبَا الشَّعْثَاءِ اَظُنُّهُ اَخَّرَ الظُّهْرَ وَ عَجَّلَ الْعَصْرَ وَ
اَخَّرَ الْمَغْرِبَ وَ عَجَّلَ الْعِشَاءَ قَالَ وَ اَنَا اَظُنُّ ذلِكَ

*"Cabir ibni Zeyd deyir: ibni Abbasın belə dediyini eşitdim: Peyğəmbərlə (s) səkkiz rəkəti (zöhrlə əsri) və yeddi rəkəti (məğriblə işanı) birlikdə qıldıq. O deyir ki, Əbu Şəşaya dedim: Mən belə fikirləşirəm ki, Peyğəmbər zöhr namazını təxirə saldı və əsr namazını tez qıldı eləcə də məğrib namazını təxirə saldı və işa namazını tez qıldı. (Əbu Şəsa) dedi: Mən də belə fikirləşirəm."*[1]

Bu rəvayətdən aydın olur ki, Peyğəmbər (s) hər iki namazı, zöhrlə əsri, eləcə də məğriblə işanı arada fasilə salmadan birlikdə qılmışdır.

2-Malikiyyə firqəsinin başçısı Malik ibni Ənəs "əl-Müvəttəə" kitabında belə yazır:

صَلّي رَسُولُ اللّهِ الظُّهْرَ وَ الْعَصْرَ جَمِيعًا وَالْمَغْرِبَ وَالْعِشَاءَ جَمِيعًا فِي غَيْرِ خَوْفٍ وَ لَا سَفَرٍ

*"Rəsuli-Əkrəm (s.ə.v.v) zöhrlə əsr, məğriblə işa namazlarını birlikdə qılırdı, halbuki nə düşməndən qorxu var idi, nə də səfərdə idi."*[2]

3-Malik ibni Ənəs Məaz ibni Cəbələdən belə nəql edir:

فَكَانَ رَسُولُ اللّهِ يَجْمَعُ بَيْنَ الظُّهْرِ وَ الْعَصْرِ وَ الْمَغْرِبِ وَ الْعِشَاءِ

*"Peyğəmbəri-Əkrəm (s) zöhrlə əsr, məğriblə işa namazlarını birlikdə qılırdı."*[3]

4-Malik ibni Ənəs Nafedən, o da Əbdüllah ibni Ömərdən belə

---

[1] "Müsnədi Əhməd", 1-ci cild, səh.221

[2] "Müvəttəə" (Malik), əs-səlat kitabı, Beyrut çapı, səh.125, hədis-178æ "Səhihi-Müslim", 2-ci cild, səh.151, Beyrut çapı, əl-cəm`u bəynəs-səlateyni fil-həzər babı.

[3] "Müvəttəə" (Malik), səlat bölməsi, səh.134 hədis 176, Beyrut çapı, 1403, "Səhihi Müslim", Misir çapı, 2-ci hissə, səh.152

nəql edir:

كَانَ رَسُولُ اللّهِ إِذَا عَجِلَ بِهِ السَّيْرُ يَجْمَعُ بَيْنَ الْمَغْرِبِ وَ الْعِشَاءِ

*"Hər vaxt Peyğəmbər (s) bir yolu tələsən halda keçsəydi məğriblə işa namazını birlikdə qılardı."*[1]

5-Zərqani Təbəranidən, o da ibni Məsuddan belə nəql edir:

جَمَعَ النَّبِيُّ صَلَّي اللّهُ عَلَيْهِ وَ آلِهِ" وَ سَلَّمَ بَيْنَ الظُّهْرِ وَ الْعَصْرِ وَ بَيْنَ الْمَغْرِبِ وَ الْعِشَاءِ فَقِيلَ لَهُ فِي ذَلِكَ فَقَالَ صَنَعْتُ هذَا لِئَلاَّ تَحْرِجَ اُمَّتِي

*Peyğəmbəri Əkrəm (s.ə.v.v) zöhrlə əsr, məğriblə işa namazlarını arada fasilə olmadan qıldı. Ondan bu barədə soruşulduqda buyurdu:* "Səbəbi budur ki, ümmətim çətinliyə, əzab-əziyyətə düşməsin."[2]

Yuxarıda qeyd olunan rəvayətlərə əsasən şiənin nəzərindən iki namazın birlikdə qılınmasının səhih olmasını göstərən aşkar dəlilləri yekunlaşdırırıq:

1-İki namazın bir vaxtda (birlikdə) qılınması müsəlmanların işinin asanlaşdırılması və onların əzab-əziyyətə düşməsinin qarşısını almaq üçündür.

2-Ərəfədə iki namazın ardıcıl qılınması iki namazın birlikdə qılınmasının keyfiyyətini izah edir.

3-Səfərdə iki namazın bir yerdə qılınması iki namazın ardıcıl qılınma keyfiyyətini bəyan edir.

4-Zərurət halında iki namazın birlikdə qılınması, ixtiyar halında iki namazı birlikdə qılmağın keyfiyyətini bəyan edir.

5-Peyğəmbərin (s) rəftarı iki namazın birlikdə qılınmasını bəyan edir.

Yuxarıda qeyd olunan və hamısı sünnülərin "Sihah" və "Müsnəd" kitablarından çıxarılan hədislərin məcmusundan şiələrin nəzəriyyəsi – yəni zöhrlə əsr, məğriblə işa namazlarını birlikdə qılmağın düzgünlüyü, eləcə də onun bütün şərait, məkan və zamanlarda ümumi olması sübuta yetir.

---

[1] "Müvəttəə", Beyrut çapı, səh.125 hədis-177

[2] Yenə orada, səh.294

## ŞƏFAƏT İNANCI

Vəhhabilərin əqidələrindən biri də budur ki, onlar şəfaət məsələsini düzgün təfsir etmirlər. Onların nəzərincə şəfaət yalnız Axirətdə ola bilər. Amma bu dünyada heç kəs Peyğəmbərin (s) və övliyaların şəfaətinə göz dikməli deyillər. Hər kəs belə şəfaəti dünyada istəsə, Allaha şərik qoşur və kafir sayılır!

*Cavab:*

Bütün müsəlmanlar Quranın aşkar bəyanına əsasən inanırlar ki, Allah istədiyi ləyaqətli şəxsə şəfaət məqamını verəcək. Bu şəfaətin Qiyamətdə olmasında heç bir fikir ayrılığı yoxdur. Görəsən, bu dünyada Peyğəmbərin (s) elə bir məqamı var ki, Allaha dua etsin, Allah da hər hansı bir günahkarın günahından keçsin?

Ayələrin və rəvayətlərin təsdiqinə əsasən, bu iş heç də qəbih deyil. Allah bu məqamı həm bu dünyada, həm də Axirətdə Peyğəmbərə (s vermişdir. İndi də bəzi nümunələrə diqqət etməklə vəhhabilərin iddialarının yanlış olmasını görərik:

*1.* Allah taala "Nisa" surəsinin 64-cü ayəsində buyurur:

*Əgər onlar özlərinə zülm etmiş olanda sənin yanına gəlsəydilər, Allah dərgahından bağışlanmaq tələb etsəydilər və <u>Peyğəmbər də onlardan ötrü bağışlanmaq duası</u> etsəydi, Allahı ən çox tövbə qəbul edən [bağışlayan] kimi tanıyardılar.*

Ayədə hər şey aydın zikr olunub. Görəsən, vəhhabilər Quranı açıb oxumurlar və bu ayəyə rast gəlməyirlər? Hər bir aqil şəxsə ayədən məlum olur ki, Peyğəmbər (s) dünyada olan halda da Allahın izni ilə günahkarlara şəfaət verə bilər və Allahdan onlar üçün bağışlanmaq diləyə bilər. Bu işdə heç bir şirk yoxdur. Onu da qeyd edək ki, Peyğəmbərin (s) dünyadan köçməsi səbəb olmaz ki, müsəlmanlar bu dünyada ondan şəfaət istəməsinlər. çünki İslamda ölüm heç olmaq və aradan getmək deyildir!

2. Qurani-Məcid həzrət Yəqub Peyğəmbərin (ə) əhvalatını zikr edərkən övladlarının günahkar olduğunu bildikdən sonra onların atalarından şəfaət istəmələrini belə bəyan edir:

*Ey ata! Allahdan bizim günahlarımıza görə bağışlanmamızı istə! Həqiqətən, biz səhv yolda olmuşuq*[1].

Yəqub (əleyhissəlam) onların cavabında buyurur:

*Tezliklə Allaha sizin bağışlanmağınızdan ötrü dua edəcəyəm!*[2]

Ayə aşkarcasına nişan verir ki, həzrət Yəqubun (əleyhissəlam) övladları atalarının şəfaəti əsasında bağışlanılırlar və bu iş heç də Axirətdə olmur, əksinə, dünyada olarkən baş verir.

3. Qurani-Məcid "Mühəmməd" surəsinin 19-cu ayəsində Peyğəmbərinə (s) göstəriş verərək buyurur:

*Ey Peyğəmbər! özünün günahının və möminlərin bağışlanmasından ötrü Allah dərgahından bağışlanmaq tələb et!*

4. "Tövbə" surəsinin 103-cü ayəsində buyurur:

*Onlar barəsində [zəkat ödəyənlər] dua et və bağışlanmalarını dilə ki, sənin dua etməyin onların rahatlıqlarına səbəb olur.*

5. "Nisa" surəsinin 85-ci ayəsində buyurur:

*Hər kəs başqası üçün yaxşı şəfaət etsə, ondan bəhrələnəcək.*

6. Rəvayətlərdə də dünyada Peyğəmbərdən (s) şəfaət istəmək haləti qeyd olunmuşdur. İbni Əbbas nəql edir ki, Həzrəti Əli (ə) Peyğəmbəri (s) qüsl və kəfən edərkən onun üzünü açıb belə buyurdu: *Atam, anam sənə qurban, həyat və ölümü paklıqla keçirtdin... Bizi də Allah yanında yada sal!*

Bütün bunlar və onlarla başqa dəlillər isbat edir ki, vəhhabilərin bu fikri də İslam dininə zərbə vura bilməz. İslamda hər şey açıq-aydın araşdırılmış Peyğəmbər (s) və İmamlar (ə) lazım olan şeyləri müsəlmanlara çatdırmışlar. Əslində belə fikirlər müsəlmanların birliyini dağıtmaqdan başqa bir şeyə xidmət etmir.

[1] «Yusif" surəsi, 97-ci ayə.
[2] "Yusif" surəsi, 98-ci ayə.

## ALLAHDAN BAŞQASINDAN KÖMƏK İSTƏMƏK ŞİRKDİRMİ?

*Cavab*: Əql və vəhy məntiqi baxımından nəinki insanlar, hətta bütün dünya varlıqları belə öz yaradılışlarında Allaha möhtac olduqları kimi özlərinin təsir gücündə belə Ona ehtiyaclıdır:

يَا اَيُّهَا النَّاسُ اَنتُمُ الْفُقَرَاءُ اِلَي اللَّهِ وَاللَّهُ هُوَ الْغَنِيُّ الْحَمِيدُ

"Ey insanlar, siz Allaha ehtiyaclısınız və yalnız Allah ehtiyacsız, bəyənilmiş və tərifə layiqdir."[1]

Başqa bir ayədə bütün qələbələrin aləmlərin Rəbbinə məxsus olduğunu bildirir və buyurur:

وَمَا النَّصْرُ اِلاَّ مِنْ عِندِ اللّهِ الْعَزِيزِ الْحَكِيم

"Nüsrət və kömək yalnız əziz və həkim Allah tərəfindəndir."[2]

İslamın bu danılmaz prinsipi əsasında biz müsəlmanlar bütün namazlarda aşağıdakı şərif ayəni dəfələrlə təkrar edirik:

اِيَّاكَ نَعْبُدُ وَ اِيَّاكَ نَسْتَعِينُ

"(Pərvərdigara!) Yalnız Sənə pərəstiş edir və yalnız Səndən kömək istəyirik."[3]

İndi yuxarıdakı sualın cavabının aydınlaşması üçün deyirik: Allahdan başqasından kömək istəmək iki cür təsəvvür olunur:

1-İnsandan, yaxud hər hansı bir varlıqdan elə kömək istəyək ki, onu varlığında, yaxud öz əməllərində müstəqil, kömək çatdırmaqda Allahdan ehtiyacsız hesab edək. Şübhəsiz, Allahdan başqasından bu cür kömək istəmək sırf şəkildə şirkdir ki, Qurani-Kərimin aşağıdakı ayəsində onun əsassız olduğu bəyan edilir:

قُلْ مَنْ ذَا الَّذِي يَعْصِمُكُمْ مِنَ اللَّهِ اِنْ اَرَادَ بِكُمْ سُوءًا اَوْ اَرَادَ بِكُمْ رَحْمَةً وَلَا يَجِدُونَ لَهُم مِّن دُونِ اللَّهِ وَلِيًّا وَلَا نَصِيرًا

"De: Əgər Allah sizin barənizdə əzab iradə etsə sizi ondan amanda saxlayan kimdir?! Yaxud əgər rəhmət iradə etsə (onun qarşısını kim ala bilər?!) Və onlar özləri üçün heç bir dost və

---

[1] "Fatir" surəsi, ayə:15

[2] "Ali İmran" surəsi, ayə:126

[3] "Həmd" surəsi, ayə:5

köməkçi tapmazlar.”[1]

2-Digəri isə bundan ibarətdir ki, başqa insandan kömək istəyərkən onun Allahın yaratdığı bilək, Ona ehtiyaclı hesab edək və onun özündən heç bir müstəqilliyi olmadığını, onun təsir qoymasının da yalnız böyük Allahın tərəfindən, Onun icazəsi ilə olduğunu, bəndələrinin bəzi çətinliklərini həll etmək üçün bu təsiri ona verdiyini bilək.

Bu təfəkkürə əsasən kömək istənilən şey vasitə hökmündədir, belə ki, böyük Allah onun bəzi ehtiyaclarının təmin olunmasında bir vəsilə qərar vermişdir. Bu cür kömək istəmək həqiqətdə Allahdan kömək istəməkdir, çünki yalnız Allah bu vasitələrə və səbəblərə varlıq bağışlamış, başqalarının ehtiyaclarını təmin etməkdə təsir və qüvvəni O vermişdir. Ümumiyyətlə bütün insanların həyatı bu səbəb-nəticə qanunu əsasında qurulmuşdur. Belə ki, insan başqalarından kömək almadan yaşamaq istəsə, həyatında çox çətinliklərlə üzləşər. Burada da onlara, Allahın köməyinin gerçəkləşməsində sadəcə bir amil və vasitə olmaları, öz varlıqlarının əslinin Allahdan olması, eləcə də onların təsir qoymasının Allah tərəfindən olması nəzəri ilə baxsaq, bu cür köməyin tövhid və yeganəpərəstliklə heç bir ziddiyyəti yoxdur.

Əgər Allahı tanıyan tövhidçi bir əkinçi torpaq, su, hava, günəş və s. kimi amillərdən istifadə edib kömək alırsa və taxılı cücərdib məhsul əldə edə bilirsə həqiqətdə Allahdan kömək istəyir, çünki o bilir ki, bu kimi səbəb və vasitələrə qüvvə və istedad verən məhz Allahdır. Aydındır ki, bu cür kömək istəmək tövhid və yeganəpərəstlik ruhu ilə tamamilə uyğundur, hətta Quran bu kimi kömək istəməyi bizə fərman verərək buyurur:

وَاسْتَعِينُوا بِالصَّبْرِ وَ الصَّلَوةِ

“Səbr və namazla kömək istəyin.”[2]

Aydındır ki, səbr və müqavimət bəşərin işidir və bizə də

---

[1] “Əhzab” surəsi, ayə:17

[2] “Maidə” surəsi, ayə:45

onlardan kömək almaq əmr olunub. Eyni halda belə bir kömək istəmək "iyyakə nəbudu və iyyakə nəstəin" ayəsindəki həsr ilə (yəni yalnız Allahdan kömək istəməklə) zidd deyildir.

## BAŞQALARINI ÇAĞIRMAQ ONLARA PƏRƏSTİŞİ GƏRƏKLİ EDİRMİ VƏ ŞİRKDİRMİ?

Bu sualın mənşəyi bəzi Quran ayələrinin zahiri mənalarıdır. Belə ki, onlar zahiri baxımdan Allahdan başqasını çağırmağı qadağan edir:

وَاَنَّ الْمَسَاجِدَ لِلَّهِ فَلَا تَدْعُوا مَعَ اللَّهِ اَحَدًا

"Məscidlər Allaha məxsusdur, belə isə Allahla birgə bir kəsi çağırmayın."[1]

وَلاَ تَدْعُ مِنْ دُونِ اللّهِ مَا لاَ يَنْفَعُكَ وَلاَ يَضُرُّكَ

"Allahdan başqa, sənə nə xeyir verən, nə də zərər verən heç kəsi çağırma."[2]

Bəziləri bu ayələri əsas tutaraq Allah övliyalarını və salehləri onların vəfatından sonra çağırmağı şirk və onlara ibadət hesab edirlər.

Cavab: Bu sualın cavabı aydın olsun deyə, yaxşı olar ki, "dua" və "ibadət" kəlmələrinin mənalarını bir qədər izah edək.

"Dua" ərəb dilində "nida etmək", "çağırmaq", "ibadət" isə "pərəstiş etmək" mənasını ifadə edir və bu iki kəlməni heç vaxt birbiri ilə eyni mənalı (sinonim) hesab etmək olmaz. Yəni heç vaxt demək olmaz ki, hər bir nida ibadətdir, çünki:

1-Quranda dəvət kəlməsi elə yerlərdə işlədilmişdir ki, onun ibadət olduğunu heç vaxt iddia etmək olmaz:

قَالَ رَبِّ اِنِّي دَعَوْتُ قَوْمِي لَيْلًا وَنَهَارًا

"Nuh dedi: Pərvərdigara, mən gecə-gündüz öz qövmümü Sənə tərəf dəvət etdim."[3]

---

[1] "Cin" surəsi, ayə:18

[2] "Yunis" surəsi, ayə:106

[3] "Nuh" surəsi, ayə:5

Məgər Nuhun məqsədinin “gecə-gündüz öz qövmünə ibadət etməsini” demək olarmı?!

Deməli, heç vaxt iddia etmək olmaz ki, dəvət və ibadət bir-birilə sinonimdir və əgər bir şəxs Peyğəmbərdən (s), yaxud saleh bir insandan kömək istəyib onu çağırırsa, ona ibadət etmişdir çünki dəvət və nida pərəstişdən daha ümumi məna ifadə edir.

2-Bu ayələrin məcmusunda dua dedikdə məqsəd ümumi şəkildə olan çağırmaq deyil, əksinə xüsusi şəkildə nida etməkdir ki, bu da pərəstişi gərəkli edə bilər. Çünki bu ayələrin məcmusu öz bütlərini kiçik məbudlar hesab edən bütpərəstlər barəsində nazil olmuşdur. Şübhəsiz, bütpərəstlərin öz bütləri qarşısında xüzu etmələri, onları çağırıb onlardan kömək istəmələri bu məqsədlə baş verirdi ki, onları şəfaət, məğfirət və s. kimi Allaha məxsus olan haqların malikləri, dünya və axirət işləri ilə əlaqədar məsələlərdə birbaşa rol oynayan hesab edirdilər. Aydındır ki, bu kimi şəraitlərdə hər növ dəvət və çağırmaq bu varlıqlara ibadət və pərəstiş hesab olunur. Bu müddəanın ən aydın dəlili budur ki, onlar bu kimi varlıqları, onların ilahiləşdirilməsinə etiqadla yanaşı çağırırdılar:

فَمَا اَغْنَتْ عَنْهُمْ آلِهَتُهُمُ الَّتِي يَدْعُونَ مِنْ دُونِ اللّهِ مِنْ شَيْءٍ

“Allahdan başqa çağırdıqdarı (pərəstiş etdikləri) məbudlar onları ehtiyacsız etmədi.”[1]

Deməli, sözü gedən ayələrin bizim bəhsimizlə heç bir əlaqəsi yoxdur. Bizim bəhsimiz bir bəndənin digər bir bəndədən kömək istəməsidir, halbuki nə onu rəbb və məbud hesab edir, nə də dünya və axirət ilə əlaqədar olan işlərdə özünün maliki və tam ixtiyar sahibi. Sadəcə olaraq onu Allahın əziz və hörmətli bəndəsi hesab edir Allah onu risalət və imamət məqamına seçmiş və vədə vermişdir ki, onun bəndələr barəsindəki duasını qəbul edəcəkdir:

وَلَوْ اَنَّهُمْ اِذْظَلَمُوا اَنفُسَهُمْ جَآؤُوكَ فَاسْتَغْفَرُوا اللّهَ وَاسْتَغْفَرَ لَهُمُ الرَّسُولُ لَوَجَدُوا اللّهَ تَوَّابًا رَّحِيمًا

[1] “Hud” surəsi, ayə:11

“(Ya Peyğəmbər,) əgər onlar özlərinə zülm etdikləri zaman sənin yanına gəlib Allahdan bağışlanmaq istəsələr və Peyğəmbər də onlar üçün bağışlanmaq istəsə, şübhəsiz, Allahın tövbələri qəbul edən və mehriban olduğunu görərlər.”[1]

3-Qeyd olunan ayələr aşkar şəkildə göstərir ki, “dəvət” dedikdə məqsəd hər hansı bir iş və hacət barəsində mütləq və qeydsiz istək deyil, əksinə pərəstiş yönə malik olan dəvətdir. Bu cəhətdən də aşağıdakı ayədə dəvət sözündən sonra dərhal həmin mənaya olan ibadət kəlməsi gətirilir:

وَقَالَ رَبُّكُمُ ادْعُونِي اَسْتَجِبْ لَكُمْ اِنَّ الَّذِينَ يَسْتَكْبِرُونَ عَنْ عِبَادَتِي سَيَدْخُلُونَ جَهَنَّمَ دَاخِرِينَ

“Və sizin Pərvərdigarınız buyurur: Məni çağırın (dəvət edin) ki, sizin istəklərinizi yerinə yetirim. Həqiqətən Mənə ibadətdən üz döndərib inadkarlıq edənlər tezliklə zillət və xarlıqla cəhənnəmə varid olarlar.”[2]

Göründüyü kimi ayənin əvvəlində “uduni” kəlməsi, axırında isə “ibadəti” kəlməsi işlədilmişdir. Bu da göstərir ki, burada dəvət kəlməsindən məqsəd ilahi sifətlərlə tanınan varlıqlar müqabilində xüsusi kömək istəməkdir.

**NƏTİCƏ**

Qeyd olunan üç məqəddimədən belə nəticə alınır ki, bu ayələrdə Quranın əsas hədəfi bütpərəst qrupların dəvətini qadağan etməkdir, çünki onlar bütləri Allaha şərik qərar verir, onları şəfaətin malikləri və tədbirçiləri hesab edirdilər. Onların qarşısında məhz buna görə xüzu edir, zəlillik göstərir, nalə edib kömək, şəfaət və hacət istəyirdilər ki, onları kiçik məbudlar hesab edir, ilahi işləri yerinə yetirməyi öhdələrinə aldıqlarına etiqad bsləyirdilər. Quranın buyurduğu:

وَاَنَّ الْمَسَاجِدَ لِلَّهِ فَلَا تَدْعُوا مَعَ اللَّهِ اَحَدًا

“Həqiqətən məscidlər Allaha məxsusdur, belə isə Allahla yanaşı heç kəsi çağırmayın.” (“Cinn” surəsi, 18) ayəsində məqsəd

---

[1] “Nisa” surəsi, ayə:64

[2] “Ğafir” surəsi, ayə:60

cahiliyyət dövründəki ərəblərin pərəstiş etdikləri bütlər, yaxud göy cisimləri, mələk və cinlərdir. Bu və bu kimi sair ayələr məbud hesab edilən şəxs və ya şeyləri çağırmağı qadağan edir. Şübhəsiz, bu kimi varlıqları çağırmaq bu etiqadla yanaşı olarsa, onlara pərəstiş etmək sayılır. Lakin görəsən, bu ayələrin bir şəxsdən dua etməsini istəməklə nə kimi əlaqəsi ola bilər, halbuki kömək istəyən şəxs onun üçün heç bir ilahi-rübubi məqam olmasına inanmır, əksinə onu Allahın bəyənilən və sevimli bəndəsi hesab edir?!

Burada deyilə bilər ki, Allahın layiqli bəndələrini çağırmaq yalnız onların sağlığında caizdir, vəfatlarından sonra isə bu iş şirk sayılır. Cavabda deməliyik:

1-Biz Quranın aşkar buyurduğuna görə həmişə diri olan və şəhidlərdən daha yüksək bir məqamda bərzəx həyatını davam etdirən imam və peyğəmbərlər kimi saleh şəxsiyyətlərin ruhundan kömək istəyirik, onların torpaq altında yatan bədənlərindən yox. Bizim onların qəbirləri kənarında dayanaraq bir şey istəməyimizin səbəbi budur ki, bu halət bizimlə onların müqəddəs ruhları arasında daha möhkəm əlaqə yaradır. Bundan əlavə bir çox ayə və rəvayətlərə əsasən bu kimi yerlər duaların qəbul olunma yeridir.

2-Onların diri və ya ölü olması tovhidin meyarı ola bilməz, halbuki bizim sözümüz bu duaların faydalı olub-olmamasında deyil, şirk və tövhidin meyarındadır. Əlbəttə, bu məsələ barəsində də (onlardan kömək istəməyin faydalı olub-olmaması) öz yerində bəyan olunmuşdur.

## ƏHLİ-BEYT ƏLEYHİSSƏLAMA ƏZADARLIQ

Bu şübhəni aradan qaldırmaq üçün bir neçə məsələyə diqqət yetirməliyik.

**PEYĞƏMBƏRİN (s) DÖVRÜNDƏ ƏZADARLIĞA MÜNASİBƏT**

Əvvəla heç bir tarixi və İslam mənbələrində mərsiyə demək və ölülərə ağlamaq qadağan olunmayıb, lakin bunun əksi olub. Bundan əlavə İslam Peyğəmbərinin (s) dövründə müsəlmanlar öz ölülərinə həmişə ağlamış və mərsiyələr qoşmuşlar. Amma heç vaxt eşidilməyib ki, Peyğəmbər (s) bu işin qarşısını alsın.

İslam Peyğəmbəri (s) özü dünyadan köçdükdə Həzrətin ən yaxın əshabları ona mərsiyə deyib ağlayırdılar. O cümlədən, Fatimeyi-Zəhra (s.ə) atasının vəfatından sonra çox qəm-qüssə çəkib ağlayırmış. Həzrət Əli (ə) vəfat etdikdən sonra İmam Həsən (ə) ağlamış və xütbə oxuyaraq atasını tərifləmişdir. İmam Zeynəlabidin (ə) də atasının qəbri üstündə çox vaxtlar oxşama deyib ağlayırmış.

Tarix səhifələrində dəfələrlə qarşıya çıxıb ki, bəşəriyyəti səadətə dəvət edən Allahın elçiləri və xüsusi ilə həzrət Məhəmməd (s) ağlamış, həmçinin, ağlamağa icazə vermişdir. İndi də qısa şəkildə tarixə nəzər salaq.

1. Qurani-Məciddə həzrət Yəqubun ağlamaqdan gözlərinin tutulmasına işarə olunur[1].

2. Əhməd Hənbəli öz "Müsnəd"ində (1-ci cilddə, səhifə 58-də) Əli əleyhissəlamın dilindən Peyğəmbərin (s) İmam Hüseynnin (ə) faciəli şəhadətinin Cəbrail vasitəsilə xəbərindən sonra o Həzrətin şiddətlə ağlamasını nəql edir.

3. Peyğəmbər (s) zövcəsi Xədicə və əmisi Əbu Talibin dünyadan köçən ilini "qəm ili" adlandırmış və onların əzasına ağlamışdır. Ənəs ibni Malik nəql edir ki, döyüşlərin birində Quran qariləri şəhadətə yetirlər. İslam Peyğəmbəri (s) bu hadisədə ağlamış və bir aya yaxın qəmli şəkildə gəzmişdir[2].

---

[1] "Yusif" surəsi, 84-cü ayə.

[2] "Səhihi Buxari", babe müsibət.

**İMAM HÜSEYNƏ (Ə) ƏZADARLIĞIN FƏLSƏFƏSİ**

*1.* Əhli-beytə, o cümlədən İmam Hüseynə (ə) təşkil olunan məclislər dini konfransı kimi bir şeydir. Bu məclislərdə yalnız İslam prinsiplərindən, Peyğəmbər (s) və onun Əhli-beyti (ə) barəsində söhbətlər olunur və İslamın qanunları bəyan olunur.

*2.* Əhli-beytə (ə) ağlaşma məclislərinin keçirilməsi İslam dininə dəvət etməyin ən yaxşı yoludur və qəflətdə olan müsəlmanları oyatmaq üçün ən güclü vasitədir. Bu məclislər qəlblərə dərin təsir qoyur və insanı haqqa səsləyir.

*3.* Belə məclislər vasitəsilə İslam maarifi yayılır və qəlblər şəfa tapır. Bu məclislərdə Əhli-beytə Allah tərəfindən verilən xüsusi elmləri müsəlmanlara tanıtdırılır. Heç bir təbliğat vasitəsi müsəlmanları bu məclislərdə olan kimi bir yerə yığa bilməz. Uşaqdan tutmuş ağsaqqallara qədər diqqətlə belə məclislərdə iştirak edirlər. Bu da İslam dininin təbliğ olunmasına şərait yaradır.

*4.* Belə məclislərdə haqq yolunda necə şəhadətə yetmək təlim olunur və zülmkarlığa qarşı mübarizəyə qüvvət verilir.

*5.* Müsəlmanlar Əhli-beytin çəkdiyi müsibətləri gördükdə və eşitdikdə öz müşküllərini və müsibətlərini unudur, bir növ təskinlik tapırlar.

*6.* Nəhayət, bu yolda sərf olunan xərclər müsəlman fəqir-füqəralarına, o cümlədən məscidlərin tikilməsinə və başqa xeyriyyə işlərinə sərf olunur. Bütün bunların hamısının qayıdışı İslam dininə xidmət, onu yaymaq və Allahın razılığını ələ gətirməkdir.

## TORPAĞA SƏCDƏ

Vəhhabilər şiələrə torpağa səcdə etmələrinə görə irad tutur və bunun şirk olduğunu iddia edirlər.

*Cavab:* Hər şeydən əvvəl onu qeyd etmək lazımdır ki, vəhhabilərin təbliğatlarının mənfi cəhətlərindən biri də budur ki,

məsələ üzərində dərindən düşünmədən əsassız olaraq müsəlmanları kafir və ya müşrik kimi qələmə verirlər. Bu da müqəddəs İslam qayda-qanunları ilə heç də uyğun deyildir. İndi də əsl məsələyə qayıdaq. Əvvəlcə Allaha səcdənin tərifini düzgün vermək lazımdır. Sonra isə şübhəyə cavab verilməlidir.

İslam dinində "Allaha səcdə" - yəni, insanın aşkar şəkildə özünü Allah dərgahında təvazö halına gətirməsi və bədəninin ən şərəfli qismətini, yəni alnını Allah qarşısında yerə qoymasıdır. Bu da insanın Allah dərgahında bəndəliyinin ən son dərəcəsi sayılır. Ona görə də Qurani-Məcid təkcə insanın yox, hətta bütün mövcudatın Allaha səcdə etdiyini bildirir.

*Göylərdə və yerdə nə varsa hamısı Allaha səcdə edir*[1].

İslam Peyğəmbərinin (s) adəti və rəftarı bütün müsəlmanlar üçün hüccətdir. Qurani-Kərim buyurur:

*Həqiqətən, Allahın rəsulu Allaha, qiyamət gününə ümid bəsləyənlər və Allahı çox zikr edənlər üçün gözəl nümunədir*[2].

Əhli-beyt (ə) məktəbinin tərəfdarları İslam Peyğəmbəriinin (s) adətinə və rəftarına əsasən, yalnız torpağa və torpaqda bitənlərə (yeyilən və geyilən şeylərə yox) səcdə etməyi rəva bilirlər. Torpağa səcdə etmək Allah dərgahında insanın bəndəliyinin ən aşkar nümunəsidir. Bəziləri nədənsə torpağa səcdəni Allaha şirk bilirlər. Onların cavabında deyilməlidir ki, "Allahdan ötrü səcdə etmək" ifadəsi ilə "torpağa səcdə etmək" ifadəsi arasında aşkarcasına fərq vardır. Belə nəzərə gəlir ki, torpağa səcdəni şirk hesab edənlər bu iki mənanın fərqinə baxmırlar.

O da məlumdur ki, bütün müsəlmanlar namaz vaxtı hər hansı bir şeyə səcdə edirlər. Yəni alınlarını nəyinsə üstünə qoyurlar. Lakin əsas məqsəd olduğu kimi yalnız Allahdan ötrü səcdə etməkdir. Kəbədə və Mədinədə bütün zəvvarlar alınlarını Məscidülhəramın daşlarının üstünə qoyurlar. Lakin onların hədəfi

---

[1] "Rə'd" surəsi, 15-ci ayə.

[2] "Əhzab" surəsi, 21-ci ayə.

yalnız Allahdan ötrü səcdə etməkdir və bu işin şirklə heç bir əlaqəsi yoxdur. Bəs belə nəticə alırıq ki, torpağa, bitkiyə və başqa şeylərə səcdə etmək heç də həmin şeyə ibadət etmək sayılmır. İndi də qısa olaraq torpağa və yerdən bitib insanların yeməyi və geyimi olmayan şeylərə səcdə etməyin dəlillərinə nəzər salaq[1].

*1.* İslam Peyğəmbəri (s) öz adəti ilə və namaz qılması ilə nişan vermişdir ki, torpağa səcdə etmək lazımdır. Əhli-sünnət kitablarında Peyğəmbərdən (s) belə bir hədis nəql olunur:

*Torpaq mənim üçün səcdə yeri və pakizə qərar verilmişdir[2].*

*2.* Peyğəmbər (s) torpağa səcdə etməyi (sünni mənbələrində) əmr buyurmuşdur. Ümmü Sələmə Peyğəmbərdən (s) belə nəql edir: Peyğəmbər (s) buyururdu:

*"Allahdan ötrü alnını torpağa qoy[3]".*

*3.* Yenə də əhli təsənnün mənbələrində oxuyuruq: Əhməd ibni Şüeyb Nəsai Peyğəmbərin (s) səhabəsi olan Əbu Səid Xidridən belə nəql edir: "İki gözlərimlə torpağın izini (əsərini) Peyğəmbərin (s) alnında və burnunda (namazdan sonra) müşahidə etdim[4]".

*4.* Peyğəmbərin (s) səhabələri alınlarını səcdə zamanı torpağa (türbət) qoyurdular[5].

Bütün bu dediklərimiz əhli sünnət mənbələrində aşkar şəkildə qeyd olunmuşdur. Bizim əsas dəlilimiz İslam Peyğəmbərinin (s) və məsum İmamların (ə) torpağa səcdə etmələridir. Onu da qeyd edək ki, İmam Hüseyn (ə) türbətinə səcdə etməyin daha çox savabı vardır. Bu da ona görədir ki, Allahın sevimli bəndəsi və Peyğəmbərin (s) əziz övladıdır. Onlara hörmət göstərmək əvvəlki

---

[1] Qurani-Məciddə aydın və dəqiq şəkildə hansı şeyə səcdə etmək, yəni səcdə vaxtı alnı nəyin üstünə qoymaq dəqiq bəyan olunmayıb. Ona görə də bu məsələ Peyğəmbərin (s) və Əhli-beyt əleyhimussəlamın göstərişi əsasında olmalıdır.

[2] "Kənzül-ümmal", c. 7, səh. 465; "Əl-Müsənnif", c. 1, səh. 392 və "İrşadus-Sari", c. 1, səh. 405.

[3] "Səhihi Buxari", c. 1, səh. 91; "Sünəni Beyhəqi", c. 1, səh. 212; "Səhihi Müslim", c. 1, səh. 371; "Sünəni Nəsai", c. 1, səh. 210 və "Sünəni Tirmizi", c. 2, səh. 131.

[4] "Sünəni Nəsai", c. 2, səh. 208; "Səhihi Buxari", "Sünəni Beyhəqi" və "Sünəni Əbi Davud".

[5] "Əs-Sünənül-Kübra", c. 2, səh. 105; "Müstədrəki Hakim", c. 1, səh. 270; "Sünəni Beyhəqi", c. 2, səh. 103.

bəhslərdə qeyd etdiyimiz kimi Allahın nişanələrinə hörmət əlamətidir.

## "İTRƏTİ" DÜZGÜNDÜR, YOXSA "SÜNNƏTİ"?

İslam aləmində çox məhşur olan "Səqəleyn" hədisini nəql edənlər bunu iki cür rəvayət etmişlər. Onların hansının daha səhih olduğunu araşdırırıq.

a) "Kitabəllahi və itrəti Əhlə-beyti"

b) "Kitabəllahi və sünnəti".

Cavab: Peyğəmbəri Əkrəmdən (s) nəql olunan səhih və sabit hədis məhz "Əhlə-beyti" kəlməsi olan hədisdir. "Əhlə-beyti" kəlməsinin yerinə "sünnəti" deyə qeyd olunan rəvayət sənəd baxımından batil və rədd olunur, amma Əhli-beyti hədisi möhkəm sənədə malikdir.

*"Və Əhlə-beyti" hədisinin sənədi*

Bu mətni iki böyük şəxsiyyətli mühəddis (hədis nəql edən şəxs) nəql etmişdir. Müslim özünün "Səhih" kitabında Zeyd ibn Ərqəmdən nəql edir ki, Peyğəmbəri Əkrəm (s) bir gün Məkkə-Mədinə arasında yerləşən "Xum" adlı bir suyun kənarında xütbə söylədi, Allaha həmd-səna etdikdən sonra camaata nəsihət edərək buyurdu:

اَلاَ اَيُّهَا النَّاسُ،فَاِنَّمَا اَنَا بَشَرٌ يُوشِكُ اَنْ يَاْتِيَ رَسُولُ رَبِّي فَاُجِيبَ،وَ اَنَا تَارِكٌ فِيكُمْ ثَقَلَيْنِ اَوَّلُهُمَا كِتَابُ اللّهِ، فِيهِ الْهُدَي وَ النُّورُ فَخُذُوا بِكِتَابِ اللّهِ وَاسْتَمْسِكُوا بِهِ - فَحَثَّ عَلَيَ كِتَابِ اللّهِ وَ رَغَّبَ فِيهِ ثُمَّ قَالَ وَ اَهْلُ بَيْتِي، اُذَكِّرُكُمُ اللّهَ فِي اَهْلِ بَيْتِي،اُذَكِّرُكُمُ اللّهَ فِي اَهْلِ بَيْتِي،اُذَكِّرُكُمُ اللّهَ فِي اَهْلِ بَيْتِي

"Ey insanlar! Mən də sizin kimi bir bəşərəm. Pərvərdigarımın elçisinin (Əzrailin) gəlişi yaxındır, mən də onun dəvətini qəbul edəcəyəm. Mən sizin aranızda iki ağır əmanət qoyub gedirəm: Biri Allahın kitabıdır ki, onda hidayət və nur var. Allahın kitabından bərk-bərk yapışın və ona sarılın. (Peyğəmbəri-Əkrəm (s.ə.v.v) Allahın kitabına əməl etməyi təkid etdikdən sonra buyurdu:) Və (ikincisi) mənim Əhli-beytimdir. Əhli-beytim barəsində Allahı sizə xatırladıram. Əhli-beytim barəsində Allahı

sizə xatırladıram. Əhli-beytim barəsində Allahı sizə xatırladıram."[1]

Bu mətni Darəmi də özünün "Sünən" kitabında[2] qeyd etmişdir, hər iki hədisin sənədi gün kimi aydındır və onda azacıq irada yol yoxdur.

2-Tirmizi bu mətni "və itrəti Əhlə-beyti" kəlməsi ilə nəql etmişdir. Onun mətni belədir:

اِنِّي تَارِكٌ فِيكُمْ مَا اِنْ تَمَسَّكْتُمْ بِهِ لَنْ تَضِلُّوا بَعْدِي،اَحَدُهُمَا اَعْظَمُ مِنَ الآخَرِ كِتَابَ اللّهِ حَبْلٌ مَمْدُودٌ مِنَ السَّمَاءِ اِلَي الآرْضِ وَ عِتْرَتِي اَهْلَ بَيْتِي، لَنْ يَفْتَرِقَا حَتّي يَرِدَا عَلَيَّ الْحَوْضَ فَانْظُرُوا كَيْفَ تَخْلُفُونِي فِيهَا.

"Mən sizin aranızda iki əmanət qoyuram. Onlara sarılıncaya qədər heç vaxt yolunuzu azmazsınız. Bunlardan biri digərindən daha böyükdür: Allahın kitabı asimandan yerə doğru çəkilmiş rəhmət ipidir, digəri isə mənim itrətim – Əhli-beytimdir. Onlar hovuzun kənarında mənə gəlib çatana qədər bir-birindən ayrılmazlar. Baxın görün, mənim əmanətlərimlə necə rəftar edəcəksiniz!"[3]

"Sihah" və "Sünən" müəlliflərindən olan Müslim və Tirmizi hər ikisi "Əhlə-beyti" kəlməsinə təkid etmişlər, bu da bizim nəzəriyyəmizin sübuta yetməsində kifayətdir. Hər ikisinin də sənədi son dərəcə mötəbər və xüsusi etibar dərəcəsinə malikdir.

---

[1] "Səhihi-Müslim", 4-cü cild, səh.1803, 2408 nömrə (Əbdül-Baqi çapı.)

[2] 2-ci cild, səh.431-432

[3] "Sünəni Tirmizi", 5-ci cild, səh.663, 37788-ci nömrə

## İMAMLAR KİMLƏRDİR?

Peyğəmbəri Əkrəm (s) öz sağlığında açıq-aşkar şəkildə buyurmuşdur ki, ondan sonra on iki nəfər xilafətə çatacaqdır ki, hamısı Qüreyşdəndir və İslamın izzət və başucalığı onların xilafəti sayəsində olacaqdır. Cabir ibni Səmrət deyir:

سَمِعْتُ رَسُولَ اللّهِ يَقُولُ لَا يَزَالُ الآِسْلَامُ عَزِيزًا اِلَي اِثْنَي عَشَرَ خَلِيفَةً ثُمَّ قَالَ كَلِمَةً لَمْ اَسْمَعْهَا فَقُلْتُ لِاَبِي مَا قَال فَقَالَ كُلُّهُمْ مِنْ قُرَيْشٍ

"Peyğəmbərin (s) belə buyurduğunu eşitdim: "İslam on iki xəlifə və rəhbər vasitəsilə əziz olacaqdır." Sonra bir söz dedi, eşidə bilmədim. Atamdan nə dediyini soruşduqda cavab verdi ki, "hamısı Qüreyşdəndir."[1]

Tarixdə İslamın izzət və başıucalığının keşikçisi olan on iki xəlifə müsəlmanların inandığı on iki imamdan qeyrisi ola bilməz. Çünki Peyğəmbərin (s) təqdim etdiyi on iki xəlifə o həzrətin vəfatından bilavasitə sonra onun xəlifələri ünvanı ilə təqdim edilmişdir.

İndi bu on iki nəfərin kim olduğunu araşdırırıq. Sünnülərin istilahında "Raşidin xəlifələri" adlandırılan dörd xəlifədən keçəndə digər xəlifələr İslamın izzətli olmasına səbəb olmamışlar. Əməvi və abbasi xəlifələrinin həyat tarixi bu müddəaya şahidlik edir. Amma hər biri öz əsrində təqva və pərhizkarlıq simvolu olan on iki imam Peyğəmbər (s) sünnəsinin keşikçiləri kimi səhabənin, tabeinlərin və onlardan sonrakı nəsillərin diqqət mərkəzində olmuşlar. Tarixçilər onların elmli və etimadlı olmalarına şəhadət vermişlər. Onlar aşağıdakılardan ibarətdir:

1-Əliyyibni Əbi Talib (ə) 2-Həsən ibni Əli (Müctəba) (ə) 3-Hüseyn ibni Əli (ə) 4-Əliyyibni Hüseyn (Zeynul Abidin) (ə) 5-Muhəmməd ibni Əli (Baqir) (ə) 6-Cəfər ibni Muhəmməd (Sadiq) (ə) 7-Musa ibni Cəfər (Kazim) (ə) 8-Əli ibni Musa (Riza) (ə) 9-Muhəmməd ibni Əli (Təqi) (ə) 10-Əli ibni Muhəmməd (Nəqi) (ə) 11-Həsən ibni Əli (Əskəri) (ə) 12-İmam Məhdi (Qaim) (ə)

---

[1] "Səhihi Müslim", 6-cı cild, səh.2, Misir çapı.

(Peyğəmbərdən (s) mütəvatir şəkildə nəql olunan rəvayətlərdə o, "vədəsi verilmiş Məhdi" ünvanı ilə qeyd olunur.)

## NƏ ÜÇÜN PEYĞƏMBƏRƏ (S) SALAVAT GÖNDƏRƏRKƏN O HƏZRƏTİN AİLƏSİNİ DƏ ONA BAĞLAYARAQ "ALLAHUMMƏ SƏLLİ ƏLA MUHƏMMƏDİN VƏ ALİ MUHƏMMƏD" DEYİLİR?

Şübhəsiz, Peyğəmbər (s) özü ona salavat göndərməyi müsəlmanlara öyrətmişdir: "Əhzab" surəsinin 56-cı ayəsi nazil olanda

اِنَّ اللّهَ وَمَلَائِكَتَهُ يُصَلُّونَ عَلَي النَّبِيِّ يَا اَيُّهَا الَّذِينَ آمَنُوا صَلُّوا عَلَيْهِ وَسَلِّمُوا تَسْلِيمًا

müsəlmanlar "Ya Rəsuləllah, sənə necə salavat göndərək?"- deyə soruşduqda Peyğəmbər (s) buyurdu: لَا تُصَلُّوا عَلَيَّ صَلَوةً بَتْرَاءَ

"Mənə yarımçıq salavat göndərməyin!" Yenidən "necə salavat göndərək?" - dedikdə Peyğəmbər buyurdu:

اَللَّهُمَّ صَلِّ عَلَي مُحَمَّدٍ وَ عَلَي آلِ مُحَمَّدٍ

"Allahummə səlli əla Muhəmmədin və Ali Muhəmməd."[1]

Peyğəmbər (s) övladlarının məqamı haqqında İmam Şafei özünün məhşur şerində deyir:

*يَا اَهْلَ بَيْتِ رَسُولِ اللّهِ حُبُّكُمُ فَرْضٌ مِنَ اللّهِ فِي الْقُرْآنِ اَنْزَلَهُ*
*كَفَاكُمْ مِنْ عَظِيمِ الْقَدرِ اَنَّكُمُ مَنْ لَمْ يُصَلِّ عَلَيْكُمْ لَا صَلَوةَ لَهُ*

"Ey Peyğəmbər ailəsi! Sizə məhəbbət bəsləmək Allahın nazil etdiyi Quranda bir fərizədir.

Sizin məqam və mənzilətinizin yüksəkliyində bu kifayətdir ki: Hər kəs sizə salavat göndərməsə onun üçün salavat olmaz (namaz olmaz)."[2]

---

[1] "Əssəvaiqul-muqriqə" (ibni Həcər), 2-ci çap, Misrin "Məktəbətul Qahirə" çapxanası, 11-ci bab, 1-ci fəsil, səh.146. Bunun oxşarını Süyuti "Əddurrul-Mənsur", 5-ci cild, "Əhzab" surəsinin 56-cı ayəsinin təfsirində mühəddislərdən, "Sihah" və "Müsnəd" sahiblərindən nəql etmişdir, o cümlədən Əbdur-Rəzzaq, ibni Əbi Şeyx, Əhməd, Buxari, Müslim, Əbu Davud, Tirmizi, Nəsai, ibni Macə, ibni Mərdəvəyh, Kə`b ibni Əcrə, Peyğəmbəri Əkrəm (s.ə.v.v)-dən nəql edir.

[2] "Əs-səvaiqul-muhriqə", 11-ci bab, səh.148, Şəbravinin "İtihaf" kitabının 1-ci fəslinin 29-cu səhifəsindən nəqlən. "Məşariqul-ənvar" (Həmzavi Maliki), səh.88æ "Əl-məvahib", (Zərqani) və "Əs`af" (Səbban), səh.119.

# VƏHHABİLİYİN HƏQİQİ MÜSƏLMANLARA İFTİRA VƏ BÖHTANLARI

Cəfəri məzhəbinə iftiralar yaxmaqla bilərəkdən, ya da bilməyrəkdən İslam ümmətini birləşməyə qoymayanlara xidmət edən bu zəminədə yazılmış bəzi kitabları tanıdırıq. Məqsədmiz həmin iftira sahiblərini ən biabırçı şəkildə ifşa edib camaata tanıtdırmaqdır. Bu iftiraların bəzilərini dərc edirik ki, onların nə dərəcədə yalan və həqiqətdən uzaq olduğu aydın olsun.

1)“Minhacus-sünnətin-nəbəviyyə fi nəqzi kəlamiş-şiətil-qədəriyyə” kitabı, müəllifi Təqiyyuddin Əhməd ibn Əbdulhəlim ibn Teymiyyə Hərrani Dəməşqi (vəfat 727 hicri qəməri)

İbni Teymiyyə kitabın əvvəlində ikinci fəsldə şiələri məsihilərə və yəhudilərə oxşatmaqda israr edib yazır:

“.....,buna görə də şiələr xəbis, nəfslərinə tabe olmaq və s. kimi yəhudilərə məxsus olan əxlaqları özlərində cəm etməklə onlara oxşayırlar. Amma şiələr məsihilərə məxsus olan (xristian) quluv, cəhalət və s. kimi məsihi əxlaqlarına görə onlara oxşayırlar.....”

Bundan sonra ibn Teymiyyə şiə haqqında elə mətləblər nəql edir ki, onunla da şiələri kitab əhli yəhudilərlə, xristianlarla və məcusilərlə bir edib İslam ümmətindən xaric edir.

“.... yəhudilər qiblədən döndükləri kimi şiələr də namazda qiblədən dönürlər”, “...Yəhudilər namazda başlarını və çiyinlərini tərpətdikləri kimi şiələr də onlar kimi edirlər.” (“Minhacus-sünnətin-nəbəviyyə” 1/22)

“...Yəhudilər talaq zamanı qadınlara iddə qail olmadıqları kimi şiələr də iddə saxlamağa qail deyillər”

“....Yəhudilər tövratı təhrif etdikləri kimi şiələr də Quranı təhrif ediblər”

“....Yəhudilər deyirlər ki, Allah bizə 50 rəkət namaz vacib edib şiələr də deyirlər 50 rəkət namaz vacibdir”

“....Yəhudilər möminlərə salamı xülasələşdirib deyirlər “*əssamu ələykum*” (ölüm olsun sizə) şiələr də onlar kimi deyirlər”

"...Yəhudilər bütün camaatın mallarını özlərinə halal bilirlər, şiələr də onlar kimi bütün insanların mallarını özlərinə halal bilirlər"

"....Yəhudilər Cəbraili özlərinə düşmən bildikləri kimi şiələr də deyirlər ki, Cəbrail vəhy gətirəndə səhvən Əli ibn Əbu Talıb əvəzinə Peyğəmbərə vəhyi çatdırıb"

"....Məsihilər arvadlarına məhriyyə (kəbin haqqı) vermirlər. Onlar arvadlarından elə belə istifadə edirlər. Şiələr də o cür edirlər" ("Minhacus-sünnə 1/25-27).

Diqqət: Bu kitab müxtəlif mətbəələrdə çap olunub. Bu məqalədəki sənədlər doktor Muhəmməd Rəşad Salimin təhqiq etdiyi və "cameətul-imam Muhəmməd ibn Suudil-islamiyyə" mətbəəsində nəşr olunmuş 9 cildli kitabdan götürülüb.

Əgər kitab sahibi şayə və movhumatlara uymayıb şiə məzhəbinin elmi və fiqhi kitablarından birini açıb oxusaydı əlbəttə insafı olan halda belə cəfəngiyyatları yazmazdı. Nəticədə bu yazdıqları iftiralarla özünü cəhənnəm əzabına layiq etməzdi. Axı onun zamanında Əllamə Hilli kimi şəxsiyyətlər var idi. Müəllif güya şiənin nəhayət dərəcədə axmaqlığını göstərməyə çalışıb deyə yazıb:

Şiələr "on" kəliməsini dillərinə gətirməkdən ikrah hissi duyurlar. Şiələr on sütun üstündə bina tikmirlər hətta o dərəcədə ki, onlar on hissədən ibarət olan işi görmürlər və s....Çünki şiələr seçilmiş səhabələri sevmirlər. Onların sayının "on" olduğu üçün. Çünki bu səhabələrin cənnət əhli olduqları haqda şəhadət verilmişdi. (Əbu Bəkr, Ömər, Osman, Əli, Təlhə, Zubeyr, Səd ibn Əbu Vəqqas, Səid ibn Zeyd, Əbdurrəhman ibn Ovf, Əbu Ubeydə ibn Cərrah) Şiələr bu səhabələrlə düşməndirlər, onlar yalnız Əli ibn Əbu Talibi sevirlər. Onlar birinci iman gətimiş muhacir və ənsardan olan səhabələrlə düşməndirlər......" ("Minhacus-sünnətin-nəbəviyyə 1/38-39)

Əhli sünnətin arasında belə bir rəvayət məhşurdur ki, Peyğəmbər (s) səhabələrdən 10 nəfərə cənnətə getmələri haqqında

vədə verib. Bu rəvayətin adını "əşrətun mubəşşərətun" adlandırıblar. Təəccüblü budur: İbn Teymiyyənin ağlına yetişməyib ki, elə bir dastan fikirləşsəydi ki, onun əvvəli ilə axırı düz gələydi. Əgər şiələr on nəfərin arasında Əli ibn Əbu Talib ilə düşmən deyillərsə, onda niyə müəllifin iddiasına görə on ədədindən xoşları gəlmir? Onda gərək doqquz ədədi ilə düşmən olsunlar. Axı şiələrin bu rəvayətin qondarma olduğunu sübut etdiklərinə görə onlara cavab kimi siz belə cəfəngiyyat uydurmaqla niyə özünüzü biabır edirsiniz? Doğrudanmı şiələr bütün səhabələrə qarşı düşmən mövqedədirlər? Görəsən Salman, Əbuzər, Miqdad Əmmar, Hicr ibn Ədiy, İbn Əbbas və s. kimi böyük səhabələrin əzəməti haqqında onlar tərəddüd edirlər?

İbni Teymiyyə yazır: Şiələrin axmaq əməllərindən biri də budur, onlar gözlədikləri İmam Məhdi üçün Samerra şəhərindəki sərdabənin yanına at ya qatır gətirirlər ki, əgər O zuhur etsə ona minsin. Hər gün orada bir nəfər iki dəfə fəryad çəkir: "Ey mənim ağam çıx" (Minhacus-sünnətin-nəbəviyyə 1/45)

İbn Teymiyyə daha artıq dərəcədə şiələrin dinsiz və şəriət hökümlərinə etina etmədiklərini göstərmək üçün yazır: "Şiələr dəstəmaz aladıqda bir nəfər daim ayaq üstə hazır şəkildə dayanıb gözləyir. Onlar namaz da qılmırlar. Qorxurlar ki, olmaya imamları zuhur edər və onlar namaz halında olarlar" (Minhacus-sünnətin-nəbəviyyə 1/ 45)

Əhli sünnətin alimi Muhəmməd Kurd Əli yazır: "İmam Məhdinin Surrə mən Rəa sərdabəsindən zuhur edib çıxmasını şiələr arasında heç kim iddia etməyib. Baxmayaraq ki, şiə məzhəbindən xəbəri olmayan bəziləri həqiqəti axtarmadan cəhalət üzündən bunu onlara nisbət verib" (Ədyan və Məzahib: əş-şiə 6/247 Şam mətbəəsi)

Əziz oxucu indi insafla özün hökm et, belə iftiraları yazan normal insandır ya yox? Belə olan halda şiə məzhəbi haqqında tədqiqat aparmadan onun dalıyca kor-korana gedənlərə bizim iftiraçı deməyə haqqımız varmı? Görəsən bu iftiraları

uydurmaqda məqsəd nə imiş? Bunu deyə bilərik ki, məqsəd yalnız və yalnız Muhəmmədin (s) ümməti arasında nifaq yaratmaq olub.

2) "Töhfəye isna əşəriyyə" Müəllif Əbdüləziz ibn Əhməd Dəhləvi. Ləqəbi Siracul Hindi 1159-1239. Kitabın adından göründüyü kimi şiə məzhəbinin əqidələri ətrafında bəhs edir. Biz müəllifin yazdığı iftiraların bəzilərini dərc edirik. Amma onunla hesab aparmağı ədalətinə iman gətirdiyimiz Allah-taalanın öhdəsinə qoyuruq.

"....Şiələrin şəriət hökmlərinin birincisi səhabələri, üç xəlifəni, ummul-möminlərin bir neçəsini və s. təkfir etməkdir (kafir bilmək). İkinci: Ömər ibn Xəttabı lənətləməyi Allahın zikrindən əfzəl bilirlər. Üçüncü: Beş namazdan sonra mühacir və ənsardan olan səhabələri üç xəlifəni və s. lənətləmək vacibdir. Yeddinci: Zalım rəhbərlərə səcdə etmək caizdir. Necə ki, axund Baqir Məclisi və onların başqa alimləri etmişlər.

Şiələr deyirlər əgər bir nəfər əllərini və ayaqlarını dizə qədər ağzına kimi insan nəcisi ilə dolu olan tualetin anbarında bulaşdırsa, sonra da nəcasətin zərrələrini silib yuyunmadan namaz qıla bilər. Həmçinin bütün bədənini sidik və insan nəcisi ilə dolu tualetin anbarında bulaşdırsa, əgər üstündə nəcasətin zərrəcikləri olmasa yuyunmadan namaz qıla bilər.

Şiələr daha çox savab əldə etmək və Allaha yaxın olmaq üçün imamların qəbirlərinə tərəf namaz qılmağı caiz bilirlər.

Şiələrə görə imam Məhdinin zühurunu gözləmək qəsdi ilə dörd namazı (zöhr-əsr və məğrib-işa) birləşdirmək caizdir.

Siələrə görə oğlan uşağı ilə arxadan yaxınlıq olsa oruc batil olmaz. Onların bəziləri deyirlər ki, heyvanın dərisini yeməklə oruc batil olmaz.

Müəllif kitabın 11-cü babında guya şiələrin təəssübü haqqında belə yazır: "Şiələr axırıncı Peyğəmbəri Əli ibn Əbu Talib ilə bərabər bilirlər. Bir halda ki, Peyğəmbərin bütün məxluqatdan əfzəl olması onların yanında təvatora yetişib. Əgər hər kəsin

qəlbində Əlinin məhəbbəti olsa, yəhudi, məsihi və bütpərəst olsa belə cənnətə daxil olar. Hər kəsin ürəyində səhabələrin məhəbbəti olsa, təqvalı, abid və əhli beytin sevgisi ürəyində olsa belə cəhənnəmə daxil olar. Çünki onlar o qədər səhabələrə düşməndirlər və bütün Muhəmməd ümmətini lənətlənmiş adlandırırlar." (Töhfəye isna əşəriyyə, 11-cu bab ikinci fəsl 253 )

Mümkündür bəziləri elə güman edə ki, bu və ya buna oxşar kitabların müəlliflərinin məqsədləri bütünlüklə şiə məzhəblərinə aid olmayıb. Bəlkə bu cür kitabları yazanların məqsədi şiə məzhəbinə nisbət veirilmiş bəzi firqələr olub? Bəlkə kitab sahibləri bəzi avamların əməllərini görüb bu qənaətə gəliblər ki, bunlar şiə əqidələrinin təzahürüdür?

Cavab: Əvvəla bir dəstə avamın dediklərini və gördüyü işləri bir məzhəbin hesabına yazmaq düzgün deyil. Bir məktəb haqqında kitab yazılanda gərək o məktəbin mötəbər kitablarından istifadə olunsun.

Ikinci: "Töhfəye-isna əşəriyyə" məxsus şiə əqidəsi haqqında yazılmış kitablar silsiləsindən hesab etmək olar.

Üçüncü: "Töhfəye-isna əşəriyyə" kitabının müəllifi yazır: "Hal hazırda on iki imamçı şiələrdən başqa kimsə bu əqidədə deyil" (Töhfəye-isna əşəriyyə, bab 9, əhkam fiqhiyyə səh 249). Necə ola bilər ki, şiələrin özlərinin bütün bunlardan xəbərləri olmadığı halda onlara bir belə nisbətlər verilib? Bir tayfanın aliminin bu cür iftira yaxmasını heç bir vəchlə izah edib ona bəraət qazandırmaq olmaz. Özünü alim sayan şəxs bir tayfanı mötəqid olmadıqları əqidə ilə ittiham edirsə, onda avamdan nə gözləmək olar?

Kimsə gəlib deyə ki, eybi yoxdur, indi o alim qələt edibsə, gərək onu bağışlayaq və üstündən keçək, xeyir bu düzgün mövqe deyil! Həmin iftiraların nəticəsidir ki, onları oxuyanlar şiələri kafir və müşrik kimi qəbul edib onların qətlinin vacib olduğuna hökm edirlər. Əslində isə onlar düşmənlərə istədiklərinə rahat çatmaqda kömək edirlər. Bu gün insanlara çatdırmaq lazımdır ki, belə təfriqə salanlar İslamın ilk günündən Rəsulullahın özünə və gətirdiyi

dininə qarşı mübarizə aparan yəhudilərdir. Onlar heç də o Həzrətdən sonra sakit durmayıblar. Onlar hər bir zamanda mübarizə yollarını daha da təkmilləşdirməklə İslam dininin ardıcılları ilə mübarizəni gücləndirirlər. Məgər Əfqanstanda, Pakistanda, İraqda Livanda vəhhabilərin "tövhidə çağırış" adı altında şiələrə divan tutub gündə bir məscidin və ya bazarın partladılması bunu göstərmirmi? Bu gün biz doğma Azərbaycan və Gürcüstanmızda ayıq olmalıyıq ki, onlar vətənimizdə də həmin ssenarini icra edə bilməsinlər.

3) "Əl-Fiqh ələl-məzahibil-ərbəə". Müəllf Əbdurrəhman ibni Muhəmməd Cəziri (1299-1360 hicri qəməri) əl-Əzhər universitetinin alimlərindəndir. Misirin Şəndvil adasında doğulub. Əl-Əzhər universitetində təhsil alıb. Kulliyyətul-usuliddin mərkəzində ustad vəzifəsində çalışıb. Sonralar "böyük ələmalar" heyətinin üzvlərindən olub. Həlvanda vəfat edib. Çoxlu sayda kitablar, o cümlədən "əl-Fiqh ələl-məzahibil-ərbə" adlı kitabını yazıb.

Müsəlmanlarla əqidədə müxalif olanlar üç dəstədirlər. Birinci dəstə: səmavi kitabları və ya kitab əhli olmalarında ehtimal olmayanlar. Onlar bütlərə sitayiş edənlərdirlər və islam dininin zəruriyyatlarından sayılan məlum bir məsələni inkar edən murtədlər də onların sırasındadırlar. Şiələr kimi. Şiələr mötəqiddirlər ki, Allah-təala Cəbraili Əliyə vəhy çatdırmağa məmur edəndən sonra O səhvən Muhəmmədə (s) vəhyi çatdırdı.

Şiələr inanırlar ki, Əli Qurani-kərimin bəzi ayələrini təkzib edirdi. Əli Aişəyə zina nisbəti verirdi. ("əl-Fiqh ələl-məzahibil-ərbəə" kitabun-nikah "məbhəsul-muhərrəmat lixtilafiddin" 4/75 mətbəə daru ihyaut-turas.)

Təfsir "Ruhul-məani" müəllif Məhmud Şukri ibn Əbdullah Huseyni Alusi (1273- 1373) Bağdadın Rəsafə məntəqəsində doğulub. Evində və bəzi məscidlərdə tədris etməklə məşğul olub....Bəqərə suəsinin 187-ci ayəsini "*sübh açılana kimi, ağ sap qara*

*sapdan seçilənə qədər yeyin için"* təfsir edəndə yazıb: Dörd məzhəbin imamları (Əbu Hənifə, Əhməd ibn Hənbəl, Malik və ibn İdris Şafei) şəri naharın başlandığını fəcrin açılması ilə göstərirlər. Fəcr açılandan sonra iftara icazə verilmir. Bu fətva ilə Əməş müxalifət edib və o güman edib ki, imsak gün çıxandan başlanır. Ona bu məsələdə ancaq korlar tabe olublar. Şiələr bütün məzhəblərə müxalif olaraq orucluqda gün çıxana qədər yeyib içməyi caiz bilirlər. (Ruhul-məani 2/67 mətbəə daru ihyaut-turas)

4) - Təfsirul-Kəbir müəllif Fəxr Razi "Rəd" surəsinin 39-cu ayəsini *"Allah istədiyi şeyi məhv edər, istədiyini də sabit saxlayar. Kitabın əsli (lövhi-məhfuz) Onun yanındadır"* Təfsir edərkən yazır: "Şiələr deyirlər: *"Allah-taalaya bəda caizdir"* Bəda budur ki, əvvəlcə Allah-taala bir şeyi əmr edə və sonra ona məlum ola ki, hökm bunun əksinə olmalıdır. Şiələr bunun üçün bu ayəyə *"Allah istədiyi şeyi məhv edər, istədiyini də sabit saxlayar. Kitabın əsli (lövhi-məhfuz) Onun yanındadır"* istinad edirlər" (Təfsirul-Kəbir 19/66 əl-məsələtul xamis)

Bəda məsələsində özünün savadsız olduğunu göstərmək yalnız vəhhabi alimlərinin birinə məxsus deyildir. Vəhhabilərin çoxlu sayda alimləri ya cahillik, ya da qərəzli mövqedən çıxış edərək şiə məzhəbindən olan kəlam elmi alimlərinin bəda haqqında söylədikləri bəyanatları elə göstəriblər ki, nəticədə Allah-təalanın bəzi məsələdə cahil olduğu düşünülür. Sonra da şiələri ittiham edirlər ki, onlar Allahı cahil bilirlər. Bir halda ki, bəda məsələsi Allahın elmini inkar etmək yox, əksinə Allah-taalanın elmdə bütün varlıqlardan ən yüksək məqamda olduğunu isbat edir. Digər tərəfdən əhli sünnətin kitablarında bədaya etiqad haqqında rəvayətlər mövcuddur. Baxmayaraq ki, onu bəda kimi adlandırmırlar. Bəda haqqında məlumat almaq üçün: seyyid Murtəza Əskərinin "əl-Bəda əla maidətil-kitab vəs-sünnət", seyyid Rza Hüseyni Nəsəbin "Şiə cavab verir" kitablarına müraciət edin.

5) Təfsir "Camiul-əhkamil-Quran" müəllif Qirtəbi "Əhzab" surəsinin təfsirinə başlamazdan öncə müqəddimədə nəsx olunmuş ayələrə (daşqalaq etmək ayəsi kimi) işarə edib axırda yazır: Bəzən nəql olunur ki, Quranın bəzi ayələri vərəqlərdə yazılmışdı və Aişənin evində olanda keçi onları yedi. Bütün bunlar mulhidlərin və şiələrin uydurmalarıdır. ("Camiul-əhkamil-Quran" Əhzab surəsi 14/113)

Qirtəbi əhli sünnətin adlı-sanlı alimlərindən olmasına baxmayaraq onun bu cür səhv etməsi təəccüblüdür. Quranın bəzi ayələrinin keçi tərəfindən yeyilməsi haqqında nəql olunmuş rəvayət əhli sünnətin mötəbər və məşhur kitablarında (Sünəne ibn Macə və Musnəde Əhməd ibn Hənbəl) vardır və heç bir şiə kitabında bu cür cəfəngiyyat yoxdur. "Aişə deyir: Rəcm ayəsi və süd vermə haqda ayə nazil olmuşdu. O ayələr kağıza yazılıb mənim otaqda balışımın altında qoyulmuşdu. Rəsulullah (s) vəfat edəndə bizim başımız ona qarışmışdı. O zaman keçi evə girib həmin vərəqləri yemişdi" (Sünəne ibn Macə kitabun-nikah bab rizaul-kəbir 1/625, Musnəde-Əhməd ibn Hənbəl musnəde-Aişə 6/269)

Əhli sünnətin mötəbər və məşhur kitablarında bu cür rəvayətlər olduğu halda yenə də Quranın təhrifi ideyasını şiələrə nisbət verirlər. Bir halda ki, özləri bu fikrə daha layiqlidirlər.

6) - Dirasatun fil-firəq müəllif doktor Sabir Əbdurrəhman Tueymə: Müəllif kitabında Usuli-kafi kitabından bir hədisi bu cür nəql edir: Kuleyni Əbdullah ibn Cundəbdən nəql edir ki; *Əli ibn Musa Rza* (onların səkkizinci imamları) *ona yazıb: Bil və agah ol, biz yer üzündə Allahın övladlarıyıq. Bəlalar, mükafatlar, ərəb ənsabına agahlıq və s. haqqında olan bütün elmlər bizdədir,...."* (Dirasatun fil-firəq səh.19 ər-Riyaz. məktəbətul-məaarif.)

Xatıladaq ki, adı çəkilən kitabda rəvayətin ünvanı bu cür verilib ("əl-Kafi fil-usul, kitabul-huccət cild.1/223 İran (əş-Şiə vəs-sünnə)

nəqlən ən İhsan Zəhir səh 68".) Amma əgər siz "əş-Şiə vəs-sünnə" kitabının yeddinci nəşrinə və əl-Kafi fil-usul kitabına müraciət etsəniz görərsiniz ki, orada bu cür yazılıb ".....Bil və agah ol, biz yer üzündə Allahın əmin qərar verdiyi insanlarıq. Bəlalar, mükafatlar, ərəb ənsabına agahlıq və .... haqqında olan bütün elmlər bizdədir,...." Deməli bu təhrif ya kitab sahibi, doktor Sabir Əbdurrəhman Tueymə tərəfindən baş verib, ya da ki, hədisi nəql etdiyi kitabın "əş-Şiə vəs-sünnə" sahibi tərəfindən baş verib. Fərqi yoxdur, hər iki surətdə bu nəticə ilə əmələ gəlmiş "Dirasatun fil-firəq" kitabını oxuyan oxucu şiələri muşrik olduqlarına görə ittiham edəcək. Oxucu bu cür xainlərin təhrifatı nəticəsində şiələrə dindən xaric olmuş kimi baxacaq.

7) Usulu məzhəbiş-şiə: müəllif doktor Nasir ibn Əbdullah ibn Əli Ğəffari kitabın müqəddiməsində söz verib ki, şiə kitablarından nəql etdiyi sitatları nəql edəndə insaflı olub əmanətə xəyanət etməyəcək. Amma rəvayətləri nəql edəndə rəvayətin bir tikəsini nəql edir və bəzi həqiqətləri təhrif etməklə daxili xəbisliyini icbari şəkildə göstərməyə məcbur olur. Şiə alimlərinin rəvayətin zəif və qondarma olduğunu aşkar surətdə göstərdikləri halda bu qərəzli müəllif həmin rəvayətə təfsir verərək onu şiələrin əqidəsi olduğunu iddia edir. Sonra da şiələri bu əqiddə olduqlarına görə ittiham etməyə başlayır. Biz müəllifin xəyanətlərindən bir neçə məqamı misal olaraq gətiririk: "Şiələr güman edirlər ki, şəfa aləmlərin Rəbbindən yox, imam Hüseynin qəbrinin türbətindən gəlir" (Usulu məzhəbiş-şiə bab əvvəl, fəsl əvvəl, məbhəs xamis, "qovluhum innə turabə qəbri Huseyn ....2/594")

İmam Hüseyn (ə)-n qəbrinin torpağından şəfa üçün istifadə etməyin caiz olduğunu göstərən rəvayətlərin hamısında şəfanın Allah-taalanın istəyindən və iradəsindən asılı olduğu göstərilib. "Ancaq İmam Hüseynin türbəti şəfa verir, Pərvərdigarın iradəsi yox" kimi sözlər şiələrə yaxılmış iftiradır. Daha təəccüblüsü budur ki, müəlif deyir: şiələr Allahın cism olduğunu düşünürlər.

Yəhudilərin Allahın cism olduğuna etiqadlarının olduğu məşhurdur. Lakin müsəlmanlar arasında bu əqidəni birinci şiələr yaymağa başlayıblar (Usulu məzhəbiş-şiə bab əvvəl, fəsl salis əl-məbhəs əvvəl "əl-qovl fil-isbati təcsim 2/640")

Şiə filosofları və kəlam elmi alimləri dünya və axirətdə Allahın cismaniyyətini inkar edirlər. Lakin əksər əhli sünnət alimləri inanırlar ki, qiyamətdə Allah-taala görünəcək. İbn Teymiyyə kimi bəziləri isə Allah-taalanın cümə axşamları nazil olması haqqında təfsirlərində onun cism kimi vəsf edirlər. Belə olduğu halda vəhhabilər bu ittihama daha layiqdirlər. Onlar Allah-taalanın cism olduğu haqda iddialarını sübut etmək üçün əhli-beyt imamlarından (ə) rəvayət gətirmirlər. Şiə kitablarından gətirdikləri bütün rəvayətlərdə Allah-taalanın cismaniyyəti rədd olunur.

Şiə qardaşlarımıza tövsiyə: Əqidələrimizin əsaslarını öyrənmək üçün bir-birimizə kömək etməliyik.

# VƏHHABİLƏRİN CİNAYƏTLƏRİ

## VƏHHABİLƏRİN CİNAYƏTLƏRİNDƏN NÜMUNƏLƏR

Vəhhabilər İslam və müsəlmanlara qarşı çoxlu cinayət, müsibət və faciələr törətmişlər. Tarix onları rüsvay etmiş, azad qələm sahibləri o müsibətlərdən bəzi nümunələri gələcək nəsillər üçün yazıb saxlamışlar.

Vəhhabilərin hökuməti möhkəmdiriləndən sonra, İslam ölkələrinə hücum edib təzə "dini" qəbul etdirmək üçün güclü bir qoşun yaratmağa başladılar. Bu hücumlarda onların iş və rəftarları hikmət və məntiq əsasında deyildi; monqol-tatarlar kimi vəhşiliklərə, qətl və qarətə əl ataraq şəhərlərə yürüş edir, qabaqlarına çıxan hər kəsi öldürür, böyük-kiçiyə rəhm etmirdilər. Biz burada yüzlərlə cinayətdən təkcə iki nümunə gətirməklə kifayətlənirik.

## İLK CİNAYƏT

1217-ci hicri (1795-ci miladi) ilində vəhhabilər İraqa tərəf qoşun yeritdilər. Yolları üstündə çatdıqları bütün şəhər və kəndləri viran edib günahsız insan cəsədlərindən təpə düzəldir və qanı su yerinə axıdırdılar.

Qədir-xum bayramı günündə, (zilhiccənin 17-i) Kərbəla şəhərinin yaxınlıqlarına çatdılar. Əhalinin çoxu Həzrət Əli (əleyhissalam)-ın qəbrini ziyarət etmək üçün Nəcəfə səfər etmişdilər. Şəhərdə qalan əhali təcavüzkar vəhhabi qoşununun yaxınlaşmasından xəbər tutan kimi hücumun qabağını almaq üçün şəhərin qapılarını bağladılar. Amma 1000 nəfər yaraqlı vəhhabi qapılardan birini sındırıb şəhərə yürüş etdilər. Sürətlə İmam Hüseyn (əleyhissalam)-ın qəbrinə tərəf cumub hədiyyə (nəzir) olunmuş qızıl-gümüşü, nəfis xalçaları və zinətli qapıları qarət etməyə başladılar. Sonra hərəmin zinətlərini və güzgülərini sındırıb məhv etdilər. Bununla

da kifayətlənməyib həyasızcasına müqəddəs zərihi yandırdılar və bir-birlərinin sağlığına qəhvə içdilər.

Qiymətli əşyaları, cəvahiratı qarət edəndən sonra hərəmin ziyarətçilərinə hücum edib zərihin yanında olan 50 nəfəri rəhmsizcəsinə qətlə yetirdilər, sonra həyətə gəlib oradakı ziyarətçiləri qırmağa başladılar. Orada öldürülənlərin sayı 500 nəfərdən artıq idi.

Hərəmdəki ziyarətçiləri qırandan sonra şəhərə daxil olaraq gördükləri hər şeyi viran edir, qarşılaşdıqları hər kəsi öldürürdülər. Böyük-kiçiyə, qoca-cavana, arvad-uşağa rəhm etmirdilər Camaatın evlərinə soxulub qadınların cəvahiratını, mənzil avadanlıqlarını qarət edirdilər.

Vəhşiləşmiş vəhhabilər monqollar kimi qarət olunmuş əşyalarla birlikdə Kərbəladan çıxanda şəhərdə cəsədlərdən ibarət bir təpə, qandan axan bir arx, qəm-qüssədən ibarət bir dağ, yetimlərin, uşaqların və qadınların göz-yaşı, nalə və şivənindən ibarət bir dərya qoymuşdular.

Cinayətkar vəhhabilərin bu aşkar vəhşiliklərinin qurbanı 50 min nəfər oldu. (Əlavə məlumat əldə etmək üçün Doktor Əbdül Cavad əl-Kidarın "Kərbəla tarixi" və İngilis yazıçısı Mister Setifon Həmislinin "Ərbəətü qürunin min tarixil-İraq" kitabına müraciət edə bilərsiniz.)

## İKİNCİ CİNAYƏT

1217-ci qəməri (1796-cı miladi) ilində vəhhabilərin qarətçi qoşunu Taif şəhərinə hücum etdi. Şəhərə daxil olandan sonra kütləvi qırğına başladılar; hətta ana qucağında olan südəmər uşağa belə rəhm etməyib oradaca qətlə yetirirdilər. Həmçinin məscidlərə hücum edib camaatı rüku və səcdə halında olarkən qılıncdan keçirtdilər; bir Quran öyrənmə sinfinə daxil olub oradakı şagirdlərin hamısını qətlə yetirdilər.

## MƏKKƏYƏ YÜRÜŞ

Məkkə alimləri vəhhabiləri qəbul etmədiklərinə görə və onları müsəlmanların düşməni hesab etdiklərinə görə bir müddət onları Məkkəni ziyarət etməyə icazə vermirdilər. Bir müddət sonra vəhhabilərin nümayəndəsi Məkkəyə gəlir və həcc ziyarətinə icazə istəyir. Məkkə alimləri yalnız cizyə verməklə (xüsusi vergidir ki, kafirlərdən alınır) həccə gəlməyə icazə verirlər. Vəhhabilər bu işə razı olmur.

Nəhayət, vəhhabilərin o vaxtkı hakimi Əbdüləziz bunu bəhanə edərək Məkkəyə qoşun çəkir. Bununla da məkkəlilərlə vəhhabilər arasında müharibə başlayır. Təxminən doqquz ilə yaxın çəkən bu müharibədə çoxlu qanlar tökülür. Nəhayət, vəhhabilər qalib gəlir və sülh müqaviləsi bağlamaqla həccə gedirlər.

Sonralar yenə də məkkəlilərlə vəhhabilər arasında müharibə baş verir. Ərəb tarixçisi Cəmil Sədiqi Zəhavi bu müharibənin gedişi haqqında yazır: "Bu müharibədə vəhhabilərin ən çirkin işi müsəlman əhalini kütləvi surətdə qətlə yetirmələri idi. Kiçiyə, böyüyə rəhm etmirdilər. Balaca südəmər uşağın başını anasının qucağındaca kəsirdilər. Quran hifz edən bir dəstə müsəlmanı hamılıqla öldürdülər. Evlərdə bir kəs qalmadığına görə dükanlara və məscidlərə üz gətirirdilər. Qarşılarına çıxan hər kəsi amansızcasına öldürürdülər. Hətta rüku və səcdə halında olanları qılıncdan keçirirdilər[1]. Bu şəhərdə olan kitabları o cümlədən, Quran səhifələrini, "Səhihi Buxari" kitabının nüsxələrini, "Səhihi Müslim"i və sair fiqh kitablarını küçə-bazara səpib onları dağıdırlar[2].

Daha sonra onlar Məkkə əhalisini özlərinə tabe etdilər. Həmin müharibə dövründə dörd məzhəb alimləri (Maliki, Şafei, Hənəfi

---

[1] Seyyid İbrahim Rüfai ("Risalətül-ovraqül-Bəğdadiyyə", səh. 3.) nəqlinə əsasən vəhhabilər Məkkə ətrafında yüzlərlə müsəlmanı öldürür. Onların içində alimlər, o cümlədən: Məkkədə Şafei məzhəbinin müftisi Seyyid Əbdüllah Zəvavi, Şeyx Əbdüllah Əbülxeyr, Məkkənin qazisi Şeyx Süleyman Murad və s. öldürürlər.

[2] "Əl-fəcrüs-Sadiq", səh. 22.

və Hənbəli) alimləri vəhhabilərin kafir olmaları hökmünü verirlər[1].

## VƏHHABİLƏRİN MƏDİNƏYƏ YÜRÜŞÜ

Yenə həmin ildə yəni təxminən 1800-cü ildə (1220-ci hicri ili) vəhhabilər Ali Səud hökuməti vasitəsi ilə Mədinəyə hücuma keçib oranı işğal edirlər. Peyğəmbərin (s) hərəmində olan bütün qiymətli əşyaları ələ keçirirlər. Osmanlı hökuməti tərəfindən Mədinə və Məkkədə olan qazıları şəhərdən çıxarırlar[2].

Mədinə əhalisi Əmir Səuda beyət edirlər. Bundan sonra vəhhabilər günbəzləri söküb qəbirlərin üstünü dağıtmağa başlayırlar[3].

Beləliklə, vəhhabilər böyük bir hökumət təşkil edirlər. O da Nəcd və Hicazdan ibarət idi. Bütün şəhərlərdən Osmanlı hökumətinin nümayəndələrini qovurlar. Vəhhabilər buna qane olmayıb öz hücumlarına davam edirlər. Müqəddəs Kərbəla və Nəcəf şəhərlərinə hücuma başlayırlar.

## VƏHHABİLƏRİN NƏCƏFÜL-ƏŞRƏFƏ HÜCUMU

Vəhhabilərin ilk mübarizə apardıqları məzhəblərdən biri şiələr olub. Vəhhabi qoşunlarının Nəcəfə və Kərbəlaya hücumları təxminən 1792-ci ildən (1216-cı hicri ili) başlayır. Bu hücum Əbdüləzizin dövründən ta Səud ibni Əbdüləzizin dövrünə qədər (1800-cü ilə qədər) davam edir.

Əlbəttə, vəhhabilər Nəcəfə və Bağdada etdikləri hücumların əksəriyyətində müsəlmanların şiddətli əksül-əməli ilə qarşılaşmış və çoxlu tələfat verdikləri üçün geri çəkilmişlər. Bununla belə, şəhərlər dağıdılmış, çoxlu müsəlmanın qanı nahaqdan axıdılmışdır. Onlar Nəcəfdə İmam Əli əleyhissəlamın hərəmində olan çoxlu qızıl-gümüşə meyl salmış, lakin vəhhabilərin hücum

---

[1] "Seyful-Cəbbar", səh. 2-dən sonra.

[2] «Tarixül-məmləkətil-ərəbiyyətis-Səudiyyə", 1-ci cild, səh. 91.

[3] «Tarixül-məmləkətil-ərəbiyyətis-Səudiyyə", 1-ci cild, səh. 92.

ehtimalını bilən şiələr bu zinətli əşyaları başqa yerdə gizlətdiklərinə görə onları ələ keçirə bilməmişdilər[1].

## VƏHHABİLƏRİN KƏRBƏLAYA YÜRÜŞÜ

Kərbəla, müsəlmanların ən çox cəm olduğu və müqəddəs saydığı məkanlardan biridir. Peyğəmbərin (s) övladının dəfn olunduğu bu məkan məzhəbindən və əqidəsindən asılı olmayaraq bütün müsəlmanların yanında xüsusi hörmətə malikdir. Peyğəmbər (s) hələ dünyada ikən iki cavan gül nəvələrini (İmam Həsən və Hüseyn əleyhimassəlamları) minbərin üstündən müsəlmanlara tövsiyə etmiş və camaatın gözü önündə dəfələrlə onların üzündən, gözündən öpmüşdür. Bu da onun əlamətidir ki, bu övladlar Peyğəmbərin (s) ən yaxın və sevimli övladlarındandır. Dəfələrlə onların necə şəhid olmalarından xəbər vermişdir. Quran Peyğəmbərə xitab edərək buyurur:

*De ki: Mən sizdən bunun [risaləti təbliğ etməyimin] müqabilində Əhli-beytimə məhəbbətdən başqa bir şey istəmirəm*[2]!

Görəsən, özgələrin mal-dövlətini çapıb-talayan vəhhabilərin öz alimləri Quranda bu ayəni görməyiblər və bilmirlər ki, Peyğəmbərin (s) Əhli-beytini dost tutmaq əmrini Allah özü əmr etmişdir? Xeyr! Belə ayələri Quranda oxumazlar! Çünki onların mənafeyi ilə uyğun gəlmir.

Kərbəla hadisəsi hamıya yaxşı məlumdur. Qeyd etməyə ehtiyac yoxdur. O da şərabxorluq edib özünü müsəlmanların başçısı adlandıran Müaviyə və Yezid kimi şəxslərin əli ilə baş verib.

Vəhhabilərin Kərbəlaya hücumu demək olar ki, Nəcəfə hücumları ilə eyni vaxtda olub. Yəni bu hadisə də, təxminən 1792-ci ilə təsadüf edir. Lakin Kərbəlada daha çox qanlar töküblər. Bu yürüş barəsində tarixdə müxtəlif cür yazılar var. Biz onlardan bir-iki nümunə zikr edəcəyik. Vəhhabi yazıçısı Səlahəddin Muxtar bu

---

[1] "Dühətül-vüzəra", səh. 213-217.

[2] "Şura" surəsi, 23-cü ayə.

hadisə barəsində yazır: "Təxminən 1792-ci ildə (1216-cı il hicri ili) Əmir Səud (Əbdüləzizin oğlu) güclü bir qoşunla İraqa tərəf hərəkətə gəlir. Ziqədə ayında Kərbəla şəhərinə çatıb onu mühasirə edirlər. Qoşun şəhərin darvazasını sındırıb zorla şəhərə daxil olur. Küçə, bazar və evlərdə olan əhalinin çoxusunu sorğu-sualsız qətlə yetirirlər. Günortaya yaxın çoxlu qarətlə şəhərdən xaric olurlar[1]".

Amma bu yürüşün əsl görünüşünü o şəhərdə kiliddar olan və bu şəhərin əhalisindən olan Əbdül Cavad belə nəql edir: "1792-ci ildə (1216-cı hicri tarixi) Vəhhab Əmir Səud 20 min nəfərdən ibarət güclü silahlarla silahlanmış bir qoşunla Kərbəlaya həmlə edir. Kərbəla bu vaxtlarda ən böyük şöhrətə malik olan şəhərlərdən biri idi. İran, türk və ərəb zəvvarları hər yerdən buraya üz gətirirdilər. Səud, şəhəri mühasirəyə aldıqdan sonra şəhərə daxil olur. Şəhəri müdafiə edənləri və sakinləri şiddətlə qırmağa başlayır.

Vəhhabi qoşunları şəhərdə elə rüsvayçılıqlar törədirlər ki, onu vəsf etmək mümkün deyildir. Hətta nəql edirlər ki, bir gecədə 20 min nəfəri qətlə yetirirlər[2].

Əmir Səud döyüş qurtardıqdan sonra hərəmlərin xəzinələrinə əl atır. Əlinə keçən qiymətli əşyaları və qızılları qarət edir.

Hacı Zeynəlabidin Şirvani [3] təxminən Mühəmməd ibni Əbdülvəhhab ilə eyni bir zamanda yaşamışdır. Bu alim illərlə Kərbəlada sakin olmuş[4] və bu hadisələrin canlı şahidi kimi belə yazır: "Günün günorta çağı əllərinə keçən bütün qızıl-gümüş, cəvahir, qızıl qablar və sair əşyalar bu zalimlərin əlinə keçdi. Lakin bəzi xəzinələri onlar gəlməmişdən qabaq gizlətdiklərinə görə apara bilmədilər".

---

[1] "Tarixül-məmləkətil-ərəbiyyətis-Səudiyyə", 1-ci cild, səh. 73.
[2] "Nüzğətül-ğərra", səh. 72.
[3] Azərbaycanın məşhur alimlərindən biridir.
"Hədaiqus-səyahət", səh. 427.
[4] Bu sətirlərin müəllifi bu alimin həyatını "Azərbaycan İslam alimləri" kitabında geniş yazmışdır.

Bundan əlavə o vaxt Kərbəlanın böyük İslam alimlərindən olan Mərhum Bəhrul-ulum özünün "Miftahul-kəramət" kitabının axırında bu dəhşətli hücumu vəsf edərək belə yazır: "Bu tarixdə (1216) vəhhabilərin şərur qoşunları müqəddəs yerlərə həmlə edib şiələri qətl-qarət ediblər!"

## VƏHHABİLƏRİN ƏLİ İLƏ İSLAMİ ƏSƏRLƏRİN DAĞIDILMASI

Hal-hazırda dünyanın hər yerində keçmiş nəsillərdən irs qalmış tarixi abidə və əsərlərlə fəxr edilir, onları qoruyub-saxlamağa həddindən artıq səy göstərilir və onları təmir edib düzəltmək üçün külli miqdarda pul sərf edilir.

Dünya ölkələri arasında belə bir qanun var ki, xaricdən gələn müxtəlif heyətlərə və qonaqlara öz tarixi abidələrini göstərsinlər. Amma qəsbkar vəhhabi dövləti İslamın tarixi əsər və abidələrini bir-birinin ardınca və tamamilə məhv edir ki, gələcəkdə onlardan heç bir əsər-əlamət qalmasın. Bu, vəhhabilərin İslama və bütün müsəlmanlara qarşı törətdikləri böyük bir cinayətdir. Çünki bu tarixi abidələr heç kimin şəxsi əmlakı deyil və bütün müsəlmanlara məxsusdur; tarix boyu müsəlmanların iftixarı sayılmış, indi də sayılmaqdadır. "İslam dövləti" iddiasını irəli sürən ölkələr də vəhhabilərin bu kinli hərəkətləri qarşısında tam sükut edərək məsuliyyətsiz bir mövqe seçmiş və onlara qarşı heç bir reaksiya göstərməmişlər.

Əlbəttə, onların belə bir mövqe seçmələri heç də təəccüblü deyil. Çünki bu hökumətlərin vəhhabilərlə müştərək bir xüsusiyyətləri vardır: onlar Amerika, İngiltərə, Rusiya və ya bu kimi istismarçı dövlətlərin əlaltılarıdır.

İndi görək, İslam iddiaçısı olan dövlətlərin bu üç dövlətdən asılı olmalarında şəkk yeri vardırmı?

Şübhəsiz, hamı bilir ki, bu dövlətlərin başçıları əcnəbilərin əlaltılarıdır və onların (əcnəbilərin) səfirlikləri tərəfindən verilən göstərişlərə uyğun olaraq əməl edirlər.

Bunları nəzərə alaraq bu dövlətlərin vəhhabilərin cinayətlərinə qarşı bir reaksiya göstərəcəklərini gözləmək olarmı?

- Vəhhabilər 1800-cü illərdə Məkkəyə girdiklərində ilk etdikləri iş Peyğəmbər dövründən qalma strukturları yerlə bir etmək oldu. Peyğəmbərin məzarı isə talan edildi.

- 1925-ci ildə Mədinədə olan və içində yatanlardan ötəri "Cənnətül-Bəqi" adı verilən qəbiristanlıqdakı bütün məzarlar Kral Əbdüləziz bin Suudun əmri ilə yıxıldı.

- "Cənnətül-Bəqi" peyğəmbərin yaxınlarının dəfn edildiyi məkandır. Peyğəmbərin oğlu İbrahim də bu qəbiristanlığa dəfn edilib. Peyğəmbərin bibiləri Səfiyə, həzrət Əlinin anası Fatimə binti Əsəd də bura dəfn ediliblər.

- Kral eyni ildə peyğəmbərin babaları, həyat yoldaşı, anasının məzarlarının tapıldığı Məkkədəki "Cənnətül-Müəlla" qəbiristanlığını da uçurub.

- Həzrət Həvvanın Ciddədəki məzarı, həzrət Məhəmmədin atası Abdullahın Mədinədəki məzarı, həzrət Fatimənin Mədinədəki məzarı, Mədinədəki Salman əl-Farisi Məscidi, Peyğəmbərin hicrətdən sonra Mədinədə yaşadığı ev, 6-cı İmam həzrət Cəfəri Sadiqin Mədinədəki evi, həzrət Həsən və həzrət Hüseynin doğulduqları yer olan həzrət Əlinin evi də vəhhabilər tərəfindən yerlə bir edilib.

- Vəhhabilər həzrət Əlinin (ə) gücünü nümayiş etdirən bu qalanın qapısını qala ilə birgə yerlə yeksan etdilər. Xeybər, Mədinə şəhərinin 95 kilometrliyində yerləşən bir məntəqənin adıdır. Qədimdə bu məntəqədə çoxlu möhkəm qalalar var idi. O qalalarda yəhudilər yaşayırdılar.

- Yəhudilər müsəlmanların qorxusundan Xeybər qapısını böyük böyük qala qapısı etmişdilər. Bu qapı çox böyük və ağır bir daş parçasından ibarət idi ki, açıb-bağlamağa qırx dörd nəfər lazım olurdu. Amma İslam qoşununun qəhrəman sərkərdəsi həzrət Əli (ə) Xeybər müharibəsində o qapını təklikdə yerindən çıxardıb qırağa atdı.

- Qədir-Xum (Xum diyarı) İslam tarixində böyük bir hadisədən xəbər verir. Peyğəmbəri-Əkrəm "Həccətül-vida"-dan qayıdan zaman Məkə ilə Mədinə arasında yerləşən bu məntəqədə düşərgə salmış, Əli (ə)-ın əlini yuxarı qaldıraraq, onu özündən sonra canişinliyə təyin etmişdir. Amma vəhhabilər hakimiyyətə gələndən sonra oradan keçən yolu dəyişdirdilər və o diyarın bütün İslami abidələrini məhv etdilər ki, heç kəs bu hadisənin baş vermə yerindən xəbərdar olmasın.

**Vəhhabilərin İslam tarixinə hücumları bu gün də davam edir**

Neçə il öncə vəhhabilər Liviyada növbəti cinayətə əl ataraq "Bəqi Qəbiristanlığı"nın dağıtdıqları ildönümündə İmam Həsənin (ə) nəvələrindən olan "Əbdul Səlam əl-Əsmər"in pak hərəmin viran ediblər.

Bundan başqa, vəhhabi terrorçuları Kərbəla şəhərinə dəfələrlə hücum etmiş, İmam Hüseyn (ə)-ın müqəddəs türbəsini qarət etmiş, zəvvarları qətlə yetirmişlər.

Bu vəhşi axının İslama vurduğu fikri zərbəni bir kənara qoyaq, bu gün də eyni işləri davam etdirdiyini görürük.

Liviyada, Malidə bir çox İslam əsərini yox edən vandallar sürüsü indi də Suriyaya əl atmış vəziyyətdədirlər.

Vəhhabi terroristlər son günlərdə səhabə Hicr ibn Ədinin türbəsi dağıdılmış cəsədi bilinməyən yerə aparmışlar.

**Bu Vəhhabilərin Suriyadakı ilk və son işi deyil...**

Daha əvvəl də Raqqada Əmmar ibn Yasirin türbəsinin qarşısına keçib top atışı ilə "Allahu Əkbər" qışqırıqları arasında yerlə bir etmişdilər.

Şamdakı Xanım Zeynəb türbəsinə də hücum olunub və iki dəfə hücum cəhdində partlayışlar törədiblər. Bütün müsəlmanlar tərəfindən müqəddəs hesab edilən bu məkan uzun bir zaman olar ki, bağlıdır.

Bu siyahı daha da uzadıla bilər.

Son iki ildə İraqda və Suriyada dağıdılan müqəddəs məkanların sayı hesabı yoxdur.

***"Cənnətül-Bəqi"nin əvvəlki vəziyyəti, vəhabilərin törətdiyi "Bəqi" cinayəti:***





***2006 və 2007-ci llərdə İmam Həsən Əsgərinin müqəddəs hərəminə bomba ilə hücum:***







*İmam Həsənin (ə) nəvələrindən olan "Əbdul Səlam əl-Əsmər"in pak hərəminə qarşı terror:*



*Liviyada "Şeyx əl-Lafi" ziyarətgahına qarşı terror:*





*Hücr ibn Ədinin qəbrini viran edən sələfilərin şəkilləri:*





*Xanım Səkinə (ə) ziyarətgahına terror hücumu:*



*Xanım Zeynəbin (s.ə.) hərəmi terror aktından sonra:*



## VƏHHABİLİYİN ZİDDİYYƏTLİ MÖVQEYLƏRİ?

**Qəbirlər barədə ziddiyyətli vəhhabi mövqeyi**

Özünü əhli-sünnə vəl cəmaət adlandıran bir qrup insanın sünnü və şiələrə qəbirləri ziyarət, qəbir üzərində tikili qurmaq mövzularında irad tutmalarının tez-tez şahidi oluruq. Fikirlərini əsaslandırmaq üçün də bir neçə hədisə istinad edirlər.

İmam Müslimin rəvayətində Cabir ibn Abdullah belə deyir: **"Allah Elçisi (s) qəbirlərin üstünü bərkitməyi, onların üzərində oturmağı və tikili qurmağı qadağan etmişdir."**

İmam Buxari və Müslimin "Səhih" adlı əsərində Aişədən belə rəvayət olunur: **"Ümmü Sələmə Həbəşistanda gördüyü məbədi Allah Elçisinə (s) təfərrüatı ilə danışdı. O isə buyurdu: "Həmin insanlar arasında əməlisaleh kişi və yaxud əməlisaleh qul ölərdisə, onların qəbirləri üzərində məsçidlər tikər, üstünə şəkillər çəkərdilər. Belə insanlar Allah qatında yaradılanların ən pisləridir."**

Öz gözlərində tiri görməyən bu firqənin nümayəndələrinin özgə gözündə çöp axtarmağı gülünc görünür. Aşağıdakı şəkillərdə əhli-sünnənin dərin hörmət bəslədiyi şəxslərin qəbrlərini görəcəksiniz.

**1. Xalid bin Vəlid**





**2. Müaviyə bin Əbu Süfyan**




### 3. Əbu Hüreyrə




### 4. Mühəmməd bin İsmayıl Buxari





**5. Əbu Hənifə**





**6. İbn Teymiyyə**






İmamlarımızın qəbirlərini, türbələrini bombalayan vəhhabi fitnəkarları öz şeyxlərinin qəbirlərini niyə diqqətdən kənar saxlayırlar?

(İbn Teymiyyənin şagirdi) İbn əl-Qəyyim deyir: «**Məzarlar üzərində inşa edilən tikililər bütləri təmsil edir və pərəstiş olunurlar. Bu növ tikililəri uçurmaq vacibdir. Uçurulmasına imkan olduğu təqdirdə onları bir gün belə saxlamaq düzgün deyil. Çünki onlar, «Lat» və «Uzza»ya (cahillik dövrünün iki ən böyük bütü) bənzəyir və ən böyük şirkdir**».
Kimi gözləyirlər ki? Kim, yaxud nə mane olur onlara Müaviyənin, Xalid ibn Vəlidin qəbirlərini uçurmağa?
Görəsən, bu vəhhabi fitnəkarları Əhli Beyt (ə) sevgisindən danışarkən nə düşünürlər? Əbu Hənifənin, Buxarinin və yüzlərlə digərlərinin

qəbirlərini də bombalamaq fikirlərindən keçirmi? Yoxsa, ikili standartların təkmilləşdirilməsi üzrə daha da çox baş sındırırlar? Allah insaf əhlinə vəhhabi fitnəsinin təsirindən çıxmaqda yardımçı olsun və bizləri bu fitnədən qorusun.

**<u>Vəhhabilərin çirkin arzusu…!</u>**

Vəhhabi alimi Əbu Abdurrahman Mukbil b. Hadinin "Tuhfetul-mucib ala asiletil-hazir vel-ğarib" adlı kitabının 406-cı səyfəsidir. işarələnmiş yerdə bu ifadələr var:

**"biz arzu edirik ki, yanımızda olan Hadinin (Rasulullahın s.a.a) qəbri üzərindəki məsciddə dağıdılsın və o yerə düşsün.** ama görürük ki, indilik buna gücümüz yetmir. ama inşaallah, yaxın və ya uzaq zamanda bunu edəcəyik, digər bidətləri də aradan qaldıracağıq".

Hörmətli oxucu, Peyğəmbərimizin əhlibeytinin, Onu dünyaya gətirən Aminə xanımın qəbrini bu günə qoyanlardan bunu da gözləmək olar.







تحفة المجيب على أسئلة الحاضر والغريب ٤٠٦

نحن نقول -ونتلكم قبة الهادي بجوارنا-: نتمنى نتمنى أن قد رأينا المساحي في ظهرها إلى أن تصل إلى الأرض، لكن نرى أن ليس لدينا قدرة، فنحن إن شاء الله نوصل هذا لغد أو بعد غد، وهكذا بعض المنكرات.






# SƏHİH HESAB ETDİKLƏRİ KİTABLARDA GÜLMƏLİ HƏDİSLƏR

## Rəcm və on dəfə süd əmmə ayələri

**Aişə: "Rəcm və on dəfə süd əmmə ayələrini keçi yedi!"**

Əbu Sələmə Yəhya b. Xələf bizə rəvayət etdi (və dedi): Əbdül-Ala bizə Muhəmməd ibn İshaqdan, oda Abdullah ibn Əbi Bəkrdən, o da Umrədən, o da Aişə və Əbdir-Rəhman ibn əl-Qasimdən, o da atasından, o da Aişədən onun belə dediyini rəvayət etdi: **And olsun ki, rəcm və böyük kişini on dəfə əmizdirmə ayələri nazil oldu və and olsun ki, bu ayərlə taxtımın altındakı bir yarpaqda (yazılı) idi. Rəsulullah (s.ə.s) vəfat edən zaman biz onun dəfn işləri ilə məşğul olurduq, Bu zaman bir ev heyvanı (keçi) girib o yarpağı yedi.**

*Sünən ibn Macə, c.1, s.626, h.1944; Məktəbə əl-İlmiyyə, Beyrut*

Şeyx Nasiruddin əl-Albani bu hədisin **"həsən"** olduğunu bildirmişdir.





Fotoşəkil: İbn Macə, əs-Sünən, s.337, №1944; Məktəbətul-Maarif lil-Nəşr vəl-Təuzi, ər-Riyad, Səudiyyə Ərəbistanı, 1417/1997; təhqiq: Nasiruddin əl-Albani və Məşhur ibn Həsən əl-Salman

Fotoşəkil: Nasiruddin əl-Albani, Səhih Sünən ibn Macə, c.2, s.148, №1593(1975); Məktəbətul-Maarif lil-Nəşr vəl-Təuzi, ər-Riyad, Səudiyyə Ərəbistanı, 1417/1997; təhqiq: Nasiruddin əl-Albani.

## Əhli-sünnə alimləri təhrif barədə

**İmam Malik: “Osmanın “Müshəf»i itib”.**

حدثنا عبد الله ، حدثنا أبو الطاهر ، ثنا ابن وهب قال : سألت مالكاً عن مصحف عثمان رضي الله عنه فقال لي ذهب

Bizə Abdullah rəvayət etdi (və dedi), bizə Əbu Tahir rəvayət etdi (və dedi), bizə İbn Vəhb rəvayət etdi və dedi: Malikdən Osmanın r.a. “Müshəf”i barədə soruşdum. (Malik) cavabında dedi: “İtib”.

***Əbu Bəkr əs-Sicistani, Kitab əl-məsahif, c.1, s.135; Dar əl-Faruq, Qahirə, 1423/2002; təhqiq: Muhəmməd Abduh***

Onlayn mənbə: shamela

Kitabın mühəqqiqi, Məkkədəki məşhur Ummul-Qura Universitetinin professoru Doktor Muhibuddin Əbdul-Subhan Vaiz rəvayətin sənədinin **səhih** olduğunu buldirmişdir.



Fotoşəkil: Əbu Bəkr əs-Sicistani, Kitab əl-məsahif, s.241-242; Dar əl-Bəşair əl-İslamiyyə, Beyrut, 1423/2002; təhqiq: Muhibuddin Əbdul-Subhan Vaiz.

Şam məktəbinin yetirmələrindən olan İbn Kəsir bu hədisi qeyd etdikdən sonra deyir ki, ehtimal ki, Osmanın öz əli ilə yazdığı və Mədinədə tərk etdiyi müshəf barədə soruşur.

Bu isə sadəcə ehtimaldır. Biz də başqa ehtimal irəli sürüb sual veririk:

**Sual:** Qurani-Kərimin toplanaraq kamil şəkildə yığılmış və hal-hazırda əlimizdəki Quran olduğu deyilən Osmanın “Müshəf”i itibsə, onda əlimizdə olan Quran nədir? Yoxsa, əhli-sünnənin dörd məzhəb imamından biri olan Malikin dövründə başqa Qurana etiqad ediblər? Yaxud, bəlkə Malikin etiqadı başqa bir Qurana olub?

**Allahın cism olmağı lazımdırsa, qoy olsun!**

(Biz) Deyirik: Cisim dedikdə nəyi nəzərdə tutursunuz? Sümük, ət, dəri və bu kimi şeylərdən ibarət cismi nəzərdə tutursunuz? Bu batildir və Allah haqqında (bunu söyləmək) inkar olunacaq bir şeydir. Çünki Allaha bənzər bir şey yoxdur o, eşidən və görəndir. Yoxsa özü-özünə mövcud olan və özünə layiq xüsusiyyətlərə malik olan cismi nəzərdə tutursunuz? Məna baxımından bu doğrudur. Lakin biz bunu əvvəldə dediyimiz (yəni, bu barədə dəlilimiz olmadığı üçün) səbəbinə nə inkar etmirik, nədə ki, isbat.

*Şeyx Muhəmməd ibn əl-Useymin, Şərh əl-əqdiə əl-vasitiyyə, c.1, s.394; Dar ibn əl-Cəuzi, əd-Dəmmam, Səudiyyə Ərəbistanı, 1421/2001*



Fotoşəkil: Şeyx Muhəmməd ibn əl-Useymin, Şərh əl-əqidə əl-vasitiyyə, c.1, s.394; Dar ibn əl-Cəuzi, əd-Dəmmam, Səudiyyə Ərəbistanı, 1421/2001; təhqiq: Sad ibn Fəvaz əs-Sumeyl

وأما أدلة نفاة الرؤية العقليه؛ فقالوا : لو كان الله يُرى؛ لزم أن يكون جسماً، والجسم ممتنع على الله تعالى ؛ لأنه يستلزم التشبيه والتمثيل

والرد عليهم : أنه إن كان يلزم من رؤية الله تعالى أن يكون جسماً؛ فليكن ذلك ، لكننا نعلم علم اليقين أنه لا يماثل أجسام المخلوقين؛ لأن الله تعالى يقول: ( لَيْسَ كَمِثْلِهِ شَيْءٌ وَهُوَ السَّمِيعُ الْبَصِيرُ ) (الشورى: من الآية 11)

Allahı görməyi nəfy edənlərin əqli dəlillərinə gəlincə onlar deyirlər: "Əgər ALlah göz ilə görülsə, cism olmağı lazımdır. Cism olması da Allah haqqında mümkün deyil. Çünki bu təşbihi və təmsili gərəktirir."

Onlara cavab odur ki, Əgər Allahı görmək üçün Onun cism olmağı lazımdırsa, qoy olsun! Lakin biz yəqin bir elmlə bilirik ki, O, məxluqların cisminə bənzəmir. Çünki Allah buyurur: "Ona bənzər heç bir şey yoxdur. O, eşidəndir, görəndir!"

*Şeyx Muhəmməd ibn əl-Useymin, Şərh əl-əqdiə əl-vasitiyyə, c.1, s.458; Dar ibn əl-Cəuzi, əd-Dəmmam, Səudiyyə Ərəbistanı, 1421/2001*



Fotoşəkil: Şeyx Muhəmməd ibn əl-Useymin, Şərh əl-əqidə əl-vasitiyyə, c.1, s.458; Dar ibn əl-Cəuzi, əd-Dəmmam, Səudiyyə Ərəbistanı, 1421/2001; təhqiq: Sad b. Fəvaz əs-Sumeyl

**Xülasə:**

Vəhhabilərin məbudu özü-özünə mövcud olan və özünə layiq xarakterizə olan cisimdir. Lakin əllərində dəlil olmadığından açıq aydın "Məbudumuz cisimdir" deməyə qorxurlar.

**Sual:**

Cisim sözünü dəlil olmadığı üçün işlətməyə qorxursunuz bəs Allahın zatı ilə ərşə ucalması məsələsində məhz "Zat" sözünü hansı nəqli dəlilə əsasən işlədirsiniz? Axi nə Quranda, nədə ki hədislərdə bu gəlməyib!

**Qubavi adlı istifadəçinin vəhabilərə cavabı:**

Bu adamın sözlərindəki təcsim əqidəsini malalamaq istəyən "elm tələbələri"nin adətləri üzərə göz boyamamaları üçün kiçik bir açıqlama verək.

Ola bilsin bu adı tələbə olanlar desinlər ki, şeyx burda onu qəsd edir ki, Allahı görmək cism olmasını gərəktirmir. Necə ki İmam Şafi bir zamanlar "Əgər Əhli-Beyti sevmək rafizilikdirsə mən rafiziyəm demişdir".

Bu zəlalət şübhəsinə cavabən deyirik ki: "Əsla! İbn Useymin sözünün sonunda "Lakin biz yəqin bir elmlə bilirik ki, o məxluqatın cismləriylə bir deyil" deyir. Yəni, cism olsa da məxluqatın cismi ilə bir olmadığı üçün problem yoxdur. Məlum göz boyama qaydası.

Biz daima deyirik ki, bu insanların əqidəsi təcsim üzərə qurulub. Bunların Əhli-Sünnədən zərrə qədər nəsibləri yoxdur. Səmimi müsəlmanları bu cür yazarların kitablarından uzaq durmağa çağırırıq.

**Əbu Yalə əl-Fərra: "Allah və sifətləri zikr olunanda, saqqal və övrətdən başqa nə desəniz qəbul edəcəm."**

وأخبرني من أثق به من مشيختي أن أبا يعلى محمد بن الحسين الفراء رئيس الحنابلة ببغداد كان يقول إذا ذكر الله تعالى وما ورد من هذه الظواهر في صفاته يقول : ألزموني ما شئتم فإني ألتزمه إلا اللحية والعورة

Mənə inandığım şeyxlərdən biri dedi ki, bəs Bağdadda hənbəlilərin rəisi Əbu Yalə Muhəmməd ibn əl-Hüsayn əl-Fərra deyərdi ki, Allah və sifətləri zikr olunanda, saqqal və övrətdən başqa nə desəniz qəbul edəcəm.

Əbu Bəkr ibn əl-Ərəbi əl-Maliki, Əvasim əl-qəvasim, s.209-210; Məktəbə Dar ət-Turas, Qahirə; təhqiq: Əmmar Talibi.



Fotoşəkil: Əbu Bəkr ibn əl-Ərəbi əl-Maliki, Əvasim əl-qəvasim, s.209-210; Məktəbə Dar ət-Turas, Qahirə; təhqiq: Əmmar Talibi.

## <u>Allahın kürsüsü</u>

**Peyğəmbər (s) cənnətin qapısını döyəcək, içəri daxil olub Rəbbini kürsi üzərində görəcək!**

حدثنا موسى بن إسماعيل حدثنا حماد يعني ابن سلمة عن علي بن زيد عن أبي نضرة قال خطبنا ابن عباس على هذا المنبر بالبصرة فقال قال رسول الله ما من نبي إلا له دعوة تعجلها في الدنيا وإني اختبأت دعوتي شفاعة لأمتي يوم القيامة وأنا سيد ولد آدم ولا فخر وأول من تنشق عنه الأرض ولا فخر وبيدي لواء الحمد ولا فخر وآدم ومن دونه تحت لوائي ولا فخر قال رسول الله فيطول ذلك اليوم على الناس فيقول بعضهم لبعض انطلقوا بنا إلى آدم أبي البشر فليشفع لنا إلى ربنا

وساق الحديث إلى قوله فآتي باب الجنة فآخذ بحلقة الباب فأقرع الباب فيقال من أنت فأقول أنا محمد فيفتح الباب فآتي ربي وهو عل كرسيه أو على سريره فيتجلى لي ربي فأخر له ساجدا وساق أبو سلمة الحديث بطوله إلى آخره

Peyğəmbər (s) buyurur: "... Cənnətin qapısına gəlib, qapının dəmirin çalacağam. Soruşulacaq: - Sən kimsən? -, cavab verəcəyəm ki, mən Muhəmmədəm. Bu zaman qapı açılacaq və mən Rəbbimin huzuruna gələcəyəm. O (Rəbbim) bu zaman Öz kürsisinin və ya taxtının üstündə olacaqdır. Rəbbim mənim üçün təcəlli edəcək (onu aydın şəkildə görəcəyəm) və mən əyilib Onun qarşısında səcdə edəcəyəm".

Əbu Sələmə bu hədisi sonuna qədər nəql etmişdir[22].

---

[22]Bu hədisi Əhməd ibn Hənbəl (1/281-282, 295-296) müxtəlif sənədlərlə geniş şəkildə Həmmaddan nəql etmişdir. Həmçinin əs-Suyuti "əl-Xəsais"də (2/228) Əbu Yaləyə nisbət verərək nəql etmişdir. Həmçinin əl-Heysəmi bu hədisi "əl-Məcma əz-Zəvaid" əsərində (c.10, səh. 372-373) nəql emiş və demişdir: "Hədisin sənədində Əli ibn Zeyd ibn Cədan adlı ravi var və bu şəxs "zəif" ravi olmasına baxmayaraq, hədisin sənədində yer alan digər ravilərin hamısı "əs-Səhih"in raviləridirlər.

Mən (kitabın mühəqqiqi) deyirəm: "ət-Təqrib" əsərində (r.4734) də həmin ravi "zəif" kimi xarakterizə olunub. "ət-Təhzib"ə baxsan (c.8, səh 322-324), həmin ravinin zəifliyi barəsində çoxlu rəyləri görə biləcəksən, amma hədisin mətni səhihdir, "Səhih əl-Buxari" və "Səhih Müslim"in hər ikisində və ya heç olmasa birində hədis "səhih" hədis kimi qəbul edilib."

***Əbu Səid Osman ibn Səid Darəmi, ər-Rədd əla əl-cəhmiyyə, s.113, h.184, Dar İbn əl-Əsir, Kuveyt, 1415/1995***



Fotoşəkil: Əbu Səid Osman ibn Səid Darəmi, ər-Rədd əla əl-cəhmiyyə, s.96, h.184, Dar əs-Sələfiyyə, Kuveyt, 1405/1985

## Allahın əli!!!

**Kəbədəki qara daş Allahın həqiqi sağ əlidir!!!**

كان أبُو القاسم بن السمرقندي ، يقول : إن أبا بكر بن الخاضبة كان يسمى ابن الفاعوس الحجري ، لأنه كان يقول : الحجر الأسود يمين الله حقيقة

قلت : إن صح عن ابن الفاعوس أنه كان يقول : الحجر الأسود يمين الله حقيقة ، فأصل ذلك : أن طائفة من أصحابنا ، وغيرهم نفوا وقوع المجاز في القرآن ، ولكن لا يعلم منهم من نفى المجاز في اللغة

Əbul-Qasim ibn əs-Sumər Qəndiy deyirdi: Əbu Bəkr ibn Xadibə İbn Fausu Həcəri adlandırırdı. Çünki İbn Faus deyirdi: Həcərul-əsvəd (Kəbədəki qara daş) Allahın həqiqi sağ əlidir.

(İbn Rəcəb) Deyirəm: İbn Fausun "Həcərul-əsvəd Allahın həqiqi əlidir" deməsi doğrudur. Bunun əsli bizim alimlərdən və digərlərinin Quranda məcazın olduğunu inkar etməsidir. Lakin onlardan kiminsə lüğətdə məcazı inkar etməsi barədə məlumat yoxdur.

***Hafiz Əbdür-Rəhman ibn Əhməd ibn Rəcəb əl-Hənbəli, əz-Zeylu əla Təbəqat əl-Hənabilə, c.1, s.384; Məktəbə əl-Ubeykan - ər-Riyad, 1425 h; təhqiq: DoktorƏbdür-Rəhman b. Süleyman əl-Useymin.***








Hafiz Əbdür-Rəhman ibn Əhməd ibn Rəcəb əl-Hənbəli, əz-Zeylu əla Təbəqat əl-Hənabilə, c.1, s.384; Məktəbə əl-Ubeykan - ər-Riyad, 1425 h; təhqiq: Doktor.Əbdür-Rəhman ibn Süleyman əl-Useymin.

***Qeyd:*** *İbn Rəcəb əl-Hənbəli hicri 736-cı ildə Bağdadda anadan olmuşdur. Təfsir, hədis, fiqh elmlərində müxtəlif kitabların müəllifidir. İmam Muflih əl-Hənbəli onun haqqında deyib: O, şeyxdir, böyük alim və hafizdir. Dünya*

*həyatından çəkinən şəxs idi. O, hənbəli məzhəbinin şeyxi və müxtəlif kitabların müəllifidir.*

Fotoşəkil: Müslim b. əl-Həccac, əl-Müsnədus-səhih bi nəqlil ədli, s.1126, №2402(27); Dar Teybə, ər-Riyad, Səudiyyə Ərəbistanı, 1427/2006; təhqiq: Nəzər b. Muhəmməd əl-Qurtubi



Fotoşəkil: Müslim ibn əl-Həccac, "əl-Müsnədus-səhih bi nəqlil ədli", s.977, №2402(27); Beytul-Əfkar əd-Dəvliyyə lil-Nəşr, ər-Riyad, Səudiyyə Ərəbistanı, 1419/1998



Fotoşəkil: Müslim ibn əl-Həccac, əl-Müsnədus-səhih bi nəqlil ədli, s.1866-67, №2402(27); Dar İhyail-Kutubil-Ərəbiyyə, ər-Riyad, Səudiyyə Ərəbistanı, 1412/1991; təhqiq: Muhəmməd Fuad Əbdül-Baqi

# VƏHHABİLƏRİN GÜLMƏLİ EHKAM VƏ FƏTVALARINDAN

Cahillərin əsassız yazdıqları fiqh kitablarında gülməli şəriət hökmlərinə çox rast gəlmək olar. Hətta onlardan bəzilərini burada gətirməkdən həya etdim. Çünki elə abırsız sözlər vardır ki, Allah eləməsin doğru İslamla məlumatı olmayan şəxsin əlinə keçsə, o kəsdə hikmətlədolu dinimizə qarşı nifrət yaradar.

Biz burada ixtisarı nəzərə alaraq sadəcə bir-ikisinə işarə etməklə kifayətlənirik.

## Sələfi şeyxi Muqbil əl-Vadiinin televizora baxmaq barədə fətvası

Sələfilərin (vəhhabilərin) tanınmış alimi Şeyx Muqbil ibn Hadi əl-Vadii “Tuhfə əl-mucib” kitabında yazır:

**السؤال 10: ما حكم اقتناء التلفاز والنظر إليه لأجل معرفة الأخبار؟**

**الجواب: لا يجوز من أجل الصورة، ومن أجل ما يحصل فيه من الفجور والفسوق...**

Sual 10: Xəbərlərdən məlumat əldə etmək üçün televizoru yandırıb ona baxmağın hökmü nədir?

Cavab: Şəkil düzəltməyin (haramlığına) görə, ondan meydana gələn fisq-fucura görə və oğurluq etməyi xatırlatdığına görə... caiz deyildir.




Fotoşəkil: Muqbil ibn Hadi əl-Vadii, Tuhfə əl-mucib, s.270; Dar əl-Əsar, Sana (Yəmən), 1423/2002

## İbn Teymiyyə: “Meymunla xəlvətdə olmaq haramdır”!!!

Vəhhabilik və sələfiliyin mənəvi atası çox gülməli və qəribə bir fətva ilə tarixə düşüb. O, qələmə aldığı "əl-Fətava əl-Kubra" kitabında yazır:

**وتحرم الخلوة بغير محرم ولو بحيوان يشتهي المرأة أو تشتهيه كالقرد.**

Naməhrəm ilə xəlvətdə olmaq haramdır, hətta o, qadına meyl sala bilən yaxud qadının meyl sala biləcəyi heyvan, məsələn meymun olsa belə.

***İbn Teymiyyə əl-Hərrani, əl-Fətava əl-kubra, c.4, s.528; Dar əl-Marifə, Beyrut***




Fotoşəkil: İbn Teymiyyə əl-Hərrani, əl-Fətava əl-kubra, c.5, s.449; Dar əl-Kutub əl-İlmiyyə, Beyrut, 1408/1987; təhqiq: Muhəmməd Əbd əl-Qadir Ata və Mustafa Əbd əl-Qadir Ata.

## *VAHHABİLİYİN QANUNLARI*

*Dini silahla tətbiqə işləyən, namaz qılmayana ölüm cəzası nəzərdə tutan, özlərindən olmayanları kafir bilərək qəbiristanlıqlarını ayıran, Peyğəmbər dövründə olmayan hər şeyi pozğunluq elan edən, əməlsiz imanı küfr sayan, Quran ayələrini ağılla şərh etməyi qadağan edən Vəhhabiliyin ana qanunları bu 18 maddədə toplanır:*

*1) Allahın şəxsi, sifəti və hərəkəti eynidir. Ayrı ola bilməz.*

*2) Bu Tövhiddir. Tövhidə inanmayanın malı, canı halaldır.*

*3) Əməl imanın içində gizlidir, əməlsiz iman ola bilməz.*

*4) Əməli yerinə yetirməyənə hərb açılar. Kəsdiyi məğlub etdilməz. Bu kəslərə qarşı cihad edilər.*

*5) Ayələri şərh etmək küfrdür. Hökm zahirə görədir.*

*6) Allaha vasitəsisiz ibadət şərtdir. Mürşid, şeyx, vəli, vasitəçi küfrdür.*

*7) Qəti dəlil Qurandır. Şiə, kəlam, təsəvvüf, təriqət uydurmadır.*

*8) Quran və Hədisdən başqa hər şey bidətdir.*

*9) Məzar, türbə etmək, əhd həsr etmək, qəbir ziyarəti küfrdür*

*10) Allahdan başqa kimsədən kömək gözləmək küfrdür.*

*11) Namazı camaatla qılmaq şərtdir. Namaza gəlməyən cəza alar.*

*12) Siqaret, nargilə, içki və qəhvə içənə qırx dəyənək vurular.*

*13) Vəqf batildir. Vəqf quranlar sərvətlərini qaçıranlardır.*

*14) Tilsim, təsbeh, zikr, sünnə və nafilə namaz batildir.*

*15) Əl öpmək, boyun qırmaq, övliya qəbiri və saqqalı şərif ziyarəti, mövlud və əzələsidə oxuma, çalğı dinləmək, əylənmək şirkdir.*

*16) Əhli beyt sevgisi daşımaq, Əli övladını günahsız (məsum) saymaq şirkdir.*

# MÜNDƏRİCAT

*VƏHHABİYYƏTİN TARİXÇƏSİ...................................................................... 3*

*VƏHHABİLİYİN YANLIŞ ƏQİDƏLƏRİ?.................................................... 9*

*VƏHHABİLİYİN HƏQİQİ MÜSƏLMANLARAİFTİRA VƏ*

*BÖHTANLARI…………………………………….……………….…….… 65*

*VƏHHABİLƏRİN CİNAYƏTLƏRİ................................................................. 75*

*VƏHHABİLİYİN ZİDDİYYƏTLİ MÖVQEYLƏRİ?....................................... 89*

*SƏHİH HESAB ETDİKLƏRİ KİTABLARDA GÜLMƏLİ HƏDİSLƏR.... .93*

*VƏHHABİLƏRİN GÜLMƏLİ EHKAM VƏ FƏTVALARINDAN................ 101*

*VAHHABİLİYİN QANUNLARI ......................................................................101*